www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 oktyabr 2015-ci il Cümə № 217 (6245) Qiymətı 40 qəpik

## Xəbər

### Bakıda qadın ərini doğrayıb meşədə basdırdı

yazısı səh.15-də

## Gündəm

### NİDA rəhbərliyindən istefalar

İki gün ərzində qurumun rəhbərlərdən üçü istefa verib; təşkilatın qurultayı nə üçün baş tutmayıb?

yazısı səh.6-da

### "Qərblə rəsmi Bakı arasında məxfi məsləhətləşmə" iddiası

yazısı səh.9-da

### ANS-MTRŞ davası daha da qızışdı

yazısı səh.10-da

### Həbsdəki Orxan Zeynalovla bağlı müəmma

yazısı səh.3-də

### Deputat Araz Əzimovun nazir olmaq ehtimalından danışdı

yazısı səh.11-də

### DSK sədrləri "yoxa çıxıb"-müxalifət namizədlərinin imzaları əllərində qala bilər

yazısı səh.8-də

### YAP-ın formal namizədləri də mandat davasına çıxır

yazısı səh.12-də

### Zakir Həsənov cəbhə bölgəsində bazanın tikintisini yoxladı

yazısı səh.2-də

### Daşınmaz əmlakın qeydiyyatında "bir pəncərə"nin tətbiqinə başlandı

yazısı səh.15-də

### Payızla bərabər infeksion xəstəliklər də gəlib...

yazısı səh.13-də

### Bakıda elan: "Ay alan, böyrək satıram..."

yazısı səh.10-da

### Halal "Hacı pivəsi": adı tərkibi ilə uzlaşırmı?

yazısı səh.13-də

### Beynəlxalq Bank qarşısında aksiya

yazısı səh.6-da

## Rusiya cəhənnəmə getməyə yoldaş axtarır

# AZƏRBAYCANI İŞİD-LƏ MÜHARİBƏYƏ ÇƏKİRLƏR - SENSASİON GƏLİŞMƏ

Moskvadan Bakıya anti-İŞİD əməliyyatlarına qoşulmaqla bağlı mesajlar gəlir; Kreml rus qırıcılarının Bəşər Əsəd rejiminə yardımı üçün hava məkanımızdan və hərbi aerodromlarımızdan istifadə etməyi planlaşdırır




yazısı səh.5-də

# Azərbaycan "Putin ittifaqı"na doğru

Qərblə soyuq münasibətlər fonunda Bakıdan Kremlə daha bir jest: Azərbaycan Avrasiya Birliyinə qoşula bilər; Elmar Məmmədyarov: "Heç vaxt "heç vaxt" demə..."

yazısı səh.9-da



*Mirmahmud Mirəlioğlu:*

### "Heyf o çörəkdən ki, belə yeyirlər"

yazısı səh.7-də



Möhsin Pakayin

*İranın Bakıdakı səfiri:*

### "Məkkədə şəxsiyyəti müəyyən edilməmiş 21 konteyner cəsəd qalır"

yazısı səh.4-də



Məmməd İbrahim

### Əli Kərimlinin müşavirinin həbsi aranı qatdı

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 217 (6245) 2 oktyabr 2015



## Zakir Həsənov cəbhə bölgəsində bazanın tikintisini yoxladı

**Cəbhəboyu zonada yerləşən bir neçə yeni iri hərbi hissədə görülən işlərin yekun mərhələsi ilə tanış olmaq və tikintinin keyfiyyətini yoxlamaq məqsədilə müdafiə naziri, general-polkovnik Zakir Həsənov inşa edilən obyektlərdə olub.**

Bu barədə Azərbaycan MN-dən bildiriblər. Qısa bir müddətdə istifadəyə veriləcək yeni hərbi şəhərciklərdə 20 min nəfərdən artıq şəxsi heyətin yerləşdirilməsi üçün tam şərait yaradılıb, o cümlədən 500-dən artıq ailəli və subay hərbi qulluqçular üçün xidməti mənzillər tikilib.

Ölkə prezidentinin göstərişinə əsasən, cəbhə bölgəsində yeni tikilən hərbi şəhərciklərdə aparılan inşaat işlərinin gedişatını yoxlayan müdafiə naziri hərbi obyektlərin plana uyğun, keyfiyyətli tikilməsi, müəyyən olunmuş müddətdə başa çatdırılması, həmçinin quruculuq işlərinin aparılması ilə əlaqədar müvafiq tapşırıq və tövsiyələrini verib.

## Ötən ay cəbhədə 20 erməni hərbçi öldürülüb

**Bu ilin sentyabr ayında erməni silahlı bölmələri cəbhə xəttində atəşkəs rejimini 828 dəfə pozub. APA-nın Azərbaycan Müdafiə Nazirliyinin təsdiq etdiyi məlumatlar əsasında apardığı monitorinqin nəticələrinə görə, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 mm çaplı minaatanlardan, iriçaplı pulemyotlardan istifadə etməklə aktiv təxribat fəaliyyətləri keçirməyə cəhd göstərib.**

Bütün hallarda düşmən cavab atəşi ilə susdurulub, hərəkət cəhdlərinin qarşısı alınıb.

Sentyabr ayı ərzində atəşkəsin pozulmasına görə ilk yerdə cəbhənin Ağdam istiqaməti gəlir. Bu istiqamətində atəşkəsin 229 dəfə pozulması faktı qeydə alınıb. Qarabağ cəbhəsində atəşkəs pozuntularının sayına görə ikinci yerdə (171 dəfə) Füzuli rayonu gəlir.

Qarabağ cəbhəsi üzrə sentyabrda Tərtər rayonu istiqamətində atəşkəs 83, Xocavənd rayonu istiqamətində 58, Cəbrayıl rayonu istiqamətində isə 51 dəfə pozulub.

Cəbhə xəttində gərginlik yaradan Ermənistan ordusu atəşkəsi Goranboy rayonu istiqamətində 104, Tovuz istiqamətində 24, Gədəbəy rayonu istiqamətində 27, Qazax rayonu istiqamətində 59, Göygöl rayonu istiqamətində 15, Ağstafa rayonu istiqamətində isə 7 dəfə pozub.

Ötən ay erməni silahlı bölmələrinin diversiya qrupunun 2 üzvü, habelə, 18 hərbi qulluqçusu öldürülüb. Düşmənin çoxlu sayda yaralısı olub.

Sentyabrda Azərbaycan Silahlı Qüvvələri də itki verib. Hərbi qulluqçular Məmmədov Elşən Vaqif oğlu, Vəliyev Rauf Fəxrəddin oğlu, Əhmədzadə Neman İspəndiyar oğlu və Mustafazadə Zöhrab Namiq oğlu şəhid olub.

Daha 3 hərbi qulluqçumuz isə yüngül qəlpə yaraları alıb.

Ötən ay Ermənistan Silahlı Qüvvələrinin növbəti pilotsuz uçan aparatı da zərərsizləşdirilib. Cəbhənin Ağdam rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus, ilkin ehtimala görə, “Krunk-25" tipli taktiki pilotsuz uçan aparatı (PUA) Azərbaycan Hərbi Hava Qüvvələrinin hava hücumundan müdafiə bölmələri tərəfindən aşkar olunaraq atəş nəticəsində məhv edilib.

## Ermənistan gələn il büdcəsinin həcmini açıqladı

**Ermənistan hökuməti ölkənin 2016-cı il üçün nəzərdə tutulmuş büdcə layihəsini təsdiq edib. Modern.az Ermənistan KİV-nə istinadla xəbər verir ki, gələn il üçün Ermənistan büdcəsinin gəlirləri 1,219 trilyon dram (2,688 milyard manat), xərcləri isə 1,411 trilyon dram (3,112 milyard manat) olacaq. Bu arada büdcə kəsirinin miqdarı 192,4 milyard dram, yaxud 423,2 milyon Azərbaycan manatı təşkil edəcək.**

Qanun layihəsi sabah Ermənistan parlamentinin müzakirəsinə çıxarılacaq.

Qanun layihəsi qəbul olunduqdan sonra təsdiqlənməsi üçün prezident Serk Sərkisyana təqdim ediləcək.

“Elm” tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

# Adı Abbas Abbasovla şəriklikdə hallanan deputat danışdı

### Mahir Aslanov: “Heç onun deputat oğlu Aydın müəllimlə də münasibətim yoxdu”

**Bu günlərdə bəzi saytlar deputat Mahir Aslanovla bağlı xəbər yayıblar. Xəbərdə bildirilir ki, o, növbəti parlament seçkilərində namizədliyini 96 saylı Goranboy-Naftalan seçki dairəsindən irəli sürmək istəyir. Bunun üçün M.Aslanovun adamları prosedura uyğun olaraq imza yığırlar. Məlumata görə, seçiciləri ona imza verməkdən imtina ediblər. Buna səbəb kimi deputatın 5 il ərzində öz seçicilərinin problemləri ilə maraqlanmaması göstərilir.**



Mətbuat həmçinin yazıb ki, Mahir Aslanov qanunları pozaraq biznes fəaliyyətini də davam etdirir. 1949-cu ildə anadan olan Mahir Aslanov parlamentin Aqrar siyasət komitəsinin üzvüdür. Bu şəxs “Kəpəz Group”un sahibidir. Deputat tikintidən tutmuş mebel sahəsinə qədər bir çox sahələr üzrə biznes fəaliyyəti göstərir. Bu şirkət tikinti, mebel, restoran, mehmanxana biznesi, həmçinin təmir-dizayn sahələri üzrə ixtisaslaşıb. Şirkət Almaniya, Türkiyə, BƏƏ, Rusiya, Rumıniya ilə güclü əlaqələr qurub.

Deputatın onlarla iri yük daşıma ilə məşğul olan TIR-ların olduğu bildirilir. Həmçinin Həsən Əliyev küçəsində yerləşən “Kəpəz Mebel Evi”nin də ona məxsus olduğu haqda iddialar var. O da bildirilir ki, deputatın Bakıda bir neçə çoxmərtəbəli binaları var.

Saytlar daha sonra yazır ki, deputat Nəsimi rayonunda 50-yə yaxın ailənin yaşadığı evi təhlükə altında qoyaraq, sözügedən ünvanda özünə məxsus iki villanı uçurdub, yerində beş ulduzlu hotel tikdirib.

Amma açıqlamasında deputat bu binanın hotel deyil, beşmərtəbəli yaşayış binası olduğunu, birinci və ikinci mərtəbələrinin ticarət mərkəzləri, qalanlarının isə ev, ofis olduğunu söyləyib.

Onun ən gəlirli obyektinin isə Nəsimi rayonu, Abbas Səhhət küçəsində yerləşən “Happy inn” hoteli olduğu vurğulanır. Bu hotel vasitəsilə M.Aslanov il ərzində külli miqdarda gəlir götürür. Xüsusən ölkəmizə gələn idmançılar, futbol klubları məhz bu hoteldə yerləşdirilir.

Deputatın baş nazirin sabiq 1-ci müavini Abbas Abbasovla da şərikli biznesinin olduğu haqda məlumatlar var. M.Aslanovun Abbas Abbasovun Rumıniyadan ölkəyə gətirdiyi mebellərin satışını həyata keçirdiyi bildirilir.

**Haqqında yazılanlara münasibətini öyrənmək üçün musavat.com-un əməkdaşı M.Aslanovla telefon əlaqəsi saxlayıb.**

**Deputat deyib ki, seçicilərin onu boykot edib-etmədiyini seçkilər göstərəcək:** “Hamı bilir ki, mən kiməm. Mən Abbas Abbasovla bağlı danışmaq istəmirəm. 66 yaşım var, barəmdə kim nə yazır yazır da. Mənim Abbas Abbasovla tanışlığım belə yoxdur, o ki qalmışdı onunla şərik olam. Heç onun deputat oğlu Aydın müəllimlə də münasibətim, salam-əleykim yoxdur. Baxmayaraq ki, 5 ildir deputatıq. Çox adam çox şey yaza bilər. Mən özümə arxayınam, kim nə istəyir yazsın”.

❑ E.MƏMMƏDƏLİYEV

## Hər rus əsgərinin başına 10 min dollar pul qoyuldu

**Suriyadakı Rusiya qoşunları “ən-Nüsra Cəbhəsi” yaraqlılarına endirilən dünənki aviazərbələrdən sonra islamçıların hədəfinə çevrilib. Onlar hər rus əsgərinin başına 1 milyon Suriya lirəsi məbləğində mükafat təyin ediblər.**

Virtualaz.org saytı xəbər verir ki, bu barədə məlumatı rusiyalı jurnalist İlya Varlamov öz bloqunda yayıb. Jurnalist bu zaman “ən-Nüsra Cəbhəsi”nin twitter səhifəsinə istinad edib.

“Yerli islamçılar, İŞİD yox, ”ən-Nüsra Cəbhəsi" bir rus əsgərinin başına 1 milyon Suriya lirəsi, yəni təxminən 10 min ABŞ dolları pul mükafatı təyin edib" - deyə İ.Varlamov yazır.

Qeyd edək ki, Rusiya bir neçə gün əvvəl Suriyaya qoşun yeridib. Hazırda bu ölkədə rus əsgərləri anti-Əsəd qüvvələrə qarşı döyüşür.

# “ABŞ Rusiyanı Yaxın Şərqdən qovur”

### Fərrux Məmmədov: “Mossad və MKİ bölgədə nəzarəti tam ələ almaq üçün plan qurub...”

**“Amerika Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) ABŞ Dövlət Departamenti ilə bərabər, Yaxın Şərqdə və ərəb ölkələrində kəşfiyyat işi və diplomatlara xas olmayan digər işlərlə məşğul olan əllidən artıq rus diplomatının adlarını, soyadlarını ərəb dövlətlərinə göndərib. Əslində bu əməliyyata 2012-ci ildən başlanılıb. Məqsəd isə ”Hizbullah"a, “Həməs”ə və Əsəd rejiminin tərəfdarlarına verilən mənəvi və maddi dəstəyin qarşısını almaqdır".**

Bu sözləri musavat.com-a açıqlamasında NATO Əməkdaşlıq İnstitutunun prezidenti Fərrux Məmmədov deyib. O bildirib ki, Rusiya artıq ötən il ərzində qeyd olunan ölkələrdən 20-yə yaxın diplomatını geri çağırıb: “Bu əslində Rus Hərbi Kəşfiyyatı (GRU) və Rusiya Milli Təhlükəsizlik Nazirliyi (FSB) üçün fiaskodur. Bir ildə 20-yə yaxın əməkdaşın agent olduğunun sübuta yetirilməsi və deport edilməsi ona ağır zərbədir. Putinin BMT səfərində məhz bu barədə ona əlavə olaraq məlumat verilib ki, ”ov" davam edir. Amerikanın əlində daha 50 nəfərin adı var".

**Politoloqun sözlərinə görə, bu əməliyyata İsrailin baş naziri Benyamin Netanyahunun Moskva səfərindən sonra Mossad da qoşulub:** “Hazırda Mossad, MKİ və ABŞ Dövlət Departamenti bu yöndə çalışmaları davam etdirir. Əməliyyatın pərdəarxası isə bundan ibarətdir ki, Rusiya diplomatları yalqız deyil, onlar İran diplomatları ilə bərabər bütün işləri görürlər. Netanyahu Moskva səfərində Putinə bütün baş verən hadisələrdən xəbərdar olduqlarını bildirib. Rəsmi Tel-Əviv xəbərdar edib ki, əgər Rusiyanın İranla bərabər ”Həməs" və “Hizbullah”a dəstəyi sübuta yetirilərsə, o zaman daha ağır nəticələrə qatlana bilər. Putin bütün bunlardan sonra aqressiyasını daha da artırıb. Parlamentdən digər dövlətdə mübarizə icazəsini istəyib. Bunlar Rusiyanın Yaxın Şərqdə sonunun gəldiyinə işarədir. Mossad və MKİ Yaxın Şərqdə nəzarəti tam ələ almaq fikirlərindədir və bu yöndə bütün addımları atacaqlar".

❑ Əli RAİS



Şimon Peres

## İsrailin sabiq prezidenti Azərbaycana gəlir

**İsrailin sabiq prezidenti Şimon Peres Azərbaycana gəlir. APA-nın məlumatına görə, bu gün o, ADA Universiteti tələbələri qarşısında məruzə ilə çıxış edəcək.**

Xatırladaq ki, dünya dövlətlərinin rəsmi şəxsləri, nüfuzlu siyasətçilər mütəmadi olaraq ADA Universiteti tələbələri qarşısında mühazirə oxuyurlar.

## Azərbaycanlı zəvvarların Həccdən qayıdışı oktyabrın 3-nə kimi uzadılıb

**Azərbaycanlı zəvvarların Həccdən qayıdışı ilə bağlı uçuş qrafikinin son gününün oktyabrın 1-i olmasına baxmayaraq, gecikmə səbəbi ilə vaxt dəyişdirilib.**

Qafqaz Müsəlmanları İdarəsinin Həcc missiyasından APA-ya verilən məlumata görə, zəvvarları gətirən sonuncu təyyarənin ya bu gün axşam, ya da oktyabrın 3-də səhər tezdən Ciddədən qalxacağı planlaşdırılıb. Bu gün isə azərbaycanlı zəvvarları gətirmək üçün 3 aviareys nəzərdə tutulub ki, onlardan biri artıq reallaşıb, digərləri saat 17:20-də və 23:00-da Bakıya enəcək.

Təxminən 250 zəvvarı gətirəcək daha bir təyyarənin isə oktyabrın 3-də səhər tezdən Ciddə hava limanından Bakıya yola düşməsi nəzərdə tutulub.

## RATİ əməkdaşı yenə prokurorluğa çağırıldı

**Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun əməkdaşı Tatyana Kryuçkina oktyabrın 2-si saat 9.30-a Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İstintaq İdarəsinə çağırılıb. Bu barədə məlumatı facebook səhifəsində o özü yayıb.**

Kryuçkinanın bildirdiyinə görə, indiyə qədər o bir neçə dəfə “QHT işi” ilə bağlı dindirilib. Sonuncu dəfə o bu məsələ ilə bağlı yanvar ayının axırlarında ifadə verib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 217 (6245) 2 oktyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# 97 yaşlı prokurorluq sistemi...

## Azərbaycanın bu günə qədər 30 baş prokuroru olub

**1 oktyabr Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günüdür. Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının tarixi Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə söykənir. 1918-ci ilin noyabrın 18-də Nazirlər Şurası tərəfindən "Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə" təsdiq edilib.**

1 oktyabr 1918-ci il tarixli qərarla Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanları fəaliyyətə başlayıb. Həmin günün Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə prezident sərəncamı isə 17 iyul 1998-ci ildə imzalanıb.

Yarandığı gündən indiyə qədər Azərbaycan dövlətinin 30 baş prokuroru olub. Bu vəzifəyə 2 dəfə təyinat alan Xəlil bəy Xasmədovla Bahadır Qasım oğlu Vəlibəyovdur.

Azərbaycan Xalq Cümhuriyyətinin ilk və sonuncu prokuroru Xəlil bəy Xasmədov olub. 28 may 1918-ci ildə bu vəzifənin icrasına başlayan X.Xasmədov 22 gün sonra postunu Fətəli xan Xoyskiyə təhvil verib. Ölkəmizin sayca 3-cü prokuroru Teymur bəy Makinski olub. 26 dekabr 1918-ci ildə bu posta təyinat alan T.Makinski 1919-cu ilin martına qədər bu vəzifədə qalıb. 14 mart 1919-cu ildə prokuror vəzifəsinə təyin olunan Aslan bəy Səfikürdski həmin ilin dekabrında postunu Xəlil bəy Xasmədova təhvil verib. Azərbaycan Xalq Cümhuriyyətinin süquta yetirilməsindən sonra Azərbaycan SSRİ-nin ilk prokuroru Əliheydər Qarayev təyin olunub. Onu 1937-ci ildə güllələyiblər. Sonradan isə Sergey Timofeyeviç İvanov, Bahadır Qasım oğlu Vəlibəyov (2 dəfə bu posta təyinat alıb), Böyükağa Mirqasım oğlu Talıblı, Hüsü Hüseynəli oğlu Hacıyev, Böyükağa Mirqasım oğlu Talıblı, Ayna Mahmud qızı Sultanova, Yaqub Məmməd oğlu Məmmədov, Ağahüseyn Mehdi oğlu Əlihuseynov, Cəbrayıl Haşım oğlu Cəbrayılzadə, Xəlil Sədrəddin oğlu Əfəndiyev, Əliabbas Nəcəf oğlu Əliyev, Hacı Məmməd oğlu Rəhimov, Adil Salman oğlu Babayev, Seyfulla Əkbər oğlu Əkbərov, Qambay Ələsgər oğlu Məmmədov, Abbas Məmmədtağı oğlu Zamanov, İlyas İsmayılov olublar.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra İsmət İsmayıl oğlu Qayıbov baş prokuror təyin olunub. Onun Qarakənd səmasında vurulan vertolyotda faciəli ölümündən sonra Murad Köçəri oğlu Babayev, ardından isə İxtiyar Əlibala oğlu Şirinov, Əli Ömər oğlu Ömərov, Eldar Hümbət oğlu Həsənov və nəhayət, hazırda bu postu tutan Zakir Bəkir oğlu Qaralov baş prokuror vəzifəsinə təyinat alıblar. Z.Qaralov baş prokuror postunda olaraq peşə bayramını 2000-ci ildən qeyd edir. O, Azərbaycan prokurorluğu tarixində bu postda 15 il qalan ilk baş prokurordur.

97 il əvvəl yaradılan bir qurumda çalışaraq qanunçuluğun keşiyində dayanmaq, hər kəsin qanun qarşısında hüquq bərabərliyini təmin etmək kimi ümdə vəzifəni daşıyanlara bu çətin işlərində uğurlar arzulayırıq.

❑ E.MƏMMƏDƏLİYEV



İsmət Qayıbov



Murad Babayev



İxtiyar Şirinov



Əli Ömərov



Eldar Həsənov



Zakir Qaralov

## Avropa Məhkəməsindəki hakimimizin səlahiyyət müddəti artırıldı

**Azərbaycanı İnsan Hüquqları üzrə Avropa Məhkəməsində (AİHM) təmsil edən hakim Xanlar Hacıyevin səlahiyyət müddəti artırılıb.**

Bunu "Report"a Azərbaycan Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri, Azərbaycanın Avropa Məhkəməsindəki daimi nümayəndəsi Çingiz Əsgərov deyib.

Ç.Əsgərov bildirib ki, Azərbaycanı Avropa Məhkəməsində təmsil edəcək hakim vəzifəsinə namizədlərin yeni siyahısını hələlik Avropa Şurası Parlament Assambleyasına təqdim etməyib: "Bu, prosedura uyğun olaraq həyata keçirilir. Azərbaycan 2016-cı ilin yanvarına qədər hakim vəzifəsinə namizədlərini təqdim edəcək. Apreldə isə Avropa Şurasının Parlament Assambleyasında bu məsələyə baxılacaq, qərar veriləcək".

Ç.Əsgərov deyib ki, qaydaya uyğun olaraq, hazırda Azərbaycanı Avropa Məhkəməsində təmsil edən Xanlar Hacıyevin səlahiyyət müddəti artırılıb.

Qeyd edək ki, 2003-cü ildən Azərbaycanı Avropa Məhkəməsində təmsil edən X.Hacıyevin səlahiyyət müddəti bu il oktyabrın 31-də başa çatır. Azərbaycan hökuməti bu ilin aprelində Avropa Məhkəməsinin hakimi vəzifəsinə üç namizəd irəli sürüb. Namizədlər Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri, Azərbaycanın Avropa Məhkəməsindəki daimi nümayəndəsi Çingiz Əsgərov, Bakı Apelyasiya Məhkəməsinin hakimi Aygun Abdullayeva və 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin hakimi Vüsalə Baxışova olub. AŞ PA-nın Alt Komitəsi namizədləri qəbul etməyib və geri qaytarıb.

# Həbsdəki Orxan Zeynalovla bağlı müəmma

## Onun Azərbaycana ekstradisiyası ilə bağlı ziddiyyətli vəziyyət yaranıb

**Rusiyanın Ədliyyə Nazirliyi barəsində 17 il həbs qərarı verilən Orxan Zeynalovun Azərbaycana ekstradisiyası xəbərini təkzib edib. Rusiya KİV-lərində yer alan məlumatdan belə aydın olur ki, O.Zeynalovun Azərbaycana ekstradisiyası ilə bağlı onlara ərizə daxil olmayıb. Xatırladaq ki, O.Zeynalovun yaxınları bu məsələnin artıq razılaşdırıldığını iddia edirdilər.**

Rusiyanı silkələmiş bir qətldə suçlanaraq həbs olunan Orxan Zeynalov Azərbaycana ekstradisiya oluna bilərmi? Bu sualla **"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxışa** müraciət etdik. Tanınmış hüquqşünas bildirdi ki, O.Zeynalovun Azərbaycana ekstradisiya olunması üçün hüquqi baza var: "Qarşılıqlı hüquqi yardım haqda qanun var. Həmin qanuna əsasən, məhkumun özü ekstradisiya olunması üçün müraciət edə bilər. Bu halda Orxan Zeynalov Rusiya Ədliyyə Nazirliyinə müraciət etməlidir. Müraciətinə Rusiya Ədliyyə Nazirliyində baxılıb qərar qəbul olunmalıdır. Onun cəzasını Azərbaycanın cəzaçəkmə müəssisəsində çəkməsi imkanları mövcuddur. Sadəcə olaraq, buna hər iki dövlətin ədliyyə nazirlikləri razılıq verməlidir".

**M.Baxış O.Zeynalovun Azərbaycana verilməsi üçün adekvat şəraitin olmadığını da dilə gətirdi:** "Sivil dünyada hüquqi dövlət anlayışı var. Bu və ya digər dövlətə etibar etmək məsələsi var. Azərbaycana bu baxımdan hüquqi dövlət kimi yanaşma məsələsi var. Bir neçə dəfə Azərbaycan dövlətlərarası müqavilənin tələbini pozub. Belə bir halda digər dövlətin rəsmiləri düşünür ki, bu və ya digər şəxsi cəzasını çəkmək üçün Azərbaycana təhvil veriləcəyi təqdirdə onu cəzadan vaxtından əvvəl azad edə bilərlər. Bu situasiyada Rusiya Orxan Zeynalovu Azərbaycana verməkdən imtina da edə bilər".

**M.Baxış deyir ki, O.Zeynalovun özünün cəzasını Azərbaycanda çəkmək arzusu olduğu təqdirdə dövlət onu ekstradisiya edə bilər:** "Ekstradisiya haqda mövcud müqaviləyə görə ekstradisiya olunan məhkumun cəzasını çəkməsi, ona hansı prosedurların tətbiq olunması haqda ərazisində cinayətin törədildiyi dövlətin, bu halda isə Rusiyanın Ədliyyə Nazirliyinə mütəmadi olaraq məlumat verilməlidir".

Xatırladaq ki, həmyerlimiz Yeqor Şerbakovu öldürməkdə günahkar bilinərək 17 il azadlıqdan məhrum edilib.

❑ E.MƏMMƏDƏLİYEV



Orxan Zeynalov

# Siyasətdəki terrorçular



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Rusiya Qərbə, ələlxüsus ABŞ-a indi də Suriyadan meydan oxumağa başlayıb. Özü də rəsmi Kremlin təbirincə desək, "tam legitim qaydada". İş ondadır ki, Moskva bu bəyanatı dönə-dönə verməkdən yorulmur ki, "Suriyada məhz yerli hökumətin, prezident Bəşər Əsədin birbaşa xahişi ilə əməliyyatlara başlayıb".**

Bununla Kreml sözsüz ki, ilk növbədə İŞİD-ə qarşı koalisiyanın başında dayanan ABŞ-ın Suriya hava məkanından beynəlxalq hüquqa zidd olaraq istifadə etməsinə, Suriya ərazisinə qanunsuz girməsinə diqqət yönəltməyə, Amerikanı gözdən salmağa çalışır. Məsələnin ən absurd tərəfi də elə budur.

Çünki əvvəla, Bəşər Əsəd rejiminin özü çoxdan legitim deyil, nədən ki, ötən il müharibənin ən qaynar vaxtında, milyonlarla suriyalının ölkədən didərgin düşdüyü, yüz minlərləsinin öldürüldüyü vaxtlarda o, saxta seçki təşkil edərək, özünü növbəti dəfə prezident elan edib. Başqa sözlə, onun Suriya xalqının adından danışmağa, xalqı təmsil eləməyə hüquqi bir yana, heç mənəvi haqqı da yoxdur.

İkinci absurd məqam rəsmi Moskvanın özünün "legitim müdaxilə"dən dəm vurmasıdır. Sən demə, Rusiya Ukraynanın ayrılmaz tərkib hissəsi olan Krımı özünə legitim yolla birləşdiribmiş. Sən demə, bu gün də Donbasda at oynadan, bölgədə vəziyyəti qarışdıran və Kiyevi təhdid edən rus hərbçiləri, "yaşıl adamcıqlar" Ukraynanın Şərqinə, Donbasa tam legitim əsasda, rəsmi Kiyevin xahişi ilə soxulubmuşlar.

Əlbəttə ki, yox. Dünya artıq neçənci dədədir ki, Kremlin belə iki və çoxüzlü, sinik (abırsız) siyasətinə şahidlik edir. Bu həmin Rusiya, Putindir ki, Çeçen xalqının azadlıq, müstəqillik arzusunu qan gölündə boğduğu halda, Tatarıstanın 52 faiz səslə Rusiyadan ayrılmaqla bağlı qanunu referendumuna məhəl qoymadığı halda, hələ də Krım ruslarının öz müqəddəratını təyinetmə hüququndan dəm vurur, Abxaziyanı, Cənubi Osetiyanı müstəqil dövlətlər kimi tanıyır, hətta Moskvada Qərb əleyhinə separatçıların (Kataloniya və s.) sammitini təşkil edir.

Adama deyərlər, öz müqəddəratı təyinetmə hüququna belə sayğılısansa, nədən Rusiya Federasiyasındakı onlarla muxtar qurumdan heç olmasa ikisində (Çeçenistan, Tatarıstan) Krımdakı kimi ayrılmaq referendumu keçirilməsinə şərait yaratmırsan?!

Cavab ritorikdir, çünki Rusiya imperiyası o zaman "tikişlər üzrə" parampərça olar...

Bu xüsusda tam aydındır ki, Rusiyanın Suriyaya dəstəyi həm də hər iki ölkədəki qohum rejimlərin - avtoritar idarəçiliklərin mövcud olması ilə bağlıdır. Qərb təbii ki, demokratik rejimlərlə mübarizə aparmır, buna lüzum da yoxdur. Demokratiyadan, onun kölgəsindən qorxan isə - Rusiyadır, avtoritar ölkələr, diktatura rejimləridir. Bu üzdən ortaq qorxu avtoritar liderləri asanlıqla birləşdirir, müttəfiqə çevirir - bir-birindən hansı coğrafi məsafədə yerləşməsindən asılı olmayaraq. Müxtəsəri, su-çuxur məsələsi.

Əli öz xalqının və onun körpələrinin qanına bulaşan Bəşər Əsədin Rusiyanı Suriyaya köməyə çağırması da ən əvvəl bu motivlə - daha bir qaniçən rejimi xilas etmək istəyi ilə bağlıdır, nəinki sünni-şiə məsələsi və ya İŞİD-lə, terrorla.

Təsadüfi deyil ki, rus qırıcıları və bombardmançı təyyarələri Suriyada ilk növbədə ABŞ-ın himayə elədiyi, Əsədə müxalif hərbi qüvvələrin mövqelərinə zərbə endirib, İŞİD-çilərə yox.

Siyasətdə terrorçuluq başqa necə olur ki? Və konkret halda Putinlə Əsədin əl-Bagdadidən nə fərqi qaldı? İŞİD də azad insanlara, xalqlara, azadlıqlara, demokratiyaya, beynəlxalq hüquqa qənim kəsilib, bunlar da - müxtəlif ideoloji cəbhələrdə yer alsalar da.

Elə deyil?

YENİ MÜSAVAT
N 217 (6245) 2 oktyabr 2015



# "Məkkədə şəxsiyyəti müəyyən edilməmiş 21 konteyner cəsəd qalır"

## İran səfiri Mina qurbanları ilə bağlı başsağlıqlarını qəbul edir





**Xəbər verdiyimiz kimi, İranın Azərbaycandakı səfirliyi bu il Həcc mövsümü zamanı Mina vadisində baş verən qəzada həlak olan iranlı zəvvarlarla bağlı səfirliyin 1-ci binasında mərasim təşkil edib. Sentyabrın 30-u və oktyabrın 1-də keçirilən mərasim zamanı dövlət rəsmiləri və Azərbaycanda yerləşən xarici diplomatların başsağlığı yazmaları üçün xüsusi xatirə kitabı açılıb.**

Ötən gün biz səfirliyə gedəndə səfir və səfirlik əməkdaşları başsağlığı vermək üçün gəlmiş şəxsləri qarşılayırdılar. Orada olduğumuz zaman Azərbaycan prezidentinin xüsusi nümayəndəsi kimi İqtisadiyyat və sənaye naziri, eləcə də İran və Azərbaycan arasında hökumətlərarası komissiyanın həmsədri Şahin Mustafayev səfirliyə gələrək başsağlığı verdilər.

**İranın Azərbaycandakı səfiri Möhsin Pakayin "Yeni Müsavat"a verdiyi qısa açıqlamada Məkkədə həlak olan iranlı zəvvarların sayının elan edildiyindən çox olduğunu bildirdi:** "Bizdə olan son məlumatlara əsasən, 239 nəfər iranlı zəvvar həlak olub, 241 nəfərdən xəbər yoxdur, itkin hesab olunur, 29 nəfər isə hazırda xəstəxanadadır. Dünənə olan məlumata əsasən, Səudiyyə hökuməti rəsmən 4700 nəfərin həlak olduğunu etiraf edib. Ancaq dünəndən onlar, ümumiyyətlə, statistika və rəqəmləri elan etməyi dayandırıblar. Biz güman edirik ki, itkin düşənlər də həlak olublar. Bu faciə nəticəsində ən çox Nigeriya vətəndaşının vəfat etdiyi güman olunur. Onların sayı 600 nəfərdən çoxdur. Məlumatlara əsasən, 21 konteyner cəsəd var ki, hələ də onlar tanınmayıb. Bütün bunlar belə deməyə əsas verir ki, ümumi rəqəm 5 min nəfərdən çox ola bilər".

**O da məlum olub ki, Minada itkin düşən və ölənlər arasında İranın bir sıra yüksək rütbəli diplomatları da olub. Səfir Pakayin deyir ki, Ərəbistan hökuməti İranla itkin düşənlərin tapılması, cəsədlərin müəyyən olunması ilə bağlı aktiv əməkdaşlıq etmir:** "İtkin düşənlər arasında İranın bir neçə diplomatları da var. Bunların arasında İranın Livandakı sabiq səfiri və eləcə də İran Xarici İşlər Nazirliyi Protokol Baş İdarəsinin müdir müavini, Vatikanda daha əvvəl səfir işləmiş Əhməd Fəhima da var. İranın Sloveniyadakı keçmiş səfiri Mir Ağayi də vəfat edənlər arasındadır. Səudiyyə hökumət nümayəndələri çox danışır, təbliğat aparırlar, amma az iş görürlər. Bizdə olan son məlumata əsasən, onlar ümumilikdə cəsədlərin təhvil verilməsi, cəsədlərin tanınmasında çox ləng işləyirlər. Çox maneələr, əngəllər yaradılır. Yalnız İran narazı deyil, eyni zamanda Nigeriya, Pakistan, İndoneziya kimi ölkələr də öz etirazlarını bildiriblər ki, Ərəbistan onlarla əməkdaşlıq etməkdən ya boyun qaçırır, ya da çox ləng işləyirlər. Biz təkidlə tələb edirik ki, Məkkədə həlak olan İran vətəndaşlarının cəsədləri ölkələrinə qaytarılmalı və İranda dəfn olunmalıdır. Ümid edirik ki, Ərəbistan bu vəzifəsinə əməl edəcək".

**Səfir deyir ki, İran hökuməti Həcc ziyarətinin təşkili ilə bağlı İslam Əməkdaşlıq Təşkilatına müraciət edib. Məqsəd Mina faciəsinin araşdırılması ilə bağlı müştərək komissiyanın yaradılmasıdır:** "Biz Həcc ziyarətinin gələcək taleyindən də narahatıq. 4-5 min nəfərin ölümü çox böyük rəqəmdir. Əgər bu gələcək illərdə də təkrar olsa, bunun axırı necə olacaq? Hazırda Qərb mediası Məkkədə ölənlərdən yazmaq əvəzinə, daha çox Səudiyyə Ərəbistanının Həcc ziyarətinə xərclədiyi pulları qabardır. Biz inkar etmirik ki, Ərəbistan dövləti Həcc ziyarətinə böyük məbləğdə pul xərcləyir, ancaq bu da həqiqətdir ki, Ərəbistan Həcc ziyarətindən həm də böyük pullar götürür. Buna görə də onlar hacılara minnət qoymamalıdırlar, xidmət göstərir və bunun əvəzinə pul qazanırlar. Səudiyyə Ərəbistanı neftdən sonra ən böyük gəliri Həcc ziyarətindən qazanır. Olmazmı ki, onlar aldıqları pulun müqabilində elə şərait yaratsınlar ki, Həcc ziyarətinə gələnlər həlak olmasınlar?"

**Səfir bildirdi ki, iki gün ərzində müxtəlif ölkələrin Azərbaycandakı diplomatik nümayəndəliklərinin təmsilçiləri, səfirlər, eləcə də Azərbaycan xalqının müxtəlif təbəqələrindən olan insanlar, o cümlədən universitet müəllimləri, ziyalılar, incəsənət və din xadimləri səfirliyə gələrək başsağlığı diləklərini çatdırıb, xatirə kitabına ürək sözlərini yazıblar. M.Pakayin ümid edir ki, İran və Səudiyyə Ərəbistanı hökumətləri dil tapacaqlar və bu mübahisənin beynəlxalq məhkəməyə çıxarılmasına gərək olmayacaq:** "Ümid edirik ki, Ərəbistan hökuməti bizimlə əməkdaşlıq edəcək, məhkəməyə gərək qalmayacaq. Lakin bizim əsas tələbimiz İslam Əməkdaşlıq Təşkilatına ünvanlanıb. Biz müraciət etmişik ki, İƏT tərəfindən müştərək komissiya yaradılsın və bu komissiya Məkkədə baş verən faciənin səbəblərini araşdırmaq üçün Məkkəyə ezam olunsun".

❑ **KƏNAN**

# Əli Kərimlinin müşavirinin həbsi aranı qatdı

## Məmməd İbrahim barəsində cinayət işi açılıb; cəbhəçilər bir-birilərini "işverən"likdə suçlayırlar



Məmməd İbrahim

**AXCP sədri Əli Kərimlinin müşaviri Məmməd İbrahim barəsində xuliqanlıq maddəsi ilə cinayət işi açılıb. O, qurum daxilindəki narazı qanadın, Razi Nurullayevin rəhbərlik etdiyi Etimad Qurultayı üzrə Təşkilat Komitəsinin üzvü Mikayıl Quliyevi döymədə ittiham olunur.**

Qeyd edək ki, hadisə 29 sentyabrda axşam saatlarında baş verib. Həmin gün zərərçəkmişin şikayəti əsasında Nərimanov rayon 18-ci bölməsinə çağırılan müşavir izahatı alındıqdan sonra sərbəst buraxılmışdı. Lakin 30 sentyabrda yenidən polis bölməsinə dəvət olunan M.İbrahim azad olunmayıb, barəsində 48 saat saxlanılmaq və eyni zamanda Cinayət Məcəlləsinin 221-ci (Xuliqanlıq) maddəsi ilə cinayət işi başlanılıb.

Onun həbsindən sonra sosial şəbəkələr cəbhəçilərin söyüş məkanına çevrilib. Bir tərəf qarşı tərəfi "işverən"likdə suçlayır. Əks tərəf isə eyni ittihamlarla qarşı tərəfə cavab verir. İttiham olunan şəxslər sırasında ilk pillədə Razi Nurullayev dayanır. AXCP üzvləri M.İbrahimin onun planı əsasında həbs olunduğunu iddia edirlər. Bu prosesdə AXCP rəhbərliyi daha fəal görünür.

**AXCP sədrinin müavini Nurəddin Məmmədli müşavirin həbsinə sosial şəbəkələrdə yazdığı statusla belə münasibət bildirib:** "Razi Nurullayev cəbhəçilərin əqidə və etiqad bütövlüyü səbəbindən hakimiyyət qarşısında götürdüyü öhdəliyi reallaşdıra bilmədi. Nə qədər acı olsa da, deməliyəm ki, ona görə də itirdiklərini işverənliklə qazanmaq yolunu tutdu".

**Ə.Kərimlinin daha bir müavini Fuad Qəhrəmanlı da M.İbrahimin həbsini "işverən"lik kimi qələmə verib:** "Məmməd İbrahim Razinin satılmışlar dəstəsindən olan Mikayıl Quliyev adlı birisinin yalan ifadəsi əsasında saxlanılıb. İqtidar gördü ki, Razinin əli ilə AXCP-nin dublikatını yaratmaq təşəbbüsü iflasa uğradı, ona görə də bu adamlara çəkilən xərclərin qarşılığı olaraq, indi onlardan işverən kimi istifadə edir. Xalq Cəbhəsinin uğurlu qurultayına görə belə işverənlərin əli ilə AXCP-dən qisas alırlar".

**Hadisələrin mərkəzində dayanan R.Nurullayevdən ittihamlara cavab aldıq. O, kimliyindən asılı olmayaraq, heç kimin həbs olunmasını istəmədiyini söylədi:** "Hazırda AXCP-nin gizli facebook qruplarında təlimatlar verilir. Tapşırıq verilir ki, bütün status və rəylərinizdə Razi Nurullayevin adını çəkin, Məmməd İbrahimin hücuma məruz qaldığını, təxribata çəkildiyini qeyd edin. Əli Kərimlinin ətrafında olan insanların 90%-nin statusu eynilik təşkil edir. Çünki onlara hazır təlimat xarakterli statuslar verilir. Buna çox təəssüflənirəm. Hər zaman etik, mədəni bir siyasətin tərəfdarı olmuşam. Belə davam edəcək. Heç kəsin azadlıqdan məhrum edilməsini arzulamıram. O cümlədən də Məmməd İbrahimə azadlıq arzulayıram. Ümid edirəm ki, azadlığına qovuşacaq. Onu da qeyd etmək istərdim ki, Əli Kərimlinin ətrafında olan insanların içərisində ilk beşikdə dayanan, şər-böhtan yağdıran, passiv cəbhəçilərin profillərini əlindən alıb, onları işlədən, adlarından söyüşlər yazan, hətta ana-bacı söyüşü edən profillərin arxasında Məmməd İbrahim dayanırdı. Cəbhədə olanda bunların şahidi olmuşdum. Bütün iyrənc təlimatları Məmməd İbrahim verirdi. Onunla bərabər bir neçə cəbhəçi də proseslərdə iştirak edirdi. Onun heç zaman həbs olunmasını istəmədim, şikayət belə etmədim. Sadəcə izlədim. Onun söyüş və təhqirlərini, istifadə etdiyi saxta profilləri screen edib saxlamışam. Kompüterimdə söyüş və təhqirlərdən ibarət arxiv yaranıb. Bunlardan ona qarşı istifadə etmək istəməmişəm. Bu gün də belə bir fikrim yoxdur. "Su səhəngi suda sınar" deyiblər. Bu qədər təhqir yağdırmağın sonunda bir nəticəsi olmalı idi. Təəssüflər olsun ki, bu acı nəticə öz başında çatladı. Bütün bunlara rəğmən, onun həbsinə qarşıyam. Arzu edirəm ki, barəsində həbs-qətimkan tədbiri verilməsin. Azadlığa çıxsın, razıyam ki, təhqirlərini davam etdirsin. Heç zaman onu və Əli Kərimlinin ətrafında söyüş söyənləri məhkəməyə vermək fikrim yoxdur. Mübarizəmiz sivil qaydada gedir. Heç zaman "işverən"lik etməyəcəyik".

**R.Nurullayev AXCP sədrinin göstərişi ilə onlara qarşı "işverən"lik edildiyini də vurğuladı:** "Bu gün Əli Kərimlinin göstərişi ilə bizə qarşı "işverən"lik edilir. Adamları təlimatlandırıb, içərimizə göndərir. Olmayan bir şeyləri üzə çıxarmaq olmaz. Sanki bizi rüsvay etmək üçün dərindən-qabıqdan çıxırlar. Buna təəssüf edirəm, yenə də təəssüf edirəm..."

**R.Nurullayev M.İbrahimin həbsindən xəbərsiz olduğunu söylədi:** "Onun başına gələnlərdən tamamilə xəbərsizəm. Bununla heç maraqlanmamışam da. Əli Kərimlinin ətrafında kimsəyə qarşı heç bir addımın atılmasını istəməmişəm. Tərəfdarı olmuşam ki, bu insanlar ictimai qınağa məruz qalsınlar. Bununla bağlı da kampaniya başlamışıq. Kifayət qədər nəticələri olub. Kərimlinin xoşuna gəlmək üçün ilk növbədə, insanlar bizə qarşı söyüş yağdırmaq yolunu seçirlər. Bunların içərisində ziyalı, mənəviyyatı pozulmuş gənclər var. Bir daha qeyd edirəm ki, kimsəyə azadlıqdan məhrum edilmə arzu etmirəm".

❑ **Cavanşir ABBASLI**

## Rusiya cəhənnəmə getməyə yoldaş axtarır

**Rusiya Federasiya Şurası sentyabrın 30-da ordudan xaricdə istifadə edilməsinə razılıq verəndən dərhal sonra Rusiyanın hərbi hava qüvvələrinə məxsus bombardmançı və qırıcı təyyarələr Suriyada "İslam dövləti" (İŞİD) terror təşkilatına qarşı hərbi hava əməliyyatlarına başlayıb.**



# Azərbaycanı İŞİD-lə müharibəyə çəkirlər - sensasion gəlişmə

### Moskvadan Bakıya anti-İŞİD əməliyyatlarına qoşulmaqla bağlı mesajlar gəlir; Kreml rus qırıcılarının Bəşər Əsəd rejiminə yardım üçün hava məkanımızdan və hərbi aerodromlarımızdan istifadəsini planlaşdırır

Rusiya Müdafiə Nazirliyinin sözçüsü general-mayor İqor Konaşenkov Rusiya Aviasiya və Kosmik Qüvvələrinə bağlı döyüş təyyarələrinin Suriyada İŞİD-ə aid 8 bazanı vurduğunu açıqlayıb. O, "Hava hücumları nəticəsində sursat, silah, yanacaq və hərbi təchizat anbarları vuruldu. İŞİD terrorçularının dağlıq bölgədəki komandanlıq mərkəzləri də tamamilə məhv edilib", - deyib. Konaşenkov bütün hücumların kəşfiyyat uçuşları aparıldıqdan sonra və Suriya ordu qərargahından alınan məlumatlar əsasında tərtib olunduğunu da sözlərinə əlavə edib. Müdafiə Nazirliyi sözçüsü "Rus təyyarələrində silahlar mülki infrastruktur obyektlərinə qarşı istifadə edilmədi", - deyə vurğulayıb.

Rusiyanın Suriya əməliyyatlarına cəlb olunması fərqli prizmalardan izah olunur. Məsələnin Azərbaycanla bağlı müzakirələri isə bizim üçün daha çox əhəmiyyətli olduğundan bu istiqamətdə araşdırmalar apardıq. Rusiya Baş Qərargahının sabiq rəisi Yuriy Baluevskiy hesab edir ki, MDB məkanının bəzi dövlətləri Rusiya tərəfindən İraq və Şam İslam Dövlətinə (İŞİD) qarşı başladılacaq əməliyyatlara qoşula bilərlər. Çünki onlar da rəsmi Moskva kimi terrorçulara qarşı mübarizə aparmaqda maraqlıdırlar. "Niyə bu ölkələr İŞİD-ə qarşı başladılan əməliyyatlardan kənar qalmalıdırlar? Onlar da İŞİD-in məhv edilməsində maraqlıdırlar. Çünki bu təşkilat da onlar üçün təhlükə yaradır", - deyə Baş Qərargahın sabiq rəisi bildirib. Onun sözlərinə görə, belə əməliyyatların potensial iştirakçısı kimi Ermənistan, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan ola bilər.

Azərbaycan vətəndaşları arasında da İŞİD tərkibində döyüşmək üçün Suriyaya gedənlər, müharibədə ölənlər, yaxud ölkəmizə qayıdan və burada həbs edilən onlarla şəxs var. Bu mənada Rusiyadan Azərbaycana ünvanlı təklifdə hardasa məntiqə uyğunluq var. Lakin eyni zamanda İŞİD-lə açıq döyüşə girməyin nə qədər riskli olduğunu hər kəs yaxşı anlayır. Bu baxımdan Rusiyanın Azərbaycanı müharibəyə cəlb etməsi çox təhlükəlidir. Düzdür, Azərbaycan antiterror koalisiyanın üzvü olaraq İraq, Kosova, Əfqanıstana sülhməramlı göndərib. Lakin ərazisinin böyük hissəsi işğalda olan bir ölkənin hərbi əməliyyatlara cəlb olunması olduqca təhlükəli sayılır.

Bu arada Rusiya təyyarələrinin Azərbaycanın hava məkanından keçməklə Suriyaya getməsi ətrafında müzakirələr gedir. Hələ ki məsələyə rəsmi reaksiya verilməyib. Ancaq bu istiqamətdə bir-birinə zidd xəbərlər yayılır. İddialara görə, Rusiya Azərbaycandan izn almadan hava məkanımızdan istifadə edib. Digər məlumat bundan ibarətdir ki, Xəzərin statusu ilə bağlı 5 dənizkənarı dövlət arasında razılaşma olmadığından Rusiya təyyarələri Xəzər üzərindən İran səmasına, daha sonra İraq və Suriya səmasına daxil olub.

**Virtualaz.org yazıb ki, Bolqarıstan və bəzi ölkələr ABŞ-ın tələbi ilə hava məkanını Rusiya təyyarələrinə bağlayıb:** "Ancaq belə görünür ki, Azərbaycan ABŞ-ın xahişini rədd edib. Elə Pentaqonun Rusiya, Ukrayna və Avrasiya regionu üzrə kuratoru Evelin Farkasın sentyabrın 18-də Bakıya etdiyi səfərin əsl məqsədi də Rusiya təyyarələrinin Azərbaycan üzərindən keçərək Suriyaya uçmasının qarşısını almaq idi. Hansı ki, Rusiya təyyarələrinin bir qrupunun məhz həmin gün Azərbaycanın hava məkanından keçib Suriyaya uçduğu indi üzə çıxır. Bu səfərdən cəmi bir neçə gün sonra Evelin Farkas istefaya göndərilib. ABŞ mətbuatı yazır ki, Pentaqonda Rusiya və Avrasiya regionu üzrə çox azsaylı mütəxəssislərdən olan Evelin Farkasın istefaya göndərilməsi onun sərt antirusiya mövqeyi ilə bağlı ola bilər".

**Məqalə müəllifi daha sonra yazıb:** "Nüfuzlu Amerika nəşrləri ehtimal edir ki, Obama administrasiyası Rusiya ilə münasibətləri yumşaltmağa çalışdığı üçün Evelin Farkası istefaya göndərib. Lakin virtualaz.org ehtimal edir ki, Evelin Farkasın istefaya göndərilməsinin səbəbi ona həvalə edilmiş missiyanın - Rusiya aviaqruplaşmasının Suriyaya yolunu kəsməsi tərəfdaş ölkələrlə razılaşdırmaq missiyasının uğursuzluqla nəticələnməsidir. Çünki Rusiyanın cəmi bir neçə həftə ərzində Suriyaya iri zərbə qruplaşmaları yerləşdirməsi və bu ölkədə ildırım sürəti ilə aviabaza formalaşdırması Krımın ilhaqından sonra ABŞ-ın mövqelərinə vurulan ikinci ən sarsıdıcı zərbədir. İndi Rusiyanın Suriyada yaratdığı yeni status-kvo Bəşər Əsəd rejiminin hakimiyyətdən uzaqlaşdırılmasına dair ABŞ-ın çoxillik səylərini heçə endirir. Və Rusiya Yaxın Şərqdə hərbi iştirakını təmin edərək bölgədə söz sahibinə çevrilir".

"Wall Street Journal"ın yazdığına görə, təsadüfi deyil ki, Rusiya aviaqruplaşmasının Suriyada endirdiyi ilk hava zərbələrinin hədəfinin İŞİD yox, məhz ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin hazırlıq keçdiyi "mötədil müxaliflər" olduğu üzə çıxıb.

Göründüyü kimi, vəziyyət kifayət qədər mürəkkəbdir. Hətta zahirən Suriya əməliyyatlarında Rusiyanın iştirakına ABŞ-ın "yaşıl işıq" yandırdığı təsəvvürü formalaşsa da, fərqli informasiyaların yayılması tamam ayrı mətləbləri ortaya çıxarır.

**"Şərq-Qərb" araşdırmalar mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu hesab edir ki, Rusiyanın Suriyada hərbi münaqişələrə qoşulması Azərbaycan üçün də təsirsiz ötüşməyəcək:** "Rusiyanın xarici siyasəti aqressivləşəcək. Rusiya bəzi dövlətlərdə mövqeyini möhkəmləndirmək üçün təzyiqləri gücləndirəcək. Rusiya Yaxın Şərq prosesində konkret Suriyada böyük münaqişəyə cəlb olunur. Rusiya çalışacaq ki, ətrafdakı ölkələrdən, xüsusilə də keçmiş Sovet ölkələrindən istifadə etsin. Təbii ki, bu da həmin ölkələr üçün, o cümlədən Azərbaycan üçün hərbi təzyiqlər yaradacaq".

**Qeyd edək ki, bir müddət öncə Almaniyanın "Deutsche Welle" nəşrində politoloq, Mərkəzi və Şərqi Avropa üzrə ekspert İvan Preobrajenskinin "Rusiya Suriyaya Qarabağdan yol axtarır" adlı analitik məqaləsi dərc olunmuşdu. Məqalədə bildirilib ki, Azərbaycanda Suriyaya hərbi resursların daşınması üçün Rusiyanın hərbi bazasının yaradılması variantı mümkündür.** "Moskva öz qoşunlarını Suriyaya göndərmək üçün Azərbaycan ərazilərində hərbi baza açmaq hüququnu alacaq. Eyni zamanda bununla həm də Dağlıq Qarabağ ətrafında vəziyyəti "sabitləşdirmək" istəyəcək. Bu plan dünya mətbuatına sızdırılıb. Moskva isə reaksiya gözləyir", - deyə o bildirib.



### Ekspertdən həyəcanlı xəbərdarlıq: "Rusiyanın yanında yer alması Azərbaycana baha başa gələ bilər"

**Sabiq milli təhlükəsizlik zabiti Sülhəddin Əkbər vəziyyəti "Yeni Müsavat"a şərh edərkən deyib ki, Azərbaycan öz hava bazalarından istifadə üçün zaman-zaman ABŞ-a, NATO-ya icazə verib:** "Əfqanıstan əməliyyatlarında da Azərbaycanın hava məkanından geniş istifadə olunub. Ona görə də əgər Rusiya Azərbaycandan icazə istəsə, rəsmi Bakı ona "yox" deyə bilməz. İkincisi, Rusiya lazım gəlsə, Azərbaycandan icazə almadan da ölkəmizin hava məkanından keçəcək, Azərbaycanın ona qarşı çıxacaq bir gücü yoxdur. Üçüncüsü də Azərbaycanın hava məkanına girmədən, Xəzər üzərindən də İran-İraq-Suriya marşrutu ilə Rusiya təyyarələri uça bilər". **Ekspert Azərbaycanın anti-İŞİD əməliyyatlarına qoşulub-qoşulmaması məsələsindən bəhs edərkən bildirib ki, Azərbaycan çox çətin durumdadır:** "Bir tərəfdən İŞİD-in təhdidi var, digər tərəfdən, əgər rəsmi Bakı İŞİD-ə qarşı mübarizəyə qoşulmaq istəyirsə, 65 dövlətin qoşulduğu koalisiya var, hansı ki, Azərbaycanın strateji tərəfdaşı olan Türkiyə də orda iştirak edir. Azərbaycanın 2010-cu ildən Türkiyə ilə strateji tərəfdaşlıq, qarşılıqlı yardım haqqında müqaviləsi var. Yəni Azərbaycan bu prosesə qoşulacaqsa da, Türkiyənin yanında yer almalı və qoşulmalıdır. Rusiyanın "blokuna", "Rusiya-İran-Suriya" blokuna qoşula bilməz. Ölkəmizin Rusiyanın yanında yer alması Azərbaycana çox baha başa gələ bilər. Qoşulmamağı da Rusiya tərəfdən təzyiqlərin artmasına gətirib çıxaracaq. Dəfələrlə deməkdən yorulmuşduq ki, getdikcə Azərbaycanın manevr imkanları daralır, rəsmi Bakı öz strateji seçimini etməlidir. Necə ki, etməyib, beləcə hər iki tərəf arasında qalacaq, qoşulmayacağı halda hər iki tərəfin etimadını itirəcək, qoşulacağı halda isə tərəflərdən birinin təzyiqi ilə üzləşəcək".

**Bundan əvvəlki aylarda bir neçə dəfə Rusiyanın Azərbaycan ərazisində hərbi baza qurmaq planını işə saldığı barədə xəbərlər yayılıb. Hətta Rusiya telekanallarından biri ölkəmizlə bağlı hazırladığı geniş reportajda "Nasosnı"dakı hərbi aerodroma - hansı ki, NATO təyyarələri də istifadə edir - xüsusi diqqət ayırmışdı. Bu mənada hesab edilir ki, Moskva İŞİD-ə qarşı antiterror əməliyyatlarında Azərbaycan aeroportlarından istifadə edə, yaxud burada hərbi baza qura bilər. Lakin S.Əkbər fərqli düşünür:** "Rusiyanın İŞİD-lə mübarizəsi üçün Azərbaycanda baza qurmasına ehtiyac yoxdur. Təbii ki, Rusiyanın Azərbaycandan hərbi əməliyyatlarda iştirak haqda tələbi uzun illərin söhbətidir. Rusiyanın istəyi Azərbaycanı tam nəzarətə götürməkdir, sərhədlərindən tutmuş hava məkanının qorunmasına qədər. Əsas hədəf Qərbin Azərbaycandan, Xəzərdən tamamilə çıxarılmasıdır. Geopolitik, geostrateji qarşıdurma sərtləşdikcə də Azərbaycan öz mövqeyini əvvəl-axır seçməlidir. Seçməyəcəyi halda, hər iki tərəfin etimadını itirəcək".

**S.Əkbər Rusiyanın Suriya bataqlığına girdiyi barədə fikirləri də təsdiqləyir:** "Strateji qarşıdurmada Amerikanın məqsədi Rusiyanın mümkün qədər geniş cəbhəli prosesə qoşulmasıdır. O qədər böyük qüvvəyə malik olan SSRİ Əfqanıstan müharibəsindən çıxa bilmədi. İndi Rusiya ilə SSRİ-nin gücünü müqayisə etmək olmaz. Rusiyanın gələnilki büdcəsi cəmi 205 milyard dollardır. Təkcə Pentaqonun büdcəsi üç dəfə bundan çoxdur. Strateji qarşıdurmada Rusiyanın şansı yoxdur. Moskva çox böyük səhvə yol verir. Ukrayna böhranı ilə yanaşı, ikinci bir böhrana girir. Əgər o boyda SSRİ bir böhrandan çıxa bilmədisə, Rusiya indiki gücü ilə iki böhrandan necə çıxacaq, bunu yaxın illərdə görəcəyik".

Ekspert deyib ki, Rusiyanı cəsarətləndirən Obama administrasiyasının Suriya, o cümlədən Gürcüstan və Ukrayna ilə bağlı zamanında yol verdiyi səhvləri, tərəddüdləridir.

**Bəzi müşahidəçilərin qənaətinə görə, Azərbaycan Rusiyanın başının qarışmasından istifadə edə, Qarabağın azad olunması əməliyyatını başlaya bilər. Hətta bunun üçün unikal şansın yarandığını düşünənlər var. Lakin S.Əkbər deyib ki, Qarabağ məsələsində Azərbaycan hətta Rusiyanın avantürist təkliflərinə də razılaşmamalıdır:** "Azərbaycan həvəsləndirilib Ermənistanla savaşa sürüklənə bilər. Rusiyanın planı budur ki, Azərbaycan müharibəyə başlayacağı təqdirdə bir qədər irəlilədikdən sonra "humanitar tədbir" adı altında, necə ki, Cənubi Osetiyada etdilər - rus silahlı qüvvələrinin "MDB sülhməramlı qüvvələri" adı altında münaqişə bölgəsinə yeridilməsi planı var. Ondan sonra daha heç kim Azərbaycandan hərbi baza qurmaq üçün icazə istəməyəcək".

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 217 (6245) 2 oktyabr 2015



Üzeyir Məmmədli



Şahin Novruzlu

# NİDA rəhbərliyindən istefalar

## İki gün ərzində təşkilatın qurucularından 3-ü istefa verib; NİDA-nın qurultayının baş tutmasının ilginc səbəbləri üzə çıxdı

**NİDA Vətəndaş Hərəkatı istefa dalğası ilə silkələnir. Təşkilatı tərk edən şəxslərdən ikisi Üzeyir Məmmədli və Şahin Novruzlu keçmiş vicdan məhbusu, Aygün Pəncəliyeva isə qurumun idarə heyətinin sabiq üzvüdür.**

İstefa verənlər NİDA-nı yaradan şəxslər sırasında yer alırlar. Qurum üçün hər cür təzyiqlərə dözən bu şəxslərin qəfil gedişlərinə səbəb nədir? Bu sual hər kəsi düşündürür. Maraqlıdır ki, təşkilatı tərk edənlərin hər biri istefalarının səbəbləri ilə bağlı açıqlama vermək istəmirlər.

Əvvəlcə sentyabrın 30-da Üzeyir Məmmədli və Aygün Pəncəliyeva istefa verdi. Ü.Məmmədli qəfil gedişi ilə bağlı sosial şəbəkələrdə belə bir status paylaşdı: "Bu gündən təsisçilərindən biri olduğum NİDA Vətəndaş Hərəkatı sıralarını tərk edirəm. NİDA ilə çox şeylər yaşamışam. Amma hesab edirəm ki, vaxtında getməyi bacarmaq lazımdır. İstefamla bağlı bundan başqa heç bir açıqlama verməyəcəm. Heç bir suala da cavab verməyəcəm".

A.Pəncəliyeva da istefa xəbərini təsdiqləyərək, əlavə fikir bildirmək istəmədiyini söyləyib.

**NİDA bu istefalardan özünə gəlməmiş, oktyabrın 1-də daha bir istefa xəbəri gəlib. Bu dəfə Şahin Novruzlu facebook səhifəsində status paylaşaraq, təşkilatı tərk etdiyini açıqlayıb:** "Bu gündən üzvü olduğum NİDA Vətəndaş Hərəkatını tərk eləyirəm. NİDA ilə bağlı çoxlu xoş xatirələrim var və bunun belə də qalmasını istəyirəm. İstefamla bağlı bundan əlavə heç bir açıqlama vermək istəmirəm".

**NİDA-nın İdarə Heyətinin sabiq üzvü Turqut Qəmbər müsavat.com-a açıqlamasında istefalarla bağlı bunları dedi:** "Hazırda parlament seçkiləri ilə məşğuluq, imzatoplama işini yekunlaşdırmaq üzrəyik. Oktyabr ərzində də fokuslandığımız əsas iş parlament seçkiləridir. Üzeyir Məmmədli öz statusunda bildirir ki, bu mövzuda hər hansı açıqlama vermək fikrində deyil. Üzeyir hər hansı açıqlama vermək fikrində deyilsə, bizə də düşməz".

Qeyd edək ki, istefalara səbəb kimi qurum daxilində qruplaşmaların olduğu göstərilir. Bildirilir ki, sentyabrın 26-da keçirilməli olan NİDA-nın qurultayı məhz bu səbəblərdən baş tutmayıb. Təşkilat daxilində hazırda narazı tərəflərin olduğu deyilir. Ü.Məmmədli, Ş.Novruzlu və A.Pəncəliyevanın da məhz buna görə qurumu qəfil tərk etdikləri deyilir.

**Vaxtilə NİDA-nın İdarə Heyətinin üzvü olan Ülvi Həsənli qaynar.info saytına istefalarla bağlı münasibət bildirərkən, qurum daxilində olan narazılıqları dolayısı yolla təsdiqləyib:** "Hələlik dəqiq səbəbləri bilmirəm. Təşkilatdan bir neçə nəfər Üzeyirlə əlaqə saxlamaq istəyib, amma telefonlara cavab verməyib. Buna görə də tam bir səbəb deməyim doğru çıxmaz. Bizim də başımız bu aralar parlament seçkisinə qarışıb. İmzaların yığılması, seçkiyə hazırlıq və s. Amma Üzeyirlə danışandan sonra dəqiq açıqlama verə bilərik. Qurultayı bəzi neqativ söhbətlərə görə təxirə saldıq. Təxirə salmaq ideyası da Elnur Astanbəylidən gəldi. Çünki bəzi münasibətlər gərginləşmişdi. Biz də istəmədik belə olan halda qurultay keçirək. Adətən biz görmüşük qurultay yüksək əhval-ruhiyyə ilə keçsin. Ona görə düşündük ki, bir neçə günlük təxirə salaq. Düzü, çox danışmaq istəmirəm bu barədə. Amma şəxsi söhbətlər müstəvisinə qədər gəlib çıxmışdı bu gərginlik. Ona görə də fikirləşdik ki, münasibətləri həll edək, hər şey aydın olsun, bundan sonra seçki keçirilsin. İndi təşkilatdaxili münasibətlər qaydasındadır, gərginlik aradan qalxıb, problemlər həll olunub. Qurultayı da bu həftəsonu keçirəcəyik".

İstefalara səbəb kimi, daha bir versiya ortaya atılıb. İddia olunur ki, NİDA daxilində təşkilatda siyasi partiyaların, xüsusilə AXCP və Milli Şuranın təsirinin hiss olunmasına etiraz edən qruplar yaranıb. Bu səbəbdən qarşıdakı günlərdə də NİDA-nı tərk edəcək şəxslərin olacağı istisna olunmur.

Sonda xatırladaq ki, istefa verən şəxslərdən Üzeyir Məmmədli və Şahin Novruzlu 2013-cü il martın 10-da Bakının mərkəzində əsgər ölümləri ilə bağlı keçirilən aksiyadan əvvəl və sonra digər NİDA rəhbərləri ilə birlikdə həbs olunublar. Ü.Məmmədli 7, Ş.Novruzlu isə 6 il müddətində azadlıqdan məhrum edilmişdilər. Prezidentin əfv sərəncamı ilə ötən ilin oktyabrında Ş.Novruzlu, dekabrında isə Ü.Məmmədli azadlığa çıxıblar.

❑ Cavanşir ABBASLI

# Beynəlxalq Bank qarşısında aksiya

**Oktyabrın 1-də Beynəlxalq Bankın qarşısında aksiya keçirilib. Tikintisi yarımçıq saxlanılan "7 Hills" yaşayış kompleksini tikən eyniadlı şirkətdən narazı olan müştərilər Azərbaycan Beynəlxalq Bankının (ABB) baş ofisinin qarşısında toplaşıb. Virtualaz.org saytının xəbərinə görə, 20-yə yaxın müştəri ötən ay söz verildiyi halda hələ də onlara geri qaytarılmayan pullarını tələb ediblər.**

## "7 Hills" yaşayış kompleksi üçün pul ödəyən müştərilərə gələn həftəyədək gözləmək məsləhət bilinib; kredit işinə görə tutulan Adil Hüseynovun vəkili "heç bir istintaq hərəkəti aparılmır" deyir

Bundan öncə də - sentyabrın 16-da bankın qarşısında toplaşan müştərilərə pulların sentyabr ayı ərzində geri qaytarılacağına söz verilsə də, vəd elə vəd olaraq qalıb. Bu da payçıların narahatlığına səbəb olub.

**Narazı müştərilər bildirib ki, ötən dəfə onların 7 nəfərlik nümayəndəsi ilə ABB rəhbərliyi arasında baş tutan görüşdən sonra hər birinə zəng gələcəyi bildirilib:** "Həmin görüşdən sonra hər birimizə zəng gəldi və biz banka gəlib ərizə yazdıq. Bu ərizədən sonra bizə arayış verildi ki, Beynəlxalq Banka heç bir ödəniş öhdəliyimiz yoxdur. Yəni aylıq ödənişlərimiz dayandırıldı. Amma sentyabra qədər ödədiyimiz pullar hələ də geri qaytarılmayıb. Bu dəfə rəhbərliklə əvvəlcədən heç bir görüş razılaşdırmamışıq. Öz aramızda qərarlaşıb bura gəlmişik".

**Narazıları bankın baş direktoru Elmir Həbibullayev qəbul edib. Baş direktor müştərilərə bildirib ki, onların indiki vəziyyətdə narahat olmağa əsası yoxdur, çünki problemin əsas hissəsi artıq həll olunub:** "Biz "7 Hills"dən ipoteka krediti ilə ev alıb Beynəlxalq Banka aylıq ödəniş edən müştərilərin hər biri ilə danışıb onları baş ofisə dəvət etmişik. Onların 90 faizi ərizə yazıb və biz bu ərizə əsasında kredit ödənişini dondurmuşuq. Növbəti mərhələ isə pulların ödənilməsidir ki, bu da ən geci gələn həftənin 1-ci günündən reallaşdırılacaq".





Xatırladaq ki, "7 Hills" şirkətinin "Globus Plaza"nın sahibi, keçmiş deputat və oliqarx, Beynəlxalq Banka yüz milyonlarla dollar kredit borcu olan Dünyamin Xəlilova və onun ortağı Xaqani Bəşirova məxsus olduğu barədə məlumatlar var. Şirkət ötən ilin dekabrında Beynəlxalq Bankın ipoteka kreditləri hesabına Bakının mərkəzi hissəsində orijinal arxitekturaya malik yaşayış kompleksinin tikintisi layihəsini elan edib və geniş reklam kampaniyası başladaraq müştərilər cəlb edə bilib. Lakin çox keçmədən Beynəlxalq Bank ətrafında məlum proseslər başlayıb və oliqarxlar dövlət bankının daha bir iri krediti hesabına öz biznes layihələrini başlaya bilməyiblər.

**Qeyd edək ki, bu gün 200-ə yaxın kredit milyonçusunun həbsə olması haqda məlumatlar var. Tutulanlardan çox az bir qisminin adı, kimliyi ictimaiyyətə bəllidir. "Beynəlxalq Bank işi" üzrə həbsdə olanlar sırasında bankın Dubay filialının rəhbəri Adil Hüseynov da var. Onun vəkili Kamandar Nəsibov "Yeni Müsavat"a açıqlamasında deyib ki, hazırda iş üzrə hər hansı bir istintaq hərəkəti aparılmır:** "Adamları həbs edib istintaq təcridxanasına göndəriblər. Amma heç bir istintaq hərəkəti aparılmır. Adil Hüseynovun istintaqının müddəti gedir, amma heç bir istintaq hərəkəti yoxdur. Aylardır ki, heç bir istintaq aparılmır".

**K.Nəsibov deyib ki, A.Hüseynovu və iş üzrə tutulan digər şəxslərin Bakı İstintaq Təcridxanasının tibb hissəsinə köçürülməməsi haqda qeyri-rəsmi verilən göstəriş də qüvvəsində qalır:** "Adil Hüseynov həbs olunandan 2 ay əvvəl əməliyyat olunub. Onu "sançast"a qoymurlar. Ümumiyyətlə, Beynəlxalq Bankla bağlı həbs olunan şəxsləri tibbi hissəyə köçürmürlər. Deyirlər ki, belə göstəriş var. Göstərişi kim verib, hansı qanuna əsasən verib, bunu deyən yoxdur. Adil Hüseynov Beynəlxalq Bankın rəhbərliyində olan şəxsin göstərişlərini yerinə yetirib. Ona deyilən hesablara pul köçürməsinə görə tutublar".

❑ E.MƏMMƏDƏLİYEV

# Akif Nağı qardaşının vəfatını xəbərini Türkiyədə aldı

**Qarabağ Azadlıq Təşkilatının (QAT) nümayəndə heyəti "Qarabağ təbliğat turu" çərçivəsində növbəti tədbirini Türkiyənin İzmit şəhərində keçirib. İzmit şəhərindəki Heydər Əliyev Mədəniyyət Evində baş tutan görüşdə QAT sədri Akif Nağı, QAT Türkiyə nümayəndəliyinin sədri Cəfər Dal, QAT İdarə Heyətinin üzvləri Rəhman Cəfərov, Hüseyn Hüseynov, "Yaddaş" sənədli filminin rejissoru Elxan Xanəlizadə tədbirdən əvvəl ictimaiyyət nümayəndələri ilə geniş diskussiya aparıblar.**



Tədbiri giriş sözü ilə açan Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının başqanı Bilal Dündar Azərbaycanla Türkiyənin qardaşlıq bağlarından danışaraq, tədbir başlayan anda Bakıdan gələn bir xəbəri görüş iştirakçılarına çatdırıb, qardaşının vaxtsız vəfatı ilə bağlı A.Nağıya başsağlığı verib.Tədbirdə iştirak edən bütün ictimai xadimlərdən başsağlığı qəbul edən QAT sədri şəxsi həyatı ictimai həyatdan ayırmaq lazım olduğunu bildirib. Daha sonra QAT sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışaraq, Azərbaycanın qardaş Türkiyədən daha çox gözləntisinin olduğunu tədbir iştirakçılarına çatdırıb. Bakının 1918-ci ildə daşnaklardan azad olunmasını xatırladan QAT sədri bu gün Azərbaycanda hamının Nuru paşanı, Qafqaz İslam Ordusunu rəhmətlə andığını vurğulayıb. Daha sonra "Yaddaş" sənədli filminə baxmağı təklif edən Akif Nağı müzakirələrin filmin nümayişindən sonra olmasını bildirib. Tədbir iştirakçıları "Yaddaş" sənədli filminə baxıblar. Filmin nümayişindən sonra QAT Türkiyə nümayəndəliyinin sədri Cəfər Dal müzakirələrə başlayıb. Tədbirdə iştirak edən Kocaeli Şairlər və Yazarlar Birliyi başqanı Alptəkin Cevherli, Səlcuqlu Düşüncə Klubunun başqanı Süleyman Pekin, QAT Türkiyə nümayəndəliyi İdarə Heyətinin üzvü Naci Qara, Kocaeli Aydınlar Ocağı başqanı Ruhiddin Sönməz, Kocaeli sərhəd şəhərləri Qars, Ərdahan, İğdır Dərnəyi başqanı Necdət Qaradaş və digərləri çıxış edərək öz fikirlərini bildiriblər. Çıxış edənlər "Yaddaş" sənədli filminin dünyanın müxtəlif ölkələrində daha geniş auditoriyaya çatdırılmasının vacibliyini vurğulayıblar.Türkiyə ictimaiyyət nümayəndələri müzakirələrdə Azərbaycanın əzəli torpağı olan Qarabağ uğrundakı haqlı mübarizəsinin dünyaya daha geniş miqyasda çatdırılması üçün QHT-lərin birgə fəaliyyətlərinin rolundan danışıblar.

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 217 (6245) 2 oktyabr 2015

**AXCP funksioneri, jurnalist Xaliq Bahadırın "Azadlıq" qəzetində "Saxta seçki subyektləri" başlıqlı köşə yazısı dərc olunub. Yazıda jurnalist seçkilərdə iştirak edən qurumların və onların rəhbərlərinin ünvanına ağır ittihamlar səsləndirib.**

**AXCP təfəkkürünün açıq şəkildə sezildiyi köşədə X.Bahadır seçkilərə qatılan qurumların hakimiyyətə işlədiyini, hakimiyyətlə əlbir olduğunu bildirib. Partiya funksioneri MSDM rəhbəri İsa Qəmbər, Müsavat başqanı Arif Hacılı, AXP lideri Pənah Hüseyn və KXCP sədri Mirmahmud Mirəlioğlunun ünvanına aşağılayıcı tonda ittihamlar irəli sürüb.**

# AXCP funksioneri müxalifət liderlərini aşağıladı və sərt cavab aldı



**Elman Fəttah:** "Xaliq Bahadırın Müsavata qarşı yönəltdiyi murdar ittihamlar..."



**Mirmahmud Mirəlioğlu:** "Heyf o çörəkdən ki, belə yeyirlər"

X.Bahadır adları çəkilən bu şəxslərin seçkilərdə iştirak etməklə, hakimiyyətlə bazarlığa getdiklərini qeyd edib. Qeyd edək ki, X.Bahadır zaman-zaman bu tipli yazılarla gündəmə gəlir. Daim də təhqirlər yağan yazılarında bir müxalifət liderini çıxmaqla, digərlərini ittiham edir. Sanki Əli Kərimlidən başqa bütün müxalifət hakimiyyətə işləyir...

Heç şübhəsiz ki, köşə yazarının fikirləri müxalifət düşərgəsində ciddi narazılıq doğurub.

**Müsavat başqanının müavini Elman Fəttah AXCP funksionerinin ittihamlarının məqsədli şəkildə ortaya atıldığı qənaətindədir:** "Biz dəfələrlə qeyd etmişik ki, Müsavat Partiyasının siyasətinin əsasını siyasi məhbuslar və mübarizəni müxalifətin daxilindən çıxarıb hakimiyyətə qarşı yönəltmək təşkil edir. Çünki mübarizəni müxalifətin daxilində aparmağa səy göstərən qüvvələr var. Bunun üçün həmin qüvvələr gecə-gündüz çalışırlar. Biz bu prosesdə iştirak etməməyə, iştirak edənlərin isə qarşısını almağa çalışırıq. Xaliq Bahadırın həmin köşə yazısı, Müsavata qarşı yönəltdiyi murdar ittihamlar müxalifətdaxili intriqanı artırmağa, hakimiyyətə qarşı aparılan mübarizənin qarşısını almağa çalışan düşərgəyə xidmət edən fikirlərdir. Mütəmadi olaraq, biz Xaliq Bahadırın bu cür yazılarını görürük. Məqsəd bu cür ittihamlara Müsavatdan da kimlərinsə cəlb edilməsi və bununla mübarizəni hansısa qurumlar, yaxud partiya funksionerləri səviyyəsinə endirməkdir".

**E.Fəttah X.Bahadırın həbsdə olan Müsavat başqanının müavini Tofiq Yaqublunun da adını köşə yazısına salmasına münasibət bildirdi:** "Çox absurd bir yanaşmadır. Çünki Tofiq bəyin özü Müsavatın seçkidə iştirakından məlumatlıdır və hətta namizədliyi də irəli sürülüb. Siyasi məhbusları önə çəkən qurum və köşəni yazan şəxs mövqeyini Avropa Oyunları zamanı ortaya qoymalı idi. Çünki həmin vaxt beynəlxalq aləmlə siyasi məhbuslar məsələsində birgə iş gedirdi. Müsavat siyasi məhbuslar azad olunmasa, xarici ölkələrin dövlət başçılarının Avropa Oyunlarında iştirak etməməsi ilə bağlı çağırış edib. Eyni sənədə Avropa Birliyi də imza atıb. Faktiki olaraq, oyunlar Avropa ölkələrinin rəhbərlərinin iştirakı olmadan keçirilib. Həmin vaxt nəinki siyasi məhbusları alver predmetinə çevirən bu şəxslər münasibət bildirmədilər, hətta Avropa Oyunlarının Azərbaycanın milli maraqlarına xidmət etdiyini göstərən yazılarına rast gəldik. İndi Xaliq Bahadır da bu yazıda Tofiq bəyin adını çəkməklə onu müdafiə etmir, əksinə, siyasi məhbus üzərindən öz maraqlarını təmin etmək istəyir. Bununla da siyasi məhbus adını istismar edir".

**Müsavat başqanının müavini AXCP funksionerinin seçkiləri boykot etmək çağırışına da münasibət bildirdi:** "Siyasətimiz ondan ibarətdir ki, mübarizə fasiləsiz, prinsipal şəkildə davam etməlidir. Seçki dövründə də, əlimizdə olan imkanlardan yüksək səviyyədə istifadə edib, rejimə qarşı mübarizəni davam etdiririk. Bu çox əziyyətlidir. Böyük fədakarlıqlar tələb olunur. Seçkidə iştirak etməyən qurumlara qarşı hər hansı bir təzyiq aparılmır. Amma Müsavatın namizədlərinə qarşı edilən təzyiqlər hər kəsə məlumdur. Əgər seçkidə mübarizə üçün bir şans qalmayacaqsa, yalnız o zaman iştirak edib-etməmək məsələsi müzakirə oluna bilər. Siyasəti düzgün aparmaq lazımdır".

**KXCP sədri Mirmahmud Mirəlioğlu X.Bahadırın onun barəsində səsləndirdiyi fikirlərə daha sərt münasibət bildirdi:** "Azərbaycanda elə adamlar var ki, çoxdan oxunmuş kitablardır. Onlar oxunub, qatlanıb, arxivə qoyulublar. Hətta üzərinə yazılıb ki, "oxumaq olmaz!" Bu yazının müəllifi aşağıdan-yuxarı öz ətrafına baxmalıdır. Ona məsləhət verənlərə, yazılarını redaktə edənlərə, yazılarına senzura qoyanlara yaxşı baxmalıdır. Əgər baxsa, ayıbına kor olub danışmaz. Onlar çox istəyirlər ki, mən bu işi görənlərin, icra edənlərin layiqli paylarını verim. Amma onlar heç nəyə layiq olmadıqlarına görə heç bir cavab vermirəm. Hər şeyi vicdanlarına buraxıram. Əgər vicdanları yoxdusa, özləri bilərlər, nə istəyirlər danışsınlar. Heyf o çörəkdən ki, belə yeyirlər. Heyf o uşaqlardan ki, bunların qələmi ilə qazanılan çörəyi yeyirlər. Belə Azərbaycan övladlarına heyfsilənirəm. Bu adamlar ad-soyadlarını dəyişməlidirlər. İmzalarını da dəyişib, başqa ad götürməlidirlər. Məsələn, filankəs böhtançı, şər filankəs, "işvərən" filankəs kimi adlar ola bilər. Nəyi mən haqq bilirəmsə, o yolda da olacam. Dövlətçiliyin bərpasında iştirak etmişəm, qan, övlad vermişəm. Bu dövlətin mahiyyətini də, iqtidarını da, bu cür müxalifətçilik etməyin mahiyyətini də, kimin hansı dəyirmana su tökdüyünü də yaxşı bilirəm".

❑ Cavanşir ABBASLI

# Tənzilə Rüstəmxanlı Türkiyə qəzetinə yazdı

## "Terror can aldıqca, göz yaşında boğuluruq"



Tənzilə Rüstəmxanlı

**Oktyabrın 1-də Türkiyənin nüfuzlu media quruluşlarından olan "Hürriyet" qəzetində Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlının "Terror can aldıqca göz yaşına boğuluruq" başlıqlı məqaləsi dərc edilib. Yazı Türkiyənin ən tirajlı müəlliflərindən Yalçın Bayerın səhifəsində yerləşdirilib. Məqalənin Azərbaycan türkcəsinə uyğunlaşdırılmış variantını təqdim edirik.**

Hörmətli Yalçın Bayer.

Türkiyənin yaşadığı terror olaylarını və təhlükəsizlik qüvvələrinə yönəlik hücumları Azərbaycanda böyük üzüntü ilə izləyirik. Qəbul etməliyik ki, terror bir insanlıq suçudur və bütün dövlətlərin ortaq problemidir. İllərdir torpaqları Ermənistan tərəfindən işğal edilmiş bir ölkənin vətəndaşı olaraq söyləyim ki, problemlər əlbirliyi ilə çözülə bilər. Ancaq bu məsələdə türk dövlətləri birliyi olaraq daha aktiv fəaliyyət göstərməliyik. Türk birliyinin Birləşmiş Millətlər Təşkilatı içərisində təsir gücünün artmasına ehtiyac var. Eyni zamanda iqtisadi və mədəni baxımdan böyük imkanlar dənizi olan türk dünyasına daha çox zaman ayırmalı, siyasi anlamda problemli, riskli sahələrdən mümkün qədər uzaqda durmalıyıq. Orta Doğu üzərindən gəlişən hər siyasi hərəkət daha böyük problemləri yaradır. Orta Doğu qaynayan qazandır və orada baş verənlərin Türkiyəyə təsiri ən yüksək səviyyədədir. Halbuki diqqətimizi türk dünyasına çevirsək, orada yaradacağımız qurumlarla BMT-də daha böyük güc kimi təmsil oluna bilərik.

Bunu açıqca söyləyə bilərəm ki, Azərbaycan bu birliyə hər zaman yüksək bir diqqətlə hazır olub, Türk Dövlətləri Birliyinə sadəcə təşkilati dəstək verməyib, bu ideyaya ürəkdən inanıb. Praqada Ermənistan prezidenti Sərkisyan Türkiyə ilə bağlı xoşagəlməz tonda danışdığı zaman Azərbaycan prezidenti İlham Əliyev ona layiqli cavab vermiş, "Türkiyə yoxdursa, burda mən varam, mənimlə danışın" söyləyərək qardaşlığı dövlət düzeyində bir səviyyə ilə sağlamlaşdırmışdı. Əlbəttə, Türkiyə böyük bir ölkədir. Bizlər hər zaman Türkiyənin yanındayıq. Ancaq bütün türk dövlətlərinin yüksək səviyyədə bərabərlik arzusu ilə bir-birinin yarasına dərman olacaq qüdrətə çatması qaçılmaz hala gəlib. Qarabağ problemi hələ çözülməyib. Ermənistan Rusiyadan aldığı dəstəklə işğalçı siyasətini davam etdirməkdədir. Azərbaycan iqtisadi gücü, qüvvətli müdafiə sənayesi və insan potensialı ilə Qarabağ problemini çözəcək yetənəyə hər zaman sahibdir, ancaq bunun üçün bütün türk dövlətlərinin beynəlxalq məkanda səs birliyinə ehtiyac var. Türkiyədəki terror can aldıqca bizlər göz yaşında boğuluruq. Dövlətlərarası oyunların bu problemin oluşmasındakı rolu hər kəsə bəllidir. Biz birlikdə hərəkət etməliyik. Orta Doğuya yönəlmək həm enerji, həm sabitlik, həm də zaman baxımından itkidir.

Bu fikirləri möhtərəm şəxsiyyətiniz vasitəsilə oxucularınıza çatdırmaq istədim.

# Sabir Rüstəmxanlı İTV sədrindən nə istəyir?



Sabir Rüstəmxanlı

**Xalq şairi, Azərbaycan Dil Qurumunun başqanı, deputat Sabir Rüstəmxanlı İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru Cəmil Quliyevə müraciət edib.**

ADQ-dən verilən məlumata görə, Azərbaycanda dövlət dilinin təbliği və tədrisi sahəsində heç bir proqram və veriliş olmadığını təəssüflə diqqətə çatdıran deputat İTV direktorundan bu sahəyə diqqət ayırmasını xahiş edib: "50 milyonluq Azərbaycan xalqının ana dilinin tədrisi yalnız Azərbaycan Respublikası ərazisində aparılır. Ölkəmizdən kənarda yaşayan milyonlarla soydaşımızın ədəbi dil normalarımızı öyrənmək imkanları yox səviyyəsindədir. Üstəlik, ölkə daxilində əcnəbi dillərdə ixtisaslaşan məktəblərimizdə də ana dilinin tədris proqramı arzulanan səviyyədə deyil. Belə təhsil ocaqlarında yetişən mütəxəssislər öz sahələrində nə qədər peşəkar olsalar da, ana dilini mükəmməl bilmirlər. Bütün bunlar inkişaf etmiş ölkələrdə tətbiq edilən təcrübəni Azərbaycanda da gerçəkləşdirmək zərurəti yaradır. Ona görə də ana dilinin tədrisi və təbliği ilə məşğul olan, peşəkar mütəxəssislərlə birgə hazırlanan daimi bir proqramın fəaliyyət göstərməsi barədə düşünməyinizi sizdən xahiş edirəm. Bu proqram həmçinin Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının icrasında İctimai Televiziya və Radio Yayımları Şirkətinin böyük bir töhfəsi olardı".

Xatırladaq ki, Azərbaycan Dil Qurumu İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə hazırda quruma məxsus www.adq.az saytında izahlı lüğətin onlayn axtarış sistemində proqramlaşdırılması, orfoqrafiya lüğətinin yeni versiyasına əlavə edilmiş 30 min sözün mövcud axtarış sisteminə daxil edilməsi prosesini tamamlamaq üzrədir.



# Qələbə xəbərlərinin yeri

Zamin HACI
zaminhaci@gmail.com

**Korifey deputatlarımızdan Zahid Oruc keçən dəfəki seçkilərə "Dində müqəddəs oruc, deputatlıqda Zahid Oruc!" şüarı ilə qatılıb bütün Bərdə zəhmətkeşlərini sevindirmişdi. Rayonun hər yerindən insanlar məntəqələrə axışır, Qələbə günümüzü öz Levitan səsi ilə çatdıracaq bu gənc insana səs verirdilər. Builki seçkidə isə Zahid müəllim novator yanaşmasını metamorfozik şəkildə diferensasiya edərək postmodern bir sloqan atmışdır: "Memarlıqda Zaha Hadid, deputatlıqda Zahid Oruc!" Görək bu şüarın Soğanverdilər kənd sakinlərinə nə qədər müsbət reaksiyası olacaqdır.**

Hələlik isə Zahid müəllim can verməkdə olan əski deputatxanada çox maraqlı bir təkliflə çıxış etmişdir. Deyir gərək biz ordumuzun böyük uğurlarından xəbərləri qəzetlərdə birinci sırada verək, bu haqda qanun olsun.

Doğrudan da, görürsən Zakir müəllim atını Göyçə gölündə suvarır, ancaq Bakıda çıxan kvartallıq "Hüquq qanadlarında" müstəqil-beynəlxalq-siyasi-ictimai-hüquqi-reket qəzeti bu xəbəri lap dal səhifədə balaca şriftlə qoyur. Mikroskopla güclə oxuyursan. Mən özüm keçən ay İrəvanın tərəfimizdən alınması haqda reportajı gündəlik "Ağsaqqalın səsi" qəzetində nə qədər axtardımsa oxuya bilmədim! Təsəvvür edin, bunlar bu xəbəri nəinki dal səhifəyə qoyublar, ümumiyyətlə, yadlarından çıxıb nəşriyyatın bufetində qoyub gediblər! Ar olsun! Milləti sevməyən belə insanların boyunu yerə soxum!

Bu mənada Zahid müəllim haqlıdır. Qanun olsa, qəzet də məcbur olar qələbə xəbərlərini başdan qoyar, milli "Levitanın" çıxışını manşetdən verər.

Ancaq hörmətli deputat bəzi nüansları düzgün metamorfoz edə bilmir, bu zaman hətta disbakteriozu yaranır. Söhbət ondadır ki, *(bu yerdə "yox, söhbət on birdədir" elmi zarafatını edərdim, amma ciddi mövzudan yazırıq, lazım deyil, qalsın başqa günə)* Zahid müəllim Qələbə xəbərlərini önəmli, bir nömrəli sayır, başqa deputatlar isə başqa temaları vacib saya bilər. Üstəlik, haqlı olar! Çünki ölkəmizdə ordunun qələbə xəbərləri qədər həmin xəbərlərin əsasını təşkil edən, necə deyərlər, infrastrukturunu qoyan sahələrin də xəbərləri önəmlidir!

Örnək üçün, elə dünən - söz vaxtına çəkər - baş prokuror Zakir müəllim deyib ki, Azərbaycanda cinayətlərin açılma faizi dünyada ən yüksəkdir: "Bu il 150 qəsdən adamöldürmə cinayətinin 156-sı açılıb, cinayətkarlar tutulmuşdur".

Halaldır. Gördüyümüz kimi, hətta əlavə 6 adam da tutublar ki, ehtiyatda bir şey olsun, sabah kimsə qəsdən adam öldürəndə götürüb bunlara cinayət işi açaq, müstəntiqlər çox da avara qalmasınlar, çünki jurnalistləri, QHT işçilərini, müxalifətçi ünsürləri tutmaq üçün gərgin qrafikləri vardır.

İndi qəzet Zakir müəllimin birisinin Spitaka girməsi xəbəri ilə o birisinin cinayətkarları qovub "Spartak" stadionunda tutması xəbərinin hansını qabağa qoymalıdır? Çox çətin seçimdir. Heç Bərdəyə deputat seçmək belə çətin deyildir. Orda nə çətinlik var, onsuz da hamı bilir ki, Zahid müəllim yenə deputat olacaq, çünki onun deputatlığı dövründə rayonda adambaşına düşən Bərdə pendirinin istehsalı kəskin artmışdır. Həmçinin paytaxtımızın dana əti ilə təchizatında böyük uğurlar vardır. Əlbəttə, mövzumuz bu deyil, biz uca millətimizin seçim haqqına qarışa bilmərik, elə insan var barmağındakı ultrabənövşəyi mürəkkəbi 5 il saxlayır, hətta çimməyə gedəndə barmağını izolentlə sarıyır. Mövzumuz odur ki, nə təhər eləyək, hansı xəbəri qabağa qoyaq.

Çox çətin problemdir, etiraf edirəm. Hələ hansısa yeraltı keçidin qırmızı lentinin kəsilməsi xəbəri olanda nə etməliyik? Bunu hara qoyaq? Keçid xəbərini birinci qoymasan, ordumuz hardan keçib İrəvana girəcəkdir, baş prokuror qəddar cinayətkarların əl-ayağını hansı lentlə bağlayacaqdır?

Sözgəlişi, elə bil çoxdandır yeraltı keçidin lenti kəsilmir. Bəlkə də yaramaz qəzetçilər arxa səhifəyə qoyur.




# DSK sədrləri "yoxa çıxıb"

## Müxalifət namizədlərinin topladıqları imzalar əllərində qala bilər

**Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar deputatlığa namizədlərin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin təqdim edilməsinə ayrılan müddət oktyabrın 2-də saat 18-də başa çatır. Seçki Məcəlləsinə əsasən səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18:00-dək namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərini müvafiq dairə seçki komissiyalarına təqdim etməlidir.**

İndi isə məlum olub ki, bir sıra dairələrdə deputatlığa namizədlər dairə seçki komissiyalarının sədrlərini iki gündür yerlərində tapa bilmədiklərindən sənədlərini təqdim edə bilmirlər. Müsavat Partiyasının **Seçki Qərargahının sədri Gülağa Aslanlı** "Yeni Müsavat"a bu barədə açıqlamasında dedi ki, dairə seçki komissiyalarının sədrləri, məsul şəxsləri iş yerlərində tapılmır ki, deputatlığa namizədlər imza vərəqələrini və digər sənədləri təqdim etsinlər. Onun dediyinə görə, deputatlığa namizədliyi irəli sürülən şəxslər əksər dairələrdə DSK sədrlərinin və məsul şəxslərin iş yerlərində olmaması üzündən sənədlərini təqdim edə bilmirlər. Sənədlərin təqdim olunması üçün qoyulan vaxt isə oktyabrın 2-də saat 18-də bitir: "Müsavat Partiyasının namizədləri əllərində sənədlər gözləyirlər ki, DSK-ların sədrləri nə vaxt iş yerlərinə gələcəklər. Əgər DSK-ların sədrləri bu son iki gündə saat 9-dan saat 18-dək oturmalı olduqları iş yerlərində olacaqlarsa, Müsavat Partiyasından olan namizədlərin hamısı sənədlərini təhvil verəcəklər. DSK sədrlərini yerlərində tapmaq müşkülə çevrilib. Məsələn, 62 saylı DSK-nın işçiləri deyirlər ki, sədr yoxdur, saat 2-dən sonra gəlir. 29 saylı DSK-nın sədri MSK-nın nümayəndəsinə deyir ki, mən iş yerimdəyəm və Müsavatın nümayəndəsi ilə söhbət edirəm. Halbuki həmin vaxt səlahiyyətli nümayəndəmiz DSK sədrinin ümumiyyətlə iş yerində olmadığını deyir. Açıq-aydın görünür ki, DSK-lara bir mərkəzdən göstəriş verilib ki, onlar bu gün və sabah iş yerlərində olmasınlar. Burada məqsəd namizədlərin sənədlərinin qəbul edilməməsi və vaxt bitdikdən sonra "namizədlər sənədlərini təqdim etmədilər" kimi açıqlamalar verməkdir. Mən YAP-ın yetkilisi Siyavuş Novruzovun da nəzərinə çatdırıram ki, hər gün mətbuatda yalan açıqlamalar verməklə xalqın başını aldatmaq olmaz, gücü çatırsa, DSK sədrlərini iş yerlərində əyləşdirsinlər, elə bir şərait yaratmasınlar ki, DSK sədrlərini biz Daxili İşlər Nazirliyinin 102 xidməti ilə axtarmalı olaq".

Yerlərdən ayrı-ayrı namizədlər tərəfindən verilən xəbərlərdə də yerli icra hakimiyyəti strukturlarının və DSK-ların namizədlərə problemlər yaratdığı bildirilir.

79 saylı İmişli seçki dairəsində qəribə vəziyyət yaranıb. İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev sabiq deputat İltizam Əkbərlinin deputatlığa namizədliyinin qeydə alınmaması üçün DSK sədrinə təzyiq göstərir. Bu barədə musavat.com-a İltizam Əkbərli məlumat verib.

**1992-93-cü illərdə İmişli Rayon İcra Hakimiyyətinin başçısı olmuş və rayonda böyük nüfuzu olan İltizam Əkbərlinin sözlərinə görə, o, 550 seçicinin imzasını toplayaraq, başqa sənədlərlə birlikdə DSK-ya təqdim edib:** "İmza toplayarkən biz hərtərəfli şəkildə diqqətli olduq, imzasından imtina edə biləcək şəxslərdən, o cümlədən qadınlardan imza götürmədik. Çünki bunların qadınların imzalarını "saxta çıxarmaq" kimi bir təcrübələri var. Bununla belə, artıq üç gündür ki, icra başçısının təzyiqi ilə mənim namizədliyimin qeydə alınması əsassız olaraq ləngidilir".

**İ.Əkbərli bildirir ki, DSK sədri Sabit Yaqubov saxtakarlıq etməkdən imtina edərək, DSK-nın möhürünü icra başçısına təqdim edib və bütün iş günü ərzində işdə olmayıb:** "Bir gün sonra isə DSK-nın bütün üzvlərini çağırıb, RİH-də toplantı keçirirlər. DSK-nın ekspert qrupu da mənim imzalarımın saxta çıxarılmasından imtina edib. Ancaq Vilyam Hacıyev heç bir qanuna əməl etmədən öz niyyətində israrlıdır".

**Buna bənzər xəbərlərdən biri də Şirvan şəhərindəndir. Müsavat Partiyasının Şirvan şəhər 46 saylı seçki dairəsindən namizədi başqan müavini Elman Fəttahın imza vərəqələri DSK-ya təqdim olunduqdan sonra yoxlama prosesinə icra hakimiyyəti müdaxilə edib. Bu barədə Müsavat Partiyası Şirvan təşkilatının sədri Əlikram Xurşidov öz facebook səhifəsində yazıb. Həmin yazını sizə təqdim edirik:** "Elman Fəttahın imzatoplama kampaniyasını uğurla bitirib imza vərəqələrini 29.09.2015 tarixdə Şirvan şəhər 46 saylı seçki dairəsinə təhvil verdikdən sonra onların DSK-da deyil, icra başçısı Mərdan Camalov tərəfindən yoxlanılmasının gizlin tərəfləri üzə çıxmaqdadır. Elman bəyin namizədliyinə görə imza vermiş şəxsin mənə etdiyi zəng zamanı imzasının gizlədilməsini xahiş etməsi bunun bariz nümunəsidir. Müsavatdan bu qədərmi qorxursunuz? Bunu debatlarınızda boynunuza almağa icazə veririk".

Qeyd edək ki, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri, deputat Cavid Qurbanovla keçmiş daxili işlər naziri İsgəndər Həmidov eyni dairədən deputatlığa namizəddir. Bəs İsgəndər Həmidov Cavid Qurbanovun xeyrinə geri çəkilə bilərmi? Bu barədə modern.az saytının sualını İsgəndər Həmidov özü cavablandırıb. O bildirib ki, hələlik bu vaxta kimi deputatlığa namizədlikdən əl çəkmək kimi bir fikri olmayıb: "Hələ belə bir fikir ağlımdan keçməyib. Üstəlik, nəzərə alaq ki, seçki kampaniyası da başlamayıb".

**Keçmiş nazir bununla belə, deputatlığa namizədliyini geri götürməsi məsələsini də istisna etməyib. Lakin o, bunun yalnız məsləhətlə ola biləcəyini vurğulayıb:** "Cavid Qurbanov da, mən də kəlbəcərliyik. İndi ağsaqqallar, ağbirçəklər bir yerə gəlib məsləhət bilsə, mən namizədliyimi geri götürərəm. Bilirsiniz ki, Kəlbəcər seçki dairəsindən başqaları da deputatlığa namizəddir. Məsləhət bilsələr, onlar da namizədliyini geri götürə bilər".

Sabiq baş nazir, AXP sədri Pənah Hüseynin də namizədliyi 63 saylı Dairə Seçki Komissiyasında qeydə alınıb. Bu barədə musavat.com-a Pənah Hüseynin seçki qərargahının fəalları məlumat veriblər. Bildirilir ki, uzun sürən çək-çevirdən, tərəddüddən sonra, nəhayət, dünən 63 saylı DSK-dan bildiriblər ki, Pənah Hüseynin təqdim etdiyi sənədlər və imzalar onun deputatlığa namizəd kimi qeydə alınması üçün yetərlidir.

Qeyd edək ki, P.Hüseyn bir gün öncə imza kampaniyası və imza vərəqələrinin DSK-da yoxlanılması prosesi zamanı baş verən neqativ hallar haqqında sayta müsahibə vermişdi.

P.Hüseynin namizədliyinin qeydə alınması ilə bağlı ona bildirilmişdi ki, sənədləri dairədə deyil, yoxlanmağa aparılıb. Sənədlərin DSK-dan kənarda yoxlanması isə nonsensdir.

AMİP-in də namizədlərinin bəzilərinə problemlər yaradıldığı bildirilsə də dünən partiyanın siyasi şurasının üzvü Əli Orucovun namizədliyi 9 saylı Binəqədi 2-ci Dairə Seçki Komissiyası tərəfindən qeydə alınıb. Əli Orucov bildirdi ki, artıq rəsmən qeydə alınmış namizəd olaraq seçkinin növbəti kampaniyasını da belə uğurla aparacağına tam əmindir.

❑ **E.SEYİDAĞA**



# Azərbaycan "Putin ittifaqı"na doğru

## Qərblə soyuq münasibətlər fonunda Bakıdan Kremlə daha bir jest: Azərbaycan Avrasiya Birliyinə qoşula bilər; **Elmar Məmmədyarov:** "Heç vaxt "heç vaxt" demə..."

**BMT Baş Məclisinin 70-ci yubiley sessiyasında Azərbaycanı təmsil edən xarici işlər naziri Elmar Məmmədyarov Nyu-Yorkda rəsmi və qeyri-rəsmi görüşlərini, müsahibə-açıqlamalarını davam etdirir. Görüş-təmaslarda əsas diqqət mərkəzində saxlanılan mövzular əsasən Qarabağ problemi və Ermənistanın işğalı, habelə regional təhlükəsizlik və inteqrasiya məsələləri, o sırada qonşu dövlətlərlə, ələlxüsus da Rusiya ilə münasibətlərlə bağlıdır.**

"Azərbaycan Avrasiya İqtisadi İttifaqına daxil olmağı istisna etmir". Nazir bu sözləri "Sputnik" agentliyinə müsahibəsində bildirib. "Heç zaman heç zaman demə", - deyə Azərbaycan XİN-in rəhbəri müvafiq suala cavab verərkən vurğulayıb və ölkəsinin Avrasiya bloku dövlətləri ilə çoxsaylı ikitərəfli münasibətlərin qurulmasına diqqət yönəltdiyini xatırladıb.

Yada salaq ki, Qazaxıstan prezidenti Nursultan Nazarbayev vaxtilə Azərbaycan, İran, Hindistan və Monqolustanın Avrasiya İqtisadi İttifaqı ilə əməkdaşlıq imkanlarını nəzərdən keçirdiyini, Türkiyənin isə ittifaqla ticarət əlaqələri qurmaq arzusunu ifadə etdiyini bildirmişdi.

"Putinin layihəsi" və ya "Putin İttifaqı" adlanan və SSRİ-ni yeni qiyafədə bərpa etməyə yönəlik Avrasiya İqtisadi Birliyi hazırda 5 ölkədən - Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Ermənistandan ibarətdir. Lakin hələ ki bu qurum həm Rusiyanın beynəlxalq sanksiyalar səbəbindən üzləşdiyi ağır vəziyyət, həm də Ukrayna və Azərbaycan kimi vazkeçilməz regional oyunçuların, açar ölkələrin ondan uzaq durması səbəbindən "ölü doğulmuş" sayılır.

Ukraynanın məsələsi aydındır, ölkəmizə gəlincə, Bakının qeyri-rəsmi də olsa Kremlə qarşı əsas şərti çoxdan bəllidir - Dağlıq Qarabağ məsələsində köklü irəliləyiş, işğal altındakı rayonların boşaldılması. Hələ ki bu yöndə real nəticə yoxdur. Hərçənd son vaxtlar məsələdə müəyyən siyasi-diplomatik hərəkətlilik müşahidə edilir.

Hətta ortada Dağlıq Qarabağ ətrafındakı 5 rayonun boşaldılması qarşılığında Azərbaycanda Rusiya hərbi bazasının qurulması və yaxud Dağlıq Qarabağa rus sülhməramlılarının yeridilməsinə dair ilkin anlaşmanın olması iddiaları mövcuddur. Rusiyalı ciddi analitiklərdən biri isə bu kontekstdə bir neçə gün qabaq sensasion fikir irəli sürüb ki, Moskva Suriyaya Qarabağdan yol açmaq istəyir və bu məqsədlə də 5 rayonun boşaldılması əvəzində Azərbaycan ərazisində bazalar yaratmaq niyyətindədir.

*****

Elmar Məmmədyarovun son açıqlaması məhz belə hərəkətlilik fonunda təsadüf edilməsi ilə maraq doğurur. Bu yerdə yada salmaq zərurəti var ki, cari ilin mayında o, Moskvada səfərdə olarkən də analoji fikir söyləyib. O zaman nazirin Moskva ziyarəti Azərbaycan hakimiyyətinin Rusiyaya reveransları ilə yanaşı, Kremlin özünə Bakının bəzi mesajlarının çatdırılması ilə diqqət çəkmişdi.

Belə ki, XİN başçısı səfər çərçivəsində "Rossiya 24" kanalına verdiyi müsahibəsində Azərbaycanın ya İqtisadi Birliyi ilə əməkdaşlığını istisna etmədiyini, lakin bunun müstəsna olaraq Qarabağ nizamlanmasından sonra mümkün olduğunu söyləmişdi. **Sitat: "Bir deyim var: "Heç vaxt heç vaxt demə". Azərbaycan rəhbərliyi bu məsələdə öz xarici siyasət doktrinasını ölkənin milli maraqlarından çıxış edərək qurur".**

O vaxt da eyni məsəli "Heç vaxt heç vaxt demə" xatırladan Məmmədyarov sözünə davam edərək bildirmişdi: **"Orada *(Avrasiya İqtisadi Birliyində - red.)* Avropa Birliyi ilə assosiasiya sazişində olduğu kimi şərtlərdən biri azad ticarət zonası haqdadır. Avropa Birliyi ilə bu, mümkün deyil, çünki biz Beynəlxalq Ticarət Təşkilatının üzvü deyilik. Avrasiya İqtisadi Birliyinə gəlincə, burada Gömrük İttifaqı mühüm rol oynayır. Lakin Ermənistan tərəfindən torpaqlarımızın işğalı Gömrük İttifaqında bizim onunla birgə mövcudluğumuza imkan vermir. Əgər Ermənistan öz silahlı qüvvələrini ərazilərimizdən çıxarsa, o zaman sərhədlər açılar və situasiya normallaşarsa, Azərbaycanla Ermənistan arasında iqtisadi münasibətlər yaranarsa, kim bilir sabah nə olacaq..."**

Yəni rəsmi Bakı bununla əslində Avrasiya Birliyinə, Gömrük İttifaqına üzvlüklə bağlı Rusiya qarşısında əsas şərtinə, mesajına işarə vurmuşdu - "Öncə Qarabağ, sonra Avrasiya Birliyi!.."

*****

Göründüyü kimi, üstündən 4 ay ötsə də və Qarabağ məsələsində son hərəkətlilik istisna olmaqla, kardinal irəliləyiş qeydə alınmasa da, Bakı öz şərtində qalır və "Putin İttifaqı"na qoşulmağı hələ də mümkün hesab edir. Ola bilsin bu, Kremlə növbəti, bəlkə də sonuncu avansdır ki, o, Qarabağ məsələsində səylərini artırsın və praktik nəticə hasil olsun. Bakı-Qərb münasibətlərində yaşanan növbəti soyuqluq və gərginlik indi Kremli də, Bakını da bunda daha çox maraqlı edir. Situasiyanın mühüm özəlliklərindən biri də, zatən, budur.

Başqa sözlə, Avrasiya Birliyinə üzvlüklə bağlı Moskvaya yeni reveransla Bakı həm də Qərbə təhdid xarakterli bir anons (mesaj) yollamış olub. İstisna deyil ki, Azərbaycan iqtidarının qarşıdakı parlament seçkiləri ilə bağlı demokratik qüvvələrə yaratdığı ciddi əngəllər də Rusiyaya, Qərbə özünəməxsus bir mesajdır. Çünki hər necə olmasa, Avrasiya layihələrinə qoşulmaqla bağlı sazişlər son olaraq parlamentdə ratifikasiya edilməlidir. Aydındır ki, Moskva orada qərbyönlü, müstəqil deputatların olmasını arzulamaz.

❑ **Analitik xidmət**

# "Qərblə rəsmi Bakı arasında məxfi məsləhətləşmə" iddiası

## **Mehman Əliyev:** "20 noyabrda Antalyadakı görüşə qədər xeyli məsələlər həll oluna bilər"



Mehman Əliyev

**ABŞ prezidenti Barak Obamanın twitterdəki mikrobloqunda fotoşəkil yayılıb. Həmin fotoşəkildə Barak Obama Azərbaycanda həbsdə olan jurnalist Xədicə İsmayılın və hüquq müdafiəçisi Leyla Yunusun da fotosunun yer aldığı stendi nəzərdən keçirir.**

X.İsmayılın adı müxtəlif ölkələrdə həbsdə olan 20 qadının - jurnalistlərin, hüquq müdafiəçilərinin, vətəndaş cəmiyyəti fəallarının azad olunması çağırışı ilə çıxış edən "Free 20" kampaniyasına daxil olunub.

ABŞ-ın BMT-dəki missiyası bu siyasi məhbusların fotolarını hər gün dərc edib. Bütün 20 portret dünya liderlərinin BMT-nin iclaslarına gəlişi ilə əlaqədar böyük stend halında tərtib edilib. Obama da məhz həmin stendin qarşısında dayanaraq böyük ehtimalla X.İsmayıla tərəf baxır.

Bundan başqa, ABŞ-ın BMT-dəki səfiri Samanta Pauer bundan əvvəl bəyan etmişdi ki, onlar bu aksiya vasitəsilə dünya liderlərinin diqqətini insan haqlarının pozulması faktına yönəltməyə çalışırlar.

**"Nyu-Yorka gəlib Birinci avenyu küçəsindən keçən dünya liderlərinin heç birisi bu 20 qadının portretini görməyə bilməz"** - deyə S.Pauer bildirmişdi.

Bundan başqa, ABŞ senatoru Patrick Leahy də Azərbaycanda insan haqları müdafiəçilərinin həbsləri ilə bağlı bəyanat verib.

Öz internet saytında yerləşdirdiyi bəyanatda senator Azərbaycan prezidentinə müraciətlə, hələ ötən il insan haqları fəalları, jurnalistlər və vətəndaş cəmiyyəti nümayəndələrinin həbsləri ilə bağlı narahatlıq ifadə etdiyini yada salır. **"O zamandan bəri prezident Obama və başqa hökumətlərin rəsmiləri, habelə Avropa İttifaqı və BMT İnsan Haqları Komissarlığı tərəfindən pislənməsinə baxmayaraq, Azərbaycanda insan haqlarının vəziyyəti daha da pisləşib"** - bəyanatda deyilir.

Göründüyü kimi, son dövrlər Qərb təsisatlarının, xüsusən də ABŞ prezidentinin ölkəmizdəki problemlərlə bağlı mövqeyi ənənəvi müxalifətindən fərqlənmir. Sadəcə, narahat olmaqla kifayətlənirlər. Müxalifətin əlində hər hansı təsir mexanizmləri, rıçaqları olmadığını nəzərə alsaq, onların passivliyi anlaşılandır. Bəs Obama niyə ancaq fotolara baxmaq, onları yaymaqla kifayətlənir? Azərbaycan iqtidarına bu və ya digər formada təsir imkanlarından niyə istifadə olunmur?

"Yeni Müsavat" xatırladır ki, bu günə qədər jurnalistlərlə bağlı məsələdə hökumətlə Qərb arasında müəyyən anlaşmalar olub. Bunlardan ən sonuncusu İsveçrənin Azərbaycandakı səfirliyinin binasında saxlanan Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun (RATİ) sədri Emin Hüseynovun həmin ölkənin rəsmi nümayəndələri tərəfindən ölkədən çıxarılmasıdır. E.Hüseynovun 160.000 manat məbləğindəki vergi borcunu ödəyən İsveçrə hökuməti bununla da Azərbaycanla məsələni sivil yollarla həll edib.

Buna bənzər nümunəni 2009-cu ildə keçmiş ABŞ prezidenti Bill Klinton da göstərib. Amma fərqli ölkənin rəhbərliyi ilə. Belə ki, o, sözügedən ildə Şimali Koreyaya səfər edib və orda həbsdə olan iki amerikan jurnalistin azadlığa buraxılmalarına köməklik edib. 2 amerikalı jurnalist Laura Ling and Euna Lee, 20 həftədən artıq bir müddəti Şimali Koreya dustaqlığında keçirmişdilər. Onlar Amerikaya yola düşən keçmiş prezident Bill Klintonun təyyarəsində öz ölkələrinə geri qayıdıblar. 12 illik həbs cəzasına məhkum olunmuş 2 jurnalist Şimali Koreyaya qeyri-qanuni daxil olmaqda ittiham olunmuşdular.

Ortada bu və buna bənzər bəzi nümunələr olduğunu nəzərə alanda ABŞ rəhbərliyinin bu susqun etirazı, Azərbaycan müxalifətini xatırladan mövqeyi diqqət çəkir.

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev hesab edir ki, Azərbaycan tərəfi ilə məsləhətləşmələr gedir. 20 noyabrda Antalyada baş tutacaq böyük görüşə qədər xeyli məsələlər həll oluna bilər:** "İndiki məqam - seçki qabağıdır. Ona görə də bu mənada gərginlik keçirirlər. Amerikalılar üçün ən vacib məsələ stabillikdir".

**M.Əliyev bildirdi ki, qlobal məsələlərdə Azərbaycan Qərblə tərəfdaşlıq edir. Onun fikrincə, siyasi məhbusların azadlığa buraxılması, Qərbə aid təsisatların qapadılması problem kimi özünü göstərsə də, bu, müvəqqəti xarakter daşıyacaq:** "Çoxları dərk etmir ki, hökumət bəzi addımlar atmasa Azərbaycanda iqtisadi durum ildən-ilə pisləşməyə doğru gedəcək. Azad biznesin inkişafı üçün şərait yaradılmalı, islahatlar aparılmalıdır. Azərbaycanda neftin istehsalı yaxın 8 ildə 23 milyona, yəni iki dəfə aşağıya düşəcək. Bu itkini hansı vəsaitlərlə doldura bilərik? Azərbaycanın 20 illik strategiyası var: pensiyalar, maaşlarla bağlı. Ona görə də təxmin etmək olar ki, bu sahədə çox böyük itkilər olacaq və bu, cəmiyyətdə narazılıqlara səbəb olacaq. Hökumət bunu başa düşür və narahatdır. Ona görə də cəmiyyətə maksimum nəzarət xəttini götürüb".

❑ **Sevinc TELMANQIZI**

Yeni MÜSAVAT
N 217 (6245) 2 oktyabr 2015

**Milli Televiziya və Radio Şurasının (MTRŞ) "Sən tək deyilsən!" və "Xoşqədəmlə axtarıram səni" verilişlərini bağlaması gündəmin müzakirə mövzusuna çevirilib. MTRŞ yaydığı məlumatda bu proqramlarda insanların şərəf və ləyaqətinin alçaldılmasına, işgüzar nüfuzunun ləkələnməsinə yol verildiyini, efirin şəxsi intriqalara alət edildiyini, milli-mənəvi dəyərlərin qorunmasına ardıcıl şəkildə əməl edilmədiyini bəyan edib.**

# ANS-MTRŞ davası daha da qızışdı

## MTRŞ rəsmisindən Mir Şahinə: "Şuranın iclasında muma dönmək, sonra isə aslana çevrilmək müəyyən bir xarakterin göstəricisi olsun gərək"

**Bundan sonra ANS Müstəqil Yayım və Media Şirkətinin baş direktoru Mir Şahin Ağayev** qərarla əlaqədar olaraq şuranı məhkəməyə verəcəklərini deyib. O, müsahibəsində Nuşirəvan Məhərrəmlinin qeyd edilən verilişlərin aparıcısı Xoşqədəm Hidayətqızı ilə problemi olduğu barədə ilginc iddialar da irəli sürüb: "Bir necə dəfə cənab Məhərrəmlidən Xoşqədəm Hidayətqızı kimi adamların efirdən ayağını kəsmək kimi tövsiyələr eşitmişdim. Deməli, N.Məhərrəmlinin Xoşqədəm problemi var. Verilişlə bağlı yox aaa.. Məhz Xoşqədəm xanımla. Təəssüf..."

**MTRŞ-nin Ekspertiza, Proqramlaşdırma və Analitik şöbəsinin müdiri Təvəkkül Dadaşov facebook hesabında Mir Şahin Ağayevi sərt tənqid edib:** "ANS onunla bağlı ağzından bir az köndələn söz çıxaran hər kəsi imici və işgüzar nüfuzunu qorumaq adı altında məhkəməyə verir. Lap yaxşı da eləyir. Amma gərək özünə rəva bilmədiyini başqasına da bilməyəsən. Belə yol seçənlər, yəni hər şeyi məhkəmə müstəvisində həll etməyə cəhd göstərənlər öz ağızlarından çıxanlara da fikir versələr, yaxşı olardı. Məsələn, Mir Şahin Ağayev anspress.com saytına açıqlamasında belə deyib: "Nuşirəvan Məhərrəmlinin Xoşqədəm problemi var. Verilişlə bağlı yox aaa.. Məhz Xoşqədəm xanımla". İndi bu sözdən yapışıb onun özünü məhkəməyə vermək olarmı-olmazmı? Bu, böhtandımı, deyilmi? Şuranın, onun sədrinin hər hansısa aparıcı ilə nə işi var axı? Nə vaxtsa açıqlamalarımızda Xoşqədəmin, yaxud da hansısa başqa aparıcının adını çəkmişikmi? Yox. Biz hər dəfə demişik ki, qanun qarşısında cavabdeh olan yayımçı və onun məsul şəxsləridir, aparıcı yox. Bunun müqabilində belə açıqlamasının onun özünün əleyhinə işləyə biləcəyini Mir Şahin yəqin ki, yaxşı bilir. Şuranın iclasında daha sərt qərar verilməsin deyə muma dönmək, məqsədə nail olduqdan sonra isə aslana çevrilmək müəyyən bir xarakterin göstəricisi olsun gərək".

Baş verənlərlə bağlı X.Hidayətqızının münasibətini öyrənməyə çalışsaq da aparıcı əməkdaşlarımızın uzun-uzadı zənglərinə cavab verməyib.

Qeyd edək ki, bir neçə gün ərzində ANS telekanalında "Sən tək deyilsən!", "Xoşqədəmlə axtarıram səni" verilişlərindən başqa həftə içi yayımlanan "Şokolad" və şənbə günü efirə gedən "A-dan Z-yə" proqramları da dayandırılıb, "Günə baxan" verilişinin isə formatı dəyişdirilib. Həmçinin digər televiziyada ATV-də yayımlanan, Zaur Baxşəliyevin aparıcılıq etdiyi "Öz aramızda" verilişinin yayımı dayandırılıb. Bununla bağlı olaraq sosial şəbəkələrdə aparılan müzakirələr, iddialara görə televiziyalarda aparılan bu dəyişiklik Azərbaycan hökümətinin yürütdüyü siyasətdir və qarşıdan gələn parlament seçkiləri ilə əlaqədardır.


Mir Şahin Ağayev


Nuşirəvan Məhərrəmli

## Qulu Məhərrəmli proqramların bağlanmasından danışdı

**Əməkdar jurnalist, tele-tənqidçi Qulu Məhərrəmli məsələ ilə bağlı "Yeni Müsavat"a danışıb. Teletənqidçi televiziyalarda gedən proseslərin qarşıdan gələn seçkilərlə heç bir bağlılığı olmadığını bildirib:**

"Milli Televiziya və Radio Şurasının çıxartdığı qərarın qarşıdan gələn parlament seçkiləri ilə qətiyyən heç bir əlaqəsi yoxdur. Burda söhbət təkcə Xoşqədəm Hidayətqızının verilişindən getmir, bütövlükdə son illər televiziyalarda bayağı verilişlərin sayı durmadan artmaqdadır. Əksər televiziya kanalları ictimai əxlaqı zədələyən, şəxsi məsələləri şoulaşdıran, qarşıdurmaları daha da şişirdən intriqa alətinə çevrilib. Bu da təbii ki, çoxsaylı tamaşaçıların, auditoriyanın ciddi narazılığına səbəb olur. Doğrudur, dunyanın hər yerində bu tip verilişlər var, lakin təəssüf ki, bizdə bu hal həddindən artıq çoxdur. Bu baxımdan MTRŞ-nin bu verilişlərə müdaxilə etməsi özünü doğruldur və başa düşüləndir".

**Qulu Məhərrəmli eyni zamanda MTRŞ-nin xəbərdarlıq etmədən qərar çıxartmasını pisləyib:** "Hazırda televiziyalar üçün yeni mövsüm başlayır, redaksiyalar yeni yayım üçün proqramlar müəyyənləşdirməkdədir. Buna görə də MTRŞ-nin xəbərdarlıq etmədən verilişləri bağlamasını kifayət qədər sərt qərar hesab edirəm. Milli Televiziya və Radio Şurası televiziyalara tövsiyə və təkliflərini verə bilər, çünki bu qurum televiziyaların yayım siyasətini tənzimləyir. Lakin Şura heç bir halda televiziyaların redaksiya siyasətinə birbaşa müdaxilə edə bilməz və ixtiyarı da yoxdur".

**Teletənqidçi proseslərin bu yöndə inkişaf etməsini gələcək üçün təhlükə hesab edib:** "Çalışmaq lazımdır ki, MTRŞ və televiziyalar arasında səmimi, qarşılıqlı hörmət və ehtirama söykənən münasibətlər olsun, vaxtaşırı müəyyən müzakirlər aparılsın, tövsiyələr verilsin. Bununla da həm televiziya kanalları səmərəli işləyə, özlərini dolandıra, tamaşaçı auditoriyası toplaya, eyni zamanda verilişlərlə bağlı ciddi narazılıqlar aradan qalxa bilər.

**Qulu Məhərrəmli aparıcısı Xoşqədəm Hidayətqızı olan "Sən tək deyilsən!" və "Xoşqədəmlə axtarıram səni" verilişlərini əvvəllər bəyəndiyini, hətta qonaq qismində iştirak etdiyini də deyib:**

"Bir neçə il bundan əvvəl veriliş ATV-də yayımlanmağa başladı. O zaman veriliş baxımlı idi və maraq doğururdu. Hətta mən də bir-iki dəfə verilişdə qonaq qismində iştirak etdim. Lakin sonralar veriliş öz marağını itirmiş oldu".

Qeyd edək ki, MTRŞ-nin aparat rəhbəri Toğrul Məmmədov mətbuata açıqlamasında bildirib ki, "Sən tək deyilsən!" və "Xoşqədəmlə axtarıram səni" verilişləri bağlanan kimi qaynar xəttə ardı-arası kəsilməyən təşəkkür zəngləri gəlib.

❑ **Xalidə GƏRAY**

# "Ay alan, böyrək satıram..."

## Müzəffər Baxış: "Qanunvericilik daxili orqanların alqı-satqısını qadağan edir"




**Bakının "Qara Qarayev" metro stansiyası yaxınlığında divarda "Böyrək satılır" adlı elan yapışdırılıb. Sosial şəbəkələrdə şəkli yayılan bu elan insanı vahiməyə salır. Elanlarda hətta qan qruplarına görə böyrəklərin olduğu bildirilir. Qiymətlərə gəlincə, 1-ci qan qrupu üzrə böyrək 40 min manat, 2-ci qrup üzrə 50 min manat, 3-cü qrup üzrə isə 70 min manat göstərilib.**

Elanda göstərilən hər üç telefon nömrəsi ilə əlaqə saxlasaq da, cəhdimiz boşa çıxdı, nömrələr artıq fəaliyyətdə deyildi. Bu kimi elanlara ümumiyyətlə internetdə də çox rast gəlinir. Qeyri-rəsmi məlumatlara görə, ölkəmizdə orqan mafiyaları və şəbəkələri mövcuddur ki, onlar müxtəlif yollarla orqanlar əldə edir və xarici ölkələrə baha qiymətə satır. Azərbaycanda bir çox daxili orqanların transplantasiyası həyata keçirilmir, həyata keçirilən qaraciyər köçürülməsi əməliyyatının qiyməti isə 50 min manatdan çoxdur. Qonşu Türkiyəyə üz tutanlar hətta 100 min dollarından belə keçməli olur.

Statistikaya inansaq, qaraciyər serrozu olan təcili donora ehtiyacı yaranan 7 nəfərdən yalnız ikisinin sonda üzü gülür. Oxşar vəziyyət böyrək çatışmazlığı zamanı mövcuddur. Qiymətlərin yüksək olması isə Azərbaycanda "orqan bankı"nın yoxluğu ilə əlaqədardır ki, bu qiymətlərə ciddi şəkildə təsir edir. "Orqan bankı"nın yaradılması üçün isə əvvəlcə insanların buna psixoloji cəhətdən hazır olması şərtdir. Çünki ölkədə heç kim beyin ölümü keçirmiş yaxınının meyitinin yarılmasına və onun orqanlarının götürülməsinə razılıq vermir.

**Hüquqşünas Müzəffər Baxış qanunvericiliyin daxili orqanların alqı-satqısını qadağan etdiyini dedi:** "İnsan orqanlarının və toxumalarının transplantasiyası haqqında Azərbaycan Respublikasının qanunu var. Həmin qanuna görə, onun alqı-satqısı qadağan edilir və cinayət sayılır. Əgər kimsə öz yaxınına hansısa daxili orqanını könüllü şəkildə, alqı-satqı olmadan vermək istəyirsə buna qanunən icazə verilir. Sadəcə olaraq, öz yaxınına orqanını verən şəxs bunun qarşılığında hansısa məbləğ istəyərsə, bu, artıq cinayət hesab edilir. Ancaq qanunla müəyyən orqanların transplantasiyası qadağandır. Həmin qanunun 137-ci maddəsinə görə, insan orqanlarının və toxumalarının qanunsuz alqı-satqısını həyata keçirən insanları 2 min manatdan 5 min manatadək məbləğində cərimə və ya 2 ilədək müddətə islah işləri və ya 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 3 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə insan orqanlarının və ya toxumalarının transplantasiya məqsədilə götürülməsinə məcbur etmə 137.2 ilə təsnif olunur və 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 4 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər, zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə və ya onun təqsirkar şəxsdən maddi, xidməti və ya sair cəhətdən asılı olmasından istifadə etməklə törədildikdə 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 3 ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

Ümumiyyətlə, donorlar dünya ədəbiyyatında 3 qrupa bölünür: qohumlar - bacı, qardaş, ana, ata; emosional qohumlar - yoldaşının qardaşı, yeznəsinin qohumu, uzaq qohumlar və böyrəyini vermək istəyən adamlar; könüllü böyrəyini bağışlamaq istəyənlər. Tibbi qaydalara əsasən, böyrək verən adamın çəkisi 75 kiloqramdan çox olmamalı, sağlam olmalıdır. Onun immunoloji uyğunluğu olmalıdır. Qadından kişiyə, kişidən qadına orqan köçürmək olar. Ən yaxşı nəticəni isə qohumdan götürülən böyrəklər verir. Yaşı 18-ə çatmayan donordan sümük iliyi istisna olmaqla, transplantasiya məqsədilə digər orqan və ya toxumaların götürülməsi qadağandır. Qan qrupları da uyğun olmalıdır. Əgər donor olmaq istəyən orqanını vermək niyyətində olduğu şəxsin qulluq tabeliyindədirsə, ondan fiziki, mənəvi və maddi cəhətdən asılıdırsa, bu halda qanun onun donor olmasını qəti şəkildə qadağan edir.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 217 (6245) 2 oktyabr 2015

# Deputat Araz Əzimovun nazir olmaq ehtimalından danışdı

## Zahid Oruc: " O, mediaya açıq və milli şəxsdir"


Araz Əzimov

**Son zamanlar ölkə gündəmində ən çox müzakirə olunan məsələlərdən biri Xarici İşlər Nazirliyində baş verən hadisələrdir. Bir neçə diplomatın "qiyam" qaldırması hakimiyyəti də ciddi şəkildə narahat edir.**

Bunun da nəticəsi olaraq XİN-in fəaliyyətində son zamanlar müşahidə olunan nöqsanlar Milli Məclisdə də müzakirəyə çıxarıldı. Artıq nöqsanlara yol verən diplomatlara qarşı cəzalar sərtləşdirilir. Bu, Milli Məclisin sentyabrın 30-da keçirilən plenar iclasında müzakirəyə çıxarılan "Diplomatik xidmət haqqında" Qanuna edilən dəyişikliklərdə öz əksini tapıb.

Parlamentə prezident tərəfindən təqdim olunan qanun layihəsində qeyd olunub ki, "Xidməti vəzifələrinin kobud şəkildə pozulmasına və ya diplomatik xidmətlə bir araya sığmayan hərəkətlərə görə" diplomatik əməkdaşların rütbələri aşağı salına və ya onlar öz rütbələrindən məhrum edilə bilər.

Nöqsanlara yol verən diplomatların cəzalandırılması ilə yanaşı parlament seçkilərindən sonra XİN-də ciddi kadr dəyişikliklərinin də olacağı gözlənilir. "Yeni Müsavat" qəzetinin hakimiyyətdəki mənbələrdən əldə etdiyi məlumata görə, E.Məmmədyarovla bağlı qəti qərar artıq verilib. Məlumatlı mənbə iddia edir ki, xarici işlər naziri kimi daha çox hazırda xarici işlər nazirinin müavini vəzifəsini daşıyan Araz Əzimovun namizədliyi üzərində dayanılıb.


Zahid Oruc

**Milli Məclisin iclasında XİN-də baş verən hadisələrin müzakirəsi zamanı mövqeyini açıq şəkildə ortaya qoyan deputat Zahid Oruc "Yeni Müsavat"a açıqlamasında Elmar Məmmədyarovun vəzifədən çıxarılacağı ilə bağlı məlumatlara münasibət bildirib:** "Ötən illər ərzində Azərbaycan beynəlxalq məkanda öz əlaqələrini möhkəmləndirib. Diplomatik korpusların sayı qat-qat artıb. Bu, sadəcə, o məkanda ərazi qazanmaq və onu Azərbaycanın tərkib hissəsinə çevirmək deyil. Bilirsiniz ki, diplomatik konvesiyaların tələbinə görə o ərazi həmin ölkəyə mənsub olan məkan sayılır.

XİN-in ayrı-ayrı təmsilçilərinə bağlı müxtəlif problemlərin meydana çıxması fonunda mediada daha çox gündəmə gətirilir ki, gələcək dövr üçün ölkə rəhbəri özünün idarəetmə komandasında yeniləşmələr edərkən bunu xarici işlər nazirinə də şamil edəcəkmi? Bu suala əlbəttə ki, parlament üzvünün cavab verməsi çox çətin olar. Çünki bu, birbaşa bizim səlahiyyətlərə aid deyil. Amma heç şübhəsiz ki, biz hamımız onun marağındayıq ki, Azərbaycanın bütün diplomatları peşəkar olsunlar, orada daha şəffaf münasibətlər olsun, öz funksiyalarını dəqiqliklə yerinə yetirsin, məlumatların işlənməsi və dövlətlərarası əlaqələrə təsir göstərmək baxımından çox təşəbbüskar mövqe tutsunlar və Azərbaycanın xarici məkandakı təhlükəsizliyini uğurla yerinə yetirsinlər. Tələb ümumən nəzəri olaraq belədir. Elmar Məmmədyarovun fəaliyyəti barədə deyilən neqativ fikirləri bölüşmürəm. Çünki bu illər ərzində bir az da fəaliyyətin məxfi xarakter daşıdığına görə hər bir addımı cəmiyyətə təqdim etmək imkanı olmadığından, bir sıra hallarda mənfi fikirlər də meydana çıxmış olur. Mən bu mövqedəyəm ki, kəşfiyyat orqanlarının missiyasına bənzər diplomatların da üzərində çox ciddi tələblər daşınır. Diplomatlarla bağlı tələblərimiz nazirliyə qarşı ittiham, nazirin özünün fəaliyyətinin təftişi deyil. Elmar Məmmədyarovun gələcək fəaliyyəti, diplomatik korpusun rəhbəri kimi qalıb-qalmaması cənab prezidentin iradəsi altındadır".

**Araz Əzimovun XİN rəhbərliyinə gətirilməsinə də münasibət bildirən Z.Oruc nazir müavininin fəaliyyətini yüksək qiymətləndirib. Deputat prezidentin Araz Əzimova etimad göstərdiyini qeyd edib:** "Bu iki şəxsin müqayisəsində üstünlüyün digərinə verilməsi anlamında və yaxud gələcək kadr təyinatının idealojisi və siyasi fikir məkanı hazırlamağa zəmin yaratmağa yönəldilmiş məsələ deyil, amma daha sadə dillə desəm, Araz Əzimov kifayət qədər peşəkar diplomatdır. Həddindən artıq yüksək işgüzarlıq qabiliyyətinə malikdir. Dövlətin məxfi həyatı ilə bağlı məlumatlarla işləməyi bacaran adamdır. Eyni zamanda onun kurasiyasında olan şəxslər həmişə hazırlıqlı olublar, düzgün seçiliblər, şəffaflıq mövcud olub. Araz Əzimovun mediaya açıqlığı çox önəmlidir, milli bir şəxsdir. Və eyni zamanda dövlət başçısı da hər zaman ona etimad göstərib. Amma Araz Əzimovun xarici işlər naziri olub-olmayacağı məsələsi cənab prezidentin səlahiyyətindədir".

❑ **İlkin MURADOV**

# Peterburq qubernatoru prezidentlə görüşüb


Georgi Poltavçenko

**Sankt-Peterburqun qubernatoru Georgi Poltavçenko Bakıya rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının prezidenti İlham Əliyevlə "Zağulba" iqamətgahında görüşüb.**

"Peterburqski dnevnik"in məlumatına görə, İlham Əliyev bildirib ki, Peterburq və Azərbaycan ikitərəfli münasibətlər çərçivəsində uzun illərdir ki, əməkdaşlıq edirlər: "Belə pozitiv fonda biz regional əməkdaşlığı möhkəmləndirməliyik".

Georgi Poltavçenko Bakının tarixi vətəni olduğunu deyib, şəhərin çox dəyişdiyini vurğulayıb və qeyd edib ki, Azərbaycan və Peterburqun ənənəvi olaraq mehriban münasibətləri olub: "Biz gəmiqayırma sahəsində maraqlıyıq, çünki Sankt-Peterburq dəniz şəhəridir".

# Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Azərbaycana gəlir


Hulusi Akar

**Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ölkəmizə rəsmi səfərə gələcək. Müdafiə Nazirliyinin saytı bildirir ki, oktyabrın 5-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana rəsmi səfərə gələcək.**

Səfər çərçivəsində H.Akarın Müdafiə Nazirliyində görüşləri planlaşdırılır.

Səfər oktyabrın 7-dək davam edəcək.

# İnsanların mərhəmət hissini sümürən dələduzlar



Xalid KAZIMLI

**Tez-tez deyirlər: heç kəs kefindən dilənmir. Bu sözlərdə həqiqət var. Psixoloji baxımdan dilənçilik dünyanın ən ağır işidir.**

Ancaq insan ki, o psixoloji həddi aşdı, ləyaqət hissini sıfırladı, onun üçün başqalarına əl açmaq texniki iş halına gəlir. Siqaret çəkmək, bir stəkan su içmək kimi.

Nə qədər mübarizə aparılsa da, şəhərimizdə dilənçilər gündən-günə çoxalır. Şəhərin hansı küçəsində tıxac varsa, avtomobillər sürünə-sürünə hərəkət edirsə, həmin küçə tez bir zamanda dilənçilərlə dolur. Bunlar "trass dilənçiləri"dir.

Heç kəs deməsin ki, iş yoxdur, ehtiyacdan dilənirlər. Elə deyil. İşsizlikdən dilənənlər az, nadirən olar. Gerçəkdən çörəyə, qəndə, ətə möhtac olan minlərlə insan var ki, dilənmirlər, başqalarına əl açmırlar, ət yemirlər, amma qürurlarını da kimsəyə endirmirlər.

Yollarda, küçələrdə, məhəllələrdə gördüyümüz dilənçilər isə əsasən parazitlərdir. Bunlarınkı odur ki, işləməsinlər, özlərini əziyyətə salmasınlar, səhər saat 6-dan evindən çıxıb çörək dalınca gedən zəhmətkeşin qarşısını kəsib pul istəsinlər.

Sentyabrın 30-da saat 20 radələrində "Gənclik" metrostansiyasının çıxışında, qızıl mağazalarının önündə gördüyüm bir mənzərə ölkəmizdə küçə dilənçiliyinin artıq dələduzluq səviyyəsində qədər irəlilədiyini və yeni qılaf qazandığını göstərdi.

Onlar üç nəfər idilər: 35-40 yaşında normal geyimli dolubədənli qadın, 22-25 yaşında yaxşı geyimli, gözəgəlimli qız, 10-12 yaşında səliqəli geyimdə oğlan. Qətiyyən dilənçiyə oxşamırdılar. 5 metrliyimdə idilər. Əgər onların yol keçən insanlara nəsə dediklərini və nəsə aldıqlarını görməsəydim, onları da özüm kimi birini gözlədiklərini zənn edəcəkdim.

Nəzərimi cəlb etdikdən sonra fikir verdim ki, qız yol keçən 25-50 yaş arasında olan kişilərə ədəb-ərkanla belə deyir: "Bir dəqiqə olarmı?" Məlahətli qadın səsi kişiləri dudurur. Qız davam edir: "Salam əleyküm. Bağışlayın, narahat edirəm. Biz kaşelokumuzu itirmişik. Evə getmək üçün pul lazımdır". Və avtomatik olaraq əl cibə gedir.

Təxminən 10-15 dəqiqə onları izlədim, hər 10 nəfərdən 9-u onlara pul verdi və heç kəs onlara qəpik vermədi. Hamısı ən azı bir manat verdi. 5 manat verən də oldu. Axı onlar dilənçi deyillər, pul kisələrini itiriblər, utana-utana yolpulu istəyirlər. İnsanlıq halıdır, kömək etmək lazımdır.

Hiss etdim ki, bir tələbə cibindəki son manatını çıxarıb onlara verdi və metroya getdi. Yolda qalmış bir ailəyə kömək etdiyi üçün vicdanı rahatlamış şəkildə ötüb gedənlərdən heç biri dönüb arxasına baxmırdı, görmürdü ki, bu "binəsib ailə" artıq 10 dəqiqənin içində evə nəinki avtobusla, hətta Gəncəyə taksi ilə getməyə bəs edəcək qədər pul toplayıblar və insanlara "bir dəqiqə olarmı" deyə müraciət etməkdə davam edirlər.

Arada onlara 60-65 yaşlarında ağsaçlı bir kişi yanaşdı. Yaxın adamları idi, ərkyana söhbət etdilər. Kişi 3-5 metr aralanıb prosesi müşahidə etməyə başladı. "Xanımlar" isə yol keçən insanları sağmaqdaydı.

Bu arada təsdiq olunur ki, insanlarımız rəhmdildirlər. Yolda qalan, köməyə ehtiyac olan tanımadıqları şəxsə belə kömək etməyə hazırdırlar. Yetər ki, onlar qarşılarındakının peşəkar dilənçi və ya dələduz olduqlarını bilməsinlər. Adamın köməyə möhtac olduğuna inandılarsa, yardım edəcəklər.

Burada bir amil də rol oynayır. Məlahətli səsi, ədəbli danışığı, xoş siması olan gənc qızın onlara kömək üçün müraciət etməsi kişilərin zəif damarına düşür. Məhz bu faktor vadar edirdi ki, gənclər pul istəyənlərə qəpik verməsinlər, ən azı bir manat versinlər. Qızdan ayıbdır axı, yolda qalıb, dilənçi deyil ki, qəpik-quruş verək.

Bu fırıldağı kim fikirləşibsə, usta adamdır, əsl psixoloqdur. Hər şeyi nəzərə alıb. Yarım saatın içində bir metronun çıxışında 50 manata qədər pul yığa bilirlərsə, deməK, "uğurlu layihə"yə start verib. Şəhərdə metrostansiyalar da çoxdur, insanların gur olduğu başqa yerlər də. Hərəsində yarım saat "işləmək" kifayətdir.

Böyük dələduzların, maxinatorların, korrupsionerlərin tüğyan etdiyi ölkədə bir də bu cür dələduzlar insanları soyur, ən pisi əsl köməyə ehtiyacı olan qürurlu, utancaq adamların haqqına girirlər. Onlar bizim inamımızı sarsıdır, mərhəmət hissimiz öldürürlər. Nəticədə gözəgəlimli qız və şişman qadının evə 300-500 manat arası pul apardığı gecə bir ailə başçısı xroniki kasıbçılıq üzündən intihar edir.



# Açılan ağ badam çiçəkləridi...

**Hüseynbala SƏLİMOV**

**Bilmirəm, insanları ad günlərində, yubileylərində, xüsusən də yuvarlaq yubileylərində anmaq ənənəsini kim qoyub? Elə insanlar var ki, onları anmaq, yada salmaq üçün bir həzin musiqi, bir kövrək şeir də yetərlidir...**

O gün telekanallardan birinə baxırdım. Gördüm ki, musiqi verilişlərinin birində mərhum bəstəkar E.Sabitoğlunun mahnılarını verirlər. Veriliş məni tamam öz aləminə apardı. Elə onda qərara aldım ki, bir yazı yazacam... Bilmirdim ki, bu yazı nə haqda olacaq, nədən bəhs edəcək... Bəlkə də cari siyasi yazılardan biri olacaqdı o... Ona görə ki, bu yeknəsəq günlərdə adam bu ölkənin özündən özünə qaçmaq istəyir...

Qərəz, bilmirdim ki, nə yazacam, necə yazacam! Bircə onu bilirdim ki, həmin yazıda mütləq E.Sabitoğlu anılacaq...

Məndən soruşsaydılar ki, 20-ci əsrin ikinci yarısında yaşayıb yaradan ən böyük Azərbaycan bəstəkarı kim olub, düşünmədən onun adını çəkərdim. Söz mahnı janrından gedirsə, onun, ümumiyyətlə, tayı-bərabəri yoxdur, bu janrda E.Sabitoğlu təkdir, təkrarsızdır...

Bir də Elza İbrahimovanın adını çəkmək lazımdır - bu iki bəstəkar Azərbaycanın ən gözəl mahnılarını yazıblar...

Bəlkə də E.Sabitoğlu heç bir şey yazmasaydı belə, onun bir-iki mahnısı bu bəstəkarın ölməzliyini təmin edərdi...

Və yaxud da ki, onun "Bizim Cəbiş müəllim" filminə yazdığı gözəl bir valsı xatırlayırsınızmı?..

Həqiqətən də gözəl musiqidi və onu heç kimin musiqisi ilə səhv salmaq, qarışdırmaq mümkün deyil... Adam bu musiqini eşidəndə durub bu şəhərin küçələrinin ağını çıxarmaq istəyir, istəyirsən lap elə piyadaca harasa üz tutub gedəsən...

Bir az əvvəldə dedim ki, bilmirdim bu yazı nə haqda olacaq... Bunu ona görə təkrar-təkrar deyirəm ki, özümü bu günlərdə Emin Sabitoğlu haqda məxsusi bir yazı yazmağa hazır görmürdüm...

Sadəcə, mahnılar məni kövrəltdi... Bu mahnılar mənim yadıma bir şəhəri saldı - elə bir şəhəri ki, üzü dənizə dayanıb...

Dənizin şor suyu onun sahillərini yuyur, dənizin küləyi onun üzünə çırpılır... Doğrusu, mən bir şeyi başa düşə və özüm üçün yəqinləşdirə bilmirəm: Emin müəllim bu şəhərin qeyri-adi cazibəsindən necə qopa bildi? Necə bu şəhərdən başqa bir şəhərə köçə bildi?..

Yox, bunu qınaq kimi qəbul etməyin. Sadəcə, E.Sabitoğlunu başqa bir ölkəyə, başqa bir şəhərə, o, hətta doğma ölkə və şəhər olsa belə, qısqanırdıq... O mahnıları ki, E.Sabitoğlu yazırdı, onlar yalnız bu şəhərdə yazıla bilərdi, çünki yalnız bu şəhərdə bir gün taksidən düşüb haraya, hayana getməyi bilməmək və bu şəhərin tanışdan da tanış küçələrində azmaq olardı...

Bəli, sən uzaq yaşıl ada... Deyilənə görə, sovetlərin vaxtında senzorlar deyirmiş ki, "yaşıl uzaq ada" deyəndə haranı nəzərdə tutursunuz? Bəlkə "yaşıl ada" deyəndə elə Türkiyəni nəzərdə tutursunuz?..

Düşünürəm, bəlkə buna görə E.Sabitoğlunun İstanbula köçməsi təbii qarşılanmalıdır? Bəlkə də o, İstanbulda hər gün sahilə gəlir və üzü Bakıya tərəf baxırmış... Kim bilir?..

Doğrusu, mən düşünmürdüm ki, bütün yazı E.Sabitoğlu haqqında olacaq... Amma baxıb gördüm ki, bir xeyli cızma - qara edə bilmişəm. İstədim elə bu yazıda öz siyasi nisgillərimi də yazım...

Amma o biri tərəfdən, siyasəti bu yazıya qatmaq istəmədim. Bilirsiniz niyə? O səbəbdən ki, bizim siyasətdə haram var...

Halallıq olsaydı "Badam çiçəkləri" başlığı altında lap siyasətdən də yazmaq olardı. Amma nə edək ki, halallıq yoxdur... Amma bu ölkənin dənizi var... Hər şeydən bezəndə özünü ən azı bu dənizə ata bilərsən... Bu ölkənin küləyi var və hər şeydən bezəndə üzü küləyə doğru getmək olar...

Bunları yazıram, özümə də qəribə gəlir... Doğrudanmı dəniz yalnız ondan ötrüdür ki, bir gün hər şeydən bezəndə özünü onun ağuşuna təslim edəsən? Ya külək yalnız ondan ötrüdürmü ki, üzünü tutub ona doğru gedəsən? Elə gedəsən ki, qum dənələri ağzına dola, gözlərini yaşarda...

Doğrudanmı, bütün bunlar yalnız bunun üçündür? Amma birdən ağlıma gəldi ki, baxan gözlər o gözlər deyil!..

E.Sabitoğlu bu dənizdə də, bu küləkdə də başqa şey görərdi... Dərd ondadır ki, o gözlər gedir, yalnız siyasət, vay-şivən görən gözlər qalır bu ölkədə...

Onlar isə "ağ badam çiçəklər"ini görə bilmirlər, onlar "uzaq yaşıl adaya" səmt götürə bilmirlər...

**Hakim Yeni Azərbaycan Partiyasının (YAP) formal namizədləri partiyanın rəhbərliyinə ultimatum verməyə hazırlaşırlar. Bu barədə "Azadlıq" qəzeti YAP-dakı mənbənin iddiasına əsasən xəbər yayıb. Xəbərdə deyilir ki, həmin namizədlər parlament seçkilərində alət kimi istifadə olunmalarını istəmirlər.**

# YAP-ın formal namizədləri də mandat davasına çıxır

## Onların dairələrindən kimlərin qalib gələcəyi gözlənilir?




Qeyd edək ki, YAP 117 dairədən namizəd irəli sürüb. Lakin bu namizədlərin ən azı 50-55 nəfəri "qurbanlıq" hesab edilir. Yəni YAP seçkilərdə onlara yox, gizli siyahıda olan namizədlərə dəstək verəcək. Əvvəlki seçkilərdə də belə olub.

Bu dəfə "qurbanlıq namizədlər"in hakim partiyadan açıq dəstək istədikləri, bu istiqamətdə konkret addımlar atılmayacağı halda YAP rəhbərliyinə ultimatum verəcəkləri iddia olunur. YAP-ın formal namizədləri hesab edir ki, hakim partiyanın siyahısından kənar namizədliyini irəli sürənlər barədə tədbir görüləcəksə, o zaman onlara dəstək verməyən yerli icra strukturları barədə tədbir görülməlidir. Formal namizədlər bilir ki, yerli icra strukturları gizli siyahıdakı namizədlərə dəstək verəcək. Ona görə də indidən bu məsələ ilə bağlı şərtlərini irəli sürmək istəyirlər.

YAP-ın rəqibi olan müxalifət partiyalarının namizədləri də seçkiyə qatıldıqları dairələrdə əslində hakimiyyətin kimləri dəstəklədiyi barədə "Yeni Müsavat"ın ötən saylarında açıqlamalar veriblər. Məsələn, 115 saylı Şəki kənd ikinci seçki dairəsindən deputatlığa Müsavat Partiyasının namizədi İkram İsrafil bildirib ki, YAP-ın siyahısında bu dairədən namizədi Qarayev Elçin Müzəkkir oğlu olsa da, böyük ehtimalla bu şəxs formal namizəddir, hakimiyyət dairələri hazırda həmin dairənin deputatı olan "Avromed" dərman şirkətinin rəhbəri Cavanşir Feyziyevi dəstəkləyəcək. 2010-cu il parlament seçkilərində də belə olub.

Hakim Yeni Azərbaycan Partiyasının namizədlər siyahısında digər bir sıra dairələrdə də belə vəziyyətin gözlənildiyi haqda mediada hər gün açıqlamalara rast gəlinir. Məsələn, ehtimal edilir ki, 8 saylı Binəqədi birinci seçki dairəsindən YAP Əlizadə Aysel İsmayıl qızının namizədliyini irəli sürsə də əslində hakimiyyət hazırkı deputat Azay Quliyevi dəstəkləyəcək, 15 saylı Yasamal birinci seçki dairəsindən YAP-ın siyahısında Aslanov Bayram Mirazim oğlu namizəd olsa da iqtidar hazırkı deputat Ülvi Quliyevi müdafiə edəcək, 18 saylı Nərimanov-Nizami seçki dairəsində hakim partiyanın namizədi İsmayılov İsmayıl Mübariz oğlu olsa da hakimiyyət hazırkı deputat Rasim Musabəyovun oradan mandat qazanmasına yaşıl işıq yandıracaq, 20 saylı Nərimanov ikinci seçki dairəsindən YAP-ın namizədi Əsədov İbrahim Namizəd oğludur, bu dairədən hakimiyyətin hazırkı deputat Adil Əliyevin mandatını saxlamasına şərait yaradacaq, 22 saylı Nəsimi ikinci seçki dairəsindən YAP Hacıyev Rahib Səfəralı oğlunun namizədliyini irəli sürüb, əslində isə bu dairədən Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadənin seçilməsi təmin ediləcək, 26 saylı Sabunçu birinci seçki dairəsindən YAP-ın namizədi Qədirov Kamran Dursun oğludur, hakimiyyətin bu dairədən Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafanın yenidən deputat seçilməsinə imkan yaradacaq, 31 saylı Suraxanı ikinci seçki dairəsindən hakim partiyanın namizədi Abidova Zərnişan Heybət qızı olsa da hakimiyyət bu dairənin deputatı Fərəc Quliyevin yenidən deputat olmasını təmin edəcək, 52 saylı Quba seçki dairəsindən YAP Həsənova Afət Əbil qızının namizədliyini irəli sürsə də hakimiyyət hazırkı deputat Vahid Əhmədovun qələbəsini tanıyacaq, 62 saylı Saatlı seçki dairəsindən YAP-ın namizədi Rəşidov Nazim Sahib oğludur, ancaq hakimiyyət bu dairədən Mətbuat Şurasının sədri Əflatun Amaşovun deputat seçilməsinə mane olmayacaq, 72 saylı Yardımlı-Masallı seçki dairəsindən hakim partiyanın namizədi Əliyev Sərvər Məlikməmməd oğludur, lakin əslində Musa Qasımlı dəstəklənəcək, 77 saylı Astara seçki dairəsindən YAP Mahmudov Rəşad Məmmədqulu oğlunu namizəd versə də Elmira Axundova dəstəklənəcək, 85 saylı Şamaxı seçki dairəsindən hakim partiya Eminalıyev Eyvaz Məhəmmədəli oğlunun namizədliyini irəli sürüb, əslində isə hazırkı deputat Elxan Süleymanov dəstəklənəcək, 94 saylı Bərdə kənd seçki dairəsindən Xəlilov Sadiq Vaqif oğlu hakim partiyadan namizəddir, dəstəklənən isə hazırkı deputat Gövhər Baxşəliyeva olacaq, 95 saylı Tərtər seçki dairəsindən siyahıda Mirzəyev Surxay Xasay oğludur, dəstəklənəcək namizəd hazırkı deputat Sahib Alıyevdir, 101 saylı Göygöl-Daşkəsən seçki dairəsindən YAP-ın namizədi Məmmədov İlham Müseyib oğludur, mandatla təmin ediləcək namizəd isə hazırkı deputat Rövşən Rzayevdir, 105 saylı Tovuz seçki dairəsindən YAP Yusifova Rahilə Oruc qızını namizəd versə də hazırkı deputat Qənirə Paşayevanın qələbəsi tanınacaq, 114 saylı Şəki kənd birinci seçki dairəsindən Ağabəyov Xanlar Həsrət oğlu namizəd kimi irəli sürülsə də hakimiyyət hazırkı deputat Əli Məsimlinin mandat əldə etməsinə mane olmayacaq.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 217 (6245) 2 oktyabr 2015




# Halal “Hacı pivəsi”: adı tərkibi ilə uzlaşırmı?

## Eyyub Hüseynov: “İçkinin adı pivədirsə, onda standarta görə, gərək tərkibində mütləq alkoqol olsun”

**Bu söz birləşməsi dilimizdə çoxdan yer tapıb və vəsiqə də qazanıb- “Hacı pivəsi”... Ölkədə dini meyllərin artması ilə bu içki növü də mağazaların piştaxtalarında yer almağa başlayıb. Və təkcə Azərbaycanda yox. Hazırda dünyanın müxtəlif ölkələrində tərkibində alkoqolun dərəcəsi 3, 6, 9 və 12 faiz olan pivələr istehsal olunur. Spirtli içkilərdən imtina edən şəxslər üçün tərkibində alkoqol olmayan xüsusi pivə növü də hazırlanır. Elə sonuncunun adına da el arasında “Hacı pivəsi” deyirlər.**

“Economist” jurnalının hazırladığı bir məqalədə göstərilib ki, Orta Şərqdə alkoqolsuz pivəyə xüsusi diqqət var. 2013-cü ildə 1.1 milyard litr miqdarında pivə istehsal olunub. Bu rəqəm 5 il öncəsi ilə müqayisədə 80 faiz artıb. Rəqəmlərlə daha detallı danışaq: 2012-ci ildə iranlılar 2007-ci illə müqayisədə 4 qat daha çox spirtsiz pivə istehlak ediblər. Səudiyyə Ərəbistanı, Misir və Birləşmiş Ərəb Əmirliklərində də istehlakçıların spirtsiz pivəyə yönəlik damaq zövqü artmaqdadır. Amma sözügedən bölgədə spirtli içki hələ də daha çox satılır.

İran firması “Behnuş”ün istehsal etdiyi Delster pivəsi 1979-cu il İslam inqilabının ardınca spirtsiz versiyada istehsal olundu. Qəzzada Həmasın 2005-ci ildə seçilməsinin ardınca fələstinli bira firması Taybeh də rəngi yaşın olan “halal pivə” istehsal etməyə başladı.

Dubaydan “Euromonitor” araşdırma firması üçün işləyən Maii Abdul-Rahmen isə satışların artmasını istehlakçıların dəyişən arzuları ilə əlaqələndirir. Livanlı spirtsiz pivə istehlakçısı Lazizanın marka yönəticisi Guilda Saberin isə bu məsələdə fərqli yanaşması var. O hesab edir ki, pivə içmək də “Coca Cola” və ya meyvə suyu içmək kimi qlobal yaşam tərzi istəyi ilə bağlıdır.

Amma spirtsiz içki istehsalçılarının miqdarı artdıqca firmalar da fərqli bazar axtarışına çıxırlar. Məsələn, Moussy reklamlarında modaya uymağa çalışan bir qrup kişi və qadın çimərlikdə içərkən göstərilir. Birell isə kişilərə daha çox xas olan bir görüntü tərcih edib: alkoqolsuz pivənin reklamında futbol matçı izləyən bir qrup kişi yanlarından keçən bir qadının arxasınca baxır.

Bəzi pivə istehsalçıları hesab edirlər ki, bölgədə dini meyllərin artması ilə onların məhsullarına da maraq artır. Məsələn, normal halda spirtli pivə istehsal edən “Türk-Efes” 2011-ci ildə “Efes Zeroy”u satışa çıxarıb. Digər firmalarsa narahatdılar ki, istehlakçılar dini inanclarını daha da dərinləşdirəcəkləri halda Qərbdən gələn hər şeyə arxalarını çevirəcəklər.

Dosye xarakterli məlumatlarda isə göstərilib ki, spirtsiz pivə də arpadan alınır. Spirtsiz olduğundan ondan istifadəyə şəriət icazə verir. Dini baxımdan heç bir qadağa yoxdur. Dini ekspertlər hesab edir ki, “Hacı pivəsi”nə görə dindarlara irad tutulması yanlışdır. Tərkibində alkoqol olmayan içkinin istehlakı məqbuldur. Quran və hədislərdə yalnız ağlı başdan aparan, insan iradəsinə təsir edən içkilər, xüsusilə də şərab isə haram sayılır. Bundan başqa, Səudiyyə Ərəbistan və misirli din adamları müsəlmanların alkoqolsuz pivə içməsinin caiz olması ilə bağlı fətvalar yayımlayır.

### Hacı Şahin Həsənli: “Bilmirəm, nəyə görə ona ”Hacı pivəsi" deyilir..."

****

**“Məşədi Dadaş” məscidinin imam camaatı, “Mənəvi dünya” İctimai Birliyinin sədri, ilahiyyatçı Hacı Şahin Həsənli aktual.az-a bildirib ki, bu içki bir çox müsəlman ölkələrində istehsal olunur və istifadə edilir:** “Pivənin tərkibi arpa suyudur, spirti yoxdursa, şəriət alimləri onun içilməsini qadağan etmir. Bu cür pivə bir çox müsəlman ölkələrində istehsal olunur. Ancaq bilmirəm, nəyə görə ona ”Hacı pivəsi" deyirlər. Şəriətin göstərişinə görə, içkidə alkoqol yoxdursa, istifadə etmək olar".

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Fazil Talıblının sözlərinə görə, bu pivələrdə alkoqol “0" faizdir:** ”O sahədə vəziyyət problemsizdir. Nəzarət tədbirləri aparılıb və heç bir problem yoxdur. Həqiqətən də normativ sənədlər var və müvafiq sənədlərlə təmin olunub. Pivənin keyfiyyəti standarta uyğundur. O məhsulların keyfiyyətini təsdiq edən sənədlər varsa, təbii ki, onu qəbul etmək olar".

Amma dünyada bu “halal içki” söhbətinin şitini çıxaranlar da var. Belə ki, xüsusən Avstraliyada yaşayan müsəlman kəsimi hədəf seçən bəzi firmalar “halal şampan” istehsal edirlər. Onlardan biri internet səhifəsində “Çox özəl, spirtsiz içki, əvəzsiz dadı və halal standartlarına görə istehsal edilib. Qızılı-sarı rəngi və ən keyfiyyətli üzüm dadı ilə həyatınıza yeni bir dad gəlsin” şüarı ilə bazara çıxarılıb. Amma firmanın bu həmləsi Avstralidakı müsəlman toplumu içində “spirtsiz olsa da, bir içki halal ola bilərmi” dartışmasını gündəmə gətirdi. Məhsul üçün Almaniyada halal məhsul sertifikatı alınması isə dartışmanı alovlandırdı.

Firma təmsilçiləri isə bildiriblər ki, tərkibində spirt olmayan məhsullar bir qayda olaraq halal sayılır. Onlar bununla bağlı Almaniyadakı “Islamisches Zentrum Hamburg e.V” adlı dərnəkdən sertifikat da alıblar.

**Azad İstehlakçı Hüquqları Birliyinin sədri Eyyub Hüseynov isə mediaya açıqlamasında bildirib ki, hazırda yalnız Azərbaycanda deyil, bütün dünyada halal məhsullarla bağlı istehlakçıların aldanması prosesi gedir:** “Ən qatı xristian ölkələrində, Cənubi Afrikanın xristian hissəsində, hətta Ermənistanda da halal mal nişanı ilə məhsul satılır. Azərbaycanda ”Halal" mal nişanı ilə 20-yə yaxın mallar var. Bu bazarın belə geniş spektrdə olması və izlənmə prosesinin olmaması dindar istehlakçıların aldadılması ilə nəticələnir".

**E.Hüseynov deyir ki, dövlət orqanının funksiyasını mənimsəyən dini qurumun belə standart verməsi qeyri-qanunidir:** “Düzdür, yəhudilərdə belə bir təcrübə var. Amma orada ravvinlər gecə-gündüz istehsal prosesini izləyirlər. Tarladan istehlakçının stolunun üstünə qədər izləyirlər. Bizdə belə bir izlənmə sistemi yoxdursa, bir kağız parçası verməklə istehlakçını aldatmaq düzgün deyil”.

**E.Hüseynov hesab edir ki, halal standartını HASSP sisteminin üzərində qurmaq olar. Bu, malın ekoloji təmizliyini izləyən bir sistemdir:** “Əgər bura halal izləmə sistemi də əlavə olunsa, onda natural halal məhsul bazara çıxarmaq mümkün ola bilər”. Məkkədə, İranda arpa suyundan alkoqolsuz içki hazırlanır və müsəlmanlar bunu içir. Amma bunu “pivə” adlandırmırlar.

**Eyyub Hüseynov deyir ki, içkinin adı pivədirsə, onda standarta görə, gərək onun tərkibində alkoqol olsun:** “İstənilən kataloqda baxsanız, görəcəksiniz ki, pivənin tərkibində alkoqol olmalıdır. İçkinin üzərinə ”Hacı pivəsi" yazmaq dini inanca, etikaya sığmayan bir məsələdir".

AİB sədri deyir ki, halal adı altında haram mal aldığını sübut etmək və məhkəməyə müraciət etmək istəyən şəxslər onların yardımından istifadə edə bilər. Amma hələlik sırf bu məsələ ilə bağlı məhkəməyə müraciət edən olmayıb.

❑ **Sevinc TELMANQIZI**

# “Payız depressiyası” və infeksion xəstəliklər artır

## Depressiyadan və soyuqdəymədən necə qorunmalı?



**Payız fəsli gələr-gəlməz infeksion xəstəliklər də baş qaldırıb. Təsadüfi deyil ki, payızı “xəstəliklər fəsli” də adlandırırlar. Həm psixoloji, həm də fizioloji baxımdan təzadlı fəsil olan payızda insan orqanizmində bir sıra dəyişikliklər baş verir. İnfeksion xəstəliklərə tez tutulma daha çox immuniteti zəif olan insanlarda baş verir.**

Tibb **elmləri doktoru, professor Adil Qeybulla** payız fəslində infeksion xəstəliklərdən qorunmaq üçün insanların geyimlərinə və qidalarına diqqət etmələrinin vacib olduğunu dedi: “Payız və yaz vaxtı bəzi xəstəliklər kəskinləşir. Məsələn, mədə və on iki barmaq bağırsağın xəstəlikləri bu vaxtlarda kəskinləşir. Payızda daha çox rast gəlinən soyuqdəymədir. Havanın gah isti, gah da soyuq olmasından asılı olaraq insanlar geyimlərini düzgün seçə bilmirlər. Buna görə də soyuqlama əmələ gəlir. Bu soyuqlama əslində yuxarı tənəffüs yollarında fəallıq göstərən onlarla infeksiyaların fəallaşması nəticəsində əmələ gəlir. Beləcə, insanlarda qripə bənzər əlamətlər, öskürək, burun axması, zökəm və sairə müşahidə olunur. İnsanlar çalışmalıdırlar ki, bu cür xəstəliklərdən mümkün qədər qorunmaq üçün gündəlik geyimlərinə, hava proqnozuna diqqət etsinlər, idmanla məşğul olsunlar, vitaminli qidalar qəbul etsinlər. İmmuniteti mümkün qədər gücləndirən meyvələrə üstünlük versinlər”.

Qeyd edək ki, payızın gəlişi ilə əlaqədar insanların psixologiyasında da müəyyən problemlər yaranır. Hətta insanlar bu fəsildə özlərinə qapanırlar. Bunu da “payız depressiyası” adlandırırlar.

Bəs “payız depressiyası” nədir və ondan necə qurtulmaq olar?

Bir qrup alim hesab edir ki, “payız depressiyası” işığın azalması ilə “bioloji saatların” pozulması nəticəsində baş verir. Depressiyadan əziyyət çəkən insanlarda minimum bədən temperaturu səhər saat 06:00-da müşahidə olunur, normada isə bu, gecə saat 03:00-da olmalıdır. Buna görə də onlar səhərlər çətin oyanır, gecələr isə pis yatırlar. Bu insanlar 06:00-08:00 arası parlaq işıq terapiyası aldıqda nəinki onların əhvalı düzəlir, həm də bədən temperaturunun minimumu daha erkən vaxta keçir. Başqa bir yanaşmaya görə isə orqanizmdə melatonin hormonunun artması “payız depressiyası”na səbəb olur. Fizioloji səbəblərdən başqa “payız depressiyası”nın psixoloji səbəbi də var. Payız ilin sonudur. Hər bir insan keçmiş ilin hadisələrinə nəzər salır. Heç də həmişə bütün insanların arzuları, istəkləri reallaşmır. Bu natamamlıq, şəxsiyyət kimi özünü reallaşdıra bilməmək insanda özünəinamsızlıq, əhvalsızlıq yaradır. Bütün bunlardan əlavə isə xroniki stresslər, ətrafdakılar tərəfindən insana qarşı irəli sürülən yüksək tələblər, iş və istirahət rejiminin pozulması, natamam yuxu da depressiyaya səbəb olur. Mövsümi depressiyanın əsas əlamətləri isə aşağıdakılardır:

Yuxu müddətinin artması, oyanmaqda çətinlik, səhərlər yorğunluq hissi, gün boyu yuxulu olmaq. Bəzən erkən oyanmaq və yenidən yuxuya gedə bilməmək müşahidə olunur. Əhvalın, özünüqiymətləndirmənin aşağı düşməsi, kədər, ağlamağa meyllilik, narahatlıq, həyata marağın azalması, müsbət emosiyaların itirilməsi, gündəlik işlərin icrasında çətinlik çəkmə, həyəcanlılıq, əsəbilik, tez özündən çıxma, daxili gərginlik, stressli situasiyalara dözümsüzlük, iştahanın artması, çəkinin artmasına səbəb olan un məmulatları və şirniyyata kəskin meyldir. Fiziki əlamətlər isə oynaqlarda və qarında ağrılar, gücsüzlük, tez-tez qrip olma, sosial problemlər, sosial əlaqələrdən, yaxınlarla və dostlarla ünsiyyətdən qaçmaq.

Qeyd edək ki, mövsümi depressiyalara istənilən yaşda rast gəlinir. Lakin 18-30 yaş arası insanlar bu depressiyaya daha çox meyllidir.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 217(6245) 2 oktyabr 2015




# Qədir-Xum gününün mesajları

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Hicrətin 10-cu ilində Peyğəmbərimiz (s) sonuncu Həcc ziyarətindən - "Həccül-vida"dan qayıdarkən, Zucan adlı yerə yetişdikdə, ona yeni bir vəhy nazil oldu. Allah Təala Peyğəmbərə (s) buyururdu: "Ey Rəsul! Sənə nazil olanları insanlara çatdır, əgər bu işi görməsən, öz risalətini (peyğəmbərlik missiyasını) tamamlamamış olursan...». ("Maidə" surəsi, 67)**

Bundan sonra Peyğəmbərimiz (s) Cühfə adlı yerdə yolayrıcına çatanda, dayanmaq barədə göstəriş verdi. Bu məkana Qədir-Xum deyirdilər. Sonra yüz mindən artıq zəvvarın qarşısında, dəvə palanlarından düzəldilmiş minbərin üstünə çıxaraq, müsəlmanlara dedi: "Ey insanlar! Mən tezliklə sizin aranızdan gedəcəyəm, mənim öhdəmdə də məsuliyyət var, sizin öhdənizdə də. Siz mənə necə şəhadət verirsiniz?» İnsanlar uca səslə dedilər: "Biz şəhadət veririk ki, sən peyğəmbərlik vəzifəni yerinə yetirmisən, xeyirxahlıq şərtlərinə əsaslanaraq, bizim hidayət olmağımız üçün son dərəcə əzmlə çalışmısan, Allah bunun əvəzində sənə savab mükafatı versin!» Sonra **Peyğəmbərimiz (s) buyurdu:** "Siz Allahın birliyinə, mənim peyğəmbərliyimə, Qiyamət gününün haqq olmasına və həmin gün ölənlərin imtahan vermək üçün yenidən dirilməsinə inanırsınızmı?» Hamı cavabında dedi: "Bəli, inanırıq!» Rəsuli-Əkrəm (s) dedi: "İlahi, şahid ol!» Sonra o, Həzrət Əlinin (ə) əlindən tutub qaldırdı ki, hamı onu görsün, orada olanlar hamısı onu tanısın. Həzrət Peyğəmbər (s) buyurdu: "Möminlərin özlərinə nisbətdə ən üstün olan şəxs kimdir?» - müsəlmanlar cavab verdi: "Allah və Onun peyğəmbəri daha yaxşı bilir!» Həzrət Peyğəmbər (s) buyurdu: "Allah Təbarəkə və Təala - mənim mövlam və rəhbərimdir, mən isə iman gətirənlərin rəhbəriyəm və onların işlərində özlərindən daha məsuliyyətliyəm!» **Sonra buyurdu:** "Mən hər kimin rəhbəriyəmsə, bu Əli (ə) onun rəhbəridir». Bu sözləri dörd dəfə təkrar etdi və sonra dua etdi: "İlahi! Əli (ə) ilə dostluq edənlərlə dostluq et, düşmənləri ilə düşmən ol. Onu sevənləri sev, ona qarşı qəzəbli olanlara Sən də qəzəbli ol. Ona kömək edənlərə kömək et, ona kömək etməkdən boyun qaçıranlara kömək etmə. Onu haqdan ayırma və haqqı həmişə onunla birlikdə et!» **Sonra əlavə etdi:** "Burada hazır olanların vəzifəsi, bu xəbəri burada olmayanlara çatdırmaqdır».

Həzrət Peyğəmbərin (s) xütbəsi sona çatandan sonra camaat dağılmamış, Qurani-Kərimin müvafiq ayəsi nazil oldu: "...Bu gün Mən sizin üçün dinimi kamil, höccətimi isə tamam etdim. Sizin üçün din olaraq İslamı bəyəndim...» ("Maidə» surəsi, 3)

**Bundan sonra Həzrət Peyğəmbər (s) buyurdu:** "Allah böyükdür, Allah bizim üçün Öz dinini təkmilləşdirdi və nemətlərini bizim üçün tamam etdi. Mənim peyğəmbərliyimi və Əlinin (ə) məndən sonra canişinim olmasını bəyəndi».

Bu zaman sevinc səsləri ucaldı. Bütün səhabələr Həzrət Əliyə (ə) yaxınlaşaraq, dedilər: "Ya Əli, sən bizim və bütün iman gətirənlərin rəhbəri oldun! Səni təbrik edirik!»

Nazil olunan ayədən görünür ki, Həzrət Peyğəmbərin (s) ömrünün sonunda mühüm bir məsələ qalmışdı ki, o məsələ həll olunmasa idi, risalət tamamlanmayırdı. Həzrət Peyğəmbərin (s) 23 illik zəhməti ilə bərabər olan və müsəlmanların bilməsi zəruri olan bu məsələ, onların bildikləri mətləbləri təkrarlamaq deyil, Peyğəmbərdən (s) sonra öz müqəddəratlarının kimə tapşırılması məsələsi idi. Təbii ki, bu məsuliyyət də insanların ən fəzilətlisinə və ən üstününə tapşırılmalı idi ki, belə bir şərəfli işin öhdəsindən gələ bilsin.

## Qədir-Xum bayramı Həzrət Fatimənin (s.ə) mübarək dilindən

**Bir gün Həzrəti Fatimə (s.ə) şəhid Həmzənin (ə) qəbri üstündə dayanmışdı və əzadarlıq edirdi. Məhmud ibni Ləbid bu fürsəti qənimət bilib, Xanımdan (s.ə) soruşur:** "Ey Allahın Peyğəmbərinin (s) qızı, Əli ibn Əbutalibin (ə) imamətinə aid Peyğəmbərdən (s) eşitdiklərin yadındadırmı?" **Xanım (s.ə) buyurur:** "Çox qəribədir! Böyük Qədir-Xum bayramını unutmusan? Allahı şahid tuturam ki, özüm eşitmişəm, o böyük insan buyurub: "Əli (ə) - sizin aranızda qərar verdiyim ən yaxşı canişindir. Əli (ə) - İmam və məndən sonra xəlifədir. İki övladı Həsən (ə) və Hüseyn (ə) və Hüseyndən (ə) olacaq doqquz övladı - pak İmamlardırlar. Əgər onlara itaət etsəniz, sizi hidayət edəcəklər. Əgər onlarla müxalifətlik etsəniz, Qiyamət gününə qədər sizin aranızda təfriqə hakim olacaqdır"".

## Qədir-Xum bayramı İmam Əlinin (ə) mübarək dilindən

**Səlim ibni Qeys Həlali nəql edir:** "Osmanın xəlifə olduğu dövrdə "Nəbi (s) məscidi"ndə əyləşmişdim. Məsciddə bir toplum söhbət edirdi. Əli ibn Əbutalib (ə) ayağa qalxdı və İslam dininə etdiyi keçmiş xidmətlərini yada saldı və hamı da onu təsdiqlədi. O, Qədir-Xum haqqında belə buyurdu: "İnsanlar Peyğəmbərdən (s) vilayət haqqında soruşdular. Bu zaman Allah Peyğəmbərə (s) əmr etdi ki, özündən sonrakı xəlifəni və canişini elan etsin. Necə ki, namaz, oruc, zəkat... haqqındakı xırdalıqları bəyan edirdi. Peyğəmbər (s) Qədir-Xumda məni belə tanıtdı: "Ey insanlar! Bilirsinizmi ki, Allah mənim Vəlim və Rəhbərimdir? Mən də siz möminlərin vəlisi və rəhbəriyəm? Mən sizin canlarınıza sizdən də layiqliyəm". Hamı cavab verdi: "Belədir, ey Allahın Peyğəmbəri!" Buyurdu: "Əli (ə), ayağa qalx!" Mən ayağa qalxdım və bu zaman buyurdu: "O kəsin ki, vəlisi və rəhbəri mənəm, Əli ibn Əbutalibin (ə) onun üzərində vilayəti vardır. Allahım, hər kim Əlini (ə) sevər, Sən də onu sev. Hər kim Əlini (ə) düşmən bilər, Sən də onu düşmən bil"".

## İmam Əlinin (ə) Qədir-Xum xütbəsi

**Əli ibn Əbutalibin (ə) zahiri xilafəti dövrü Qədir-Xum bayramına təsadüf etmişdi. Cümə günü idi və o Həzrət (ə) insanların qarşısında xütbə dedi. Hüseyn ibn Əli (ə) nəql edir:** "O, əvvəl Haqq Təalaya həmd deyir. Rübubi sifətlərini sayır. Hakimiyyəti Ondan bilir. Nemətlərini diqqət mərkəzinə gətirir və insanlara xitab edərək buyurur: "Allah Təala bu gün iki bayramı bir zamanda sizin üçün qərar vermişdir. Bu iki bayramın hər birinin fəlsəfəsi o birisinə təkamül bəxş edir. Hər birinin vasitəsilə o birisinə hidayət təsir qoyur. Allahın yeganəliyində tövhid və imana etiraf, Peyğəmbərin (s) nübuvvəti olmadan qəbul olmaz. Peyğəmbərin (s) dini və şəriəti isə Allahın vilayət üçün əmr etdiyi kəsin vilayətini qəbul etmədən qəbul olmaz. Bütün bu işlər vilayət əhlinə təvəssül etmədən sahmana düşməz. Allah Qədir-Xum günündə seçilmişləri üçün iradə etdiyini Peyğəmbərə (s) nazil etdi. Ona əmr etdi ki, vilayət və vəsiliyi elan etsin. Kafirlərdən və münafiqlərdən bu fürsəti alsın.

Qədir-Xum gününün məqamı böyükdür. O gündə hüccəti hamıya tamam oldu. Bu gün təkamül günü və əhdə vəfa günüdür. Bu gün küfr və nifaq müqavilələrinin üzərindən pərdələrin götürülməsi günüdür. İslamın əsl həqiqətinin aşkar olduğu gündür. Şeytanın xarlıq və zillət günüdür. Bürhan və dəlil günüdür. Allah bəndələrinin imtahan günüdür. Qəlblərdə gizlənən kinin aşkar olduğu gündür.

Allahın rəhməti olsun sizə, ey müsəlmanlar! Bu cəmdən ayrılandan sonra bayram keçirin. Ev əhlinə və qohumlarınıza neməti genişləndirin, yaxşılıq edin! Din qardaşlarınıza gücünüz çatdığı qədər yaxşılıq edin. Allahın sizə verdiyi nemətlərə görə şükür edin. Bir-birinizin yanında toplaşın ki, Allah da sizin toplumunuzu daha da genişləndirsin. Bir-birinizə yaxşılıq edin ki, Allah da sizə daha çox ülfət və mehribanlıq etsin. Bir-birinizi təbrik edin. Gülərüzlə bir-birinizi qucaqlayın. Sizdən kömək gözləyən ehtiyaclı insanların ziyarətinə gedin və onlarla bir yerdə yemək yeyin. Qədir-Xum günü yoxsula verilən bir dirhəm, 200 min dirhəmə bərabərdir. Bir-birinizlə görüşən zaman əl verin və bir-birinizi təbrik edin. Salam verin ki, Peyğəmbər (s) mənə belə əmr etmişdir".

## Qədir-Xum bayramının əməlləri

Qədir-Xum bayramı qəməri təqvimi ilə zilhiccə ayının 18-nə təsadüf edir. Bu günün müəyyən bəyənilən əməlləri var. Həmin günə aid əməllər:

**1.** Bayram gününün qüslünü almaq;

**2.** Oruc tutmaq *(bu günün orucu 60 ilin günahının kəffarəsinə bərabərdir; bəzi hədislərə görə, bu gün oruc tutan şəxsin savabı, ömür boyu tutulan orucun savabına, və həmçinin 100 həcc və 100 ümrə ziyarətinə bərabərdir);*

**3.** Həzrət Əlini (ə) ziyarət etmək üçün məşhur olan "Əmin Allah" ziyarətnaməsini oxumaq;

**4.** Zöhrdən qabaq 2 rükətli namaz qılmaq. Yaxşıdır ki, birincü rükətdə "Həmd"dən sonra "Qədr" surəsi, ikinci rükətdə "Həmd"dən sonra "İxlas" surəsi oxunsun. Yaxşıdır ki, bu namaz günorta azanına yaxın vaxtda qılınsın.

Namazı qurtardıqdan sonra səcdəyə getmək və səcdədə 100 dəfə Allaha şükür etmək. Sonra bu duanı oxumaq: ("Məfatihül-cinan" kitabının tərcüməsinin 569-cu səhifəsindəki dua). Duanı bitirəndən sonra yenə səcdəyə getmək və 100 dəfə "Əlhəmdulilləh" və 100 dəfə də "Şükran lilləh" demək lazımdır.

Hər kim bu əməli yerinə yetirərsə, sanki Qədir-Xum günündə Peyğəmbərin (s) yanında olmuş və o kəsin savabını qazanmışdır ki, Həzrətə vilayət beyəti etmişdir.

**5.** İki rükətli namaz qılmaq. Hər rükətdə "Həmd"dən sonra 10 dəfə "İxlas" surəsi, 10 dəfə "Ayətül-kürsi", 10 dəfə "Qədr" surəsini oxumaq, namazdan sonra bu duanı demək: "Rabbənə innənə səmi'nə munadiən əd-dua bitəvlihi". Hədislərdə qeyd olunur ki, bu namazın 100 min həcc və 100 min ümrə savabı var, eləcə də, dünya və axirət hacətlərinin Allah tərəfindən asanlıqla qəbul edilməsinə səbəb olur və insana salamatlıq nəsib olur;

**6**. "Nüdbə" duasını oxumaq.

**7.** Möminlər bir-biri ilə görüşən zaman desinlər: "Əlhəmdu lillahil-ləzi cəələna minəl mutəməssikin, bivilayəti Əmiril-mu'mininə vəl əimməti ələyhimus səlam".

**Sonra de:** "Əlhəmdulilləhil-ləzi əkrəmənə bihəzəl-yəvm, və cəələnə minəl-mufinə biəhdihi iləynə, və misəqihilləzi vəsəqanə bihi min viləyəti vuləti əmrih, vəl-quvvəmi biqistih, və ləm yəc'əlnə minəl-cəhidin, vəl-mukəzzibinə biyəvmid-din". *("Məfatihül-cinan" kitabının tərcüməsinin 575-ci səhifəsində verilib).*

**8.** Bu zikri 100 dəfə demək: "Əlhəmdulilləhil-ləzi cə'ələ kəmələ dinihi və təməmə ni'mətih, biviləyəti Əmiril-mu'mininə Əliyyibni Əbi Talibin ələyhis-sələm". *("Məfatihül-cinan" kitabının tərcüməsinin 576-cı səhifəsində verilib).*

**9.** Qardaşlıq peymanı bağlamaq. Öz sağ əlini mömin qardaşının sağ əlinin üstünə qoyub belə desin: "Vəxaytukə filləhi və safəytukə filləh, və safəhtukə filləhi və 'ahədtullahə və mələikətəh, və kutubəhu və rusuləhu və ənbiyaəh, vəl-əimmətəl-mə'suminə ələyhimus-sələm, 'alə ənni in kuntu min əhlil-cənnəti vəş-şəfə'əh, və uzinə li biən ədxuləl-cənnəh, lədxuluhə ilə və əntə məi". Bunu dedikdən sonra mömin qardaşın desin: "Qabiltu". Sonra desin:"Əsqəttu ənkə cəmi'ə huquqil-uxuvvəh, mə xaləş-şəfə'ətə vəd-du'aə vəz-ziyərəh". ("Məfatihül-cinan" kitabının tərcüməsinin 577-ci səhifəsində verilib).

**10.** Sileyi-rəhm etmək - qohum-əqrəbaya baş çəkmək;

**11.** Yeni libas geyinmək;

**12.** Möminlərlə bu günün yad edilməsi ilə bağlı yığışmaq;

**13.** Məsumlara (ə) salavat göndərmək.

Bu günlə bağlı digər əməllər də var ki, müfəssəl kitablarda göstərilmişdir.

Qeyd edək ki, zülhiccə ayının 18-nə keçən gecə xüsusi namazın qılınması tövsiyə edilir. Bu namaz 12 rükətdən ibarətdir. Bütün 12 rükət namazın hamısı dalbadal qılınır və sonda bir salam deyilir. Namazdan sonra insan dua edərək Allahdan hacətlərini istəyir.

**Bəli, Qədir-Xum - dinin kamilləşmə bayramı, mübarək dinimizin Allah Təala tərəfindən bəyənildiyi bir tarixdir.**

**Allahım! Bizləri Qədir-Xumu dərk edənlərdən və yaşadanlardan qərar ver! Amin!**

YENİ MÜSAVAT
N 217 (6245) 2 oktyabr 2015

# Daşınmaz əmlakın qeydiyyatında "bir pəncərə"nin tətbiqinə başlandı

**Artıq bələdiyyələr, vətəndaşlar, fiziki və hüquqi şəxslər onlara məxsus daşınmaz əmlakı və torpaq sahələrini yalnız bir ünvanda qeydiyyata aldıra bilirlər. Daşınmaz əmlakların və torpaqların qeydiyyatında "bir pəncərə" prinsipinin tətbiqinə başlanılıb.**

"Yeni Müsavat" Əmlak Məsələləri Dövlət Komitəsinə istinadən bildirir ki, fəaliyyət istiqamətləri üzrə sosial amillərin, vətəndaş məmnunluğunun, habelə xidmətlərdə əlçatanlığın daha da artırılması məqsədilə daşınmaz əmlakların, o cümlədən torpaq sahələrinin qeydiyyatı, daşınmaz əmlakın texniki inventarlaşdırılması və texniki sənədlərin tərtibində "bir pəncərə" prinsipinin tətbiqinə başlanıb.

Artıq bələdiyyələr, vətəndaşlar, fiziki və hüquqi şəxslər onlara məxsus daşınmaz əmlakı və torpaq sahələrini yalnız bir ünvanda - komitənin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələrində qeydiyyata aldıra bilirlər. Bununla da torpaqların ilkin qeydiyyatı zamanı bir neçə ünvana müraciət etmək, uzun vaxt sərf etmək zərurəti aradan qalxıb.

"Bir pəncərə" prinsipinin tətbiqi ilə bütün sənədləşdirmə prosesi, kadastr məsələləri, çöl-ölçmə işləri, texniki inventarlaşdırma, elektron və faktiki məlumatların dəqiqləşdirilməsi, torpaqların təyinatından irəli gələn tələblərə riayət olunması ilə bağlı məsələlər bir ünvanda həll olunur. Bu isə daşınmaz əmlakın qeydiyyatında şəffaflıq, operativlik və rahatlığın əhəmiyyətli dərəcədə artmasına, qeydiyyatın sürətlənməsinə şərait yaradıb.

Vahid mərkəzdən idarəçilik sisteminin tətbiqi ilk növbədə əmlak münasibətlərinin inkişafının sürətləndirilməsini və mülkiyyət məsələlərində vətəndaş amilinin gücləndirilməsini təmin etməkdədir.

Qeyd edək ki, vətəndaş komitənin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarəsinə müraciət etdikdən sonra əvvəlki prosedura əsasən tələb olunan əlavə heç bir sənədləşdirmə işi ilə məşğul olmur və buna vaxt sərf etmir. Yalnız müəyyən olunmuş vaxtda ərazi idarəsinə gələrək dövlət reyestrindən çıxarışını götürür.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti isə vətəndaşın iştirakı olmadan elektron qaydada fəaliyyətini komitənin Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidməti ilə əlaqələndirməklə sənədləşdirmə işini həyata keçirir. Torpaq sahələrinin plan və ölçüsünün tərtibi, texniki inventarlaşdırma və digər texniki sənədlərin hazırlanması təmin olunur.



Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidməti kadastr işlərinin əlaqələndirilməsini və bu sahədə işlərin qaydalara uyğun aparılmasına nəzarəti, zəruri xəritə materiallarının hazırlanmasını təmin edir.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti daşınmaz əmlakın texniki inventarlaşdırılması, torpaq sahələrinin plan və ölçülərinin hazırlanması ilə bağlı sənədlərin və məlumatların dəqiq və aydın şəkildə daşınmaz əmlakın vahid dövlət kadastrına daxil edilməsi üçün zəruri tədbirləri həyata keçirir.

Eyni zamanda əsassız olaraq bələdiyyələrə, fiziki və hüquqi şəxslərə verilmiş, habelə mühafizə zolaqlarında inşa edilmiş daşınmaz əmlakın qeydiyyatına yol verilməməsini nəzarətdə saxlayır. Bununla bağlı mütəmadi araşdırmalar aparır və nəticələrə əsasən müvafiq tədbirlər görür. Torpaqlardan istifadə və onların mühafizəsi sahəsində inzibati xətalara yol verilməsi halları aşkar edildikdə zəruri məlumatları Torpaqların Dövlət İdarəetməsinin Təşkili üzrə Dövlət Agentliyinə təqdim edir.

Komitənin yeni Əsasnaməsinə uyğun olaraq Torpaqların Dövlət İdarəetməsinin Təşkili üzrə Dövlət Agentliyinin bir sıra vəzifələri müəyyən olunub. Agentlik dövlət torpaqlarının icarəyə və istifadəyə verilməsinə dair rəyin verilməsini, torpaqların kateqoriyalara aid edilməsi barədə tədbirləri Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidməti ilə əlaqələndirilməklə həyata keçirir.

Xatırladaq ki, komitə tərəfindən artıq torpaq müsabiqələrinin və hərraclarının keçirilməsinə başlanılıb. Bununla bağlı komitənin rəsmi internet səhifəsində müvafiq elanlar verilib. Elanlarda iştirak qaydaları və digər zəruri prosedurlar göstərilib.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

## Elan

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**


# Müstəqil sınaqlar «Bakcell» şəbəkəsinin üstünlüyünü təsdiq edir

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti abunəçilərinə ən yüksək keyfiyyətli mobil rabitə xidmətlərini təqdim etmək məqsədilə şəbəkəsini genişləndirməyə davam edir. Ölkədə ən üstün şəbəkəyə malik olan «Bakcell» şirkətinin baza stansiyalarının sayı sürətlə artmaqdadır. Son bir aya yaxın müddət ərzində şirkət ölkə ərazisində ən müasir və innovativ texnologiyaları tətbiq etməklə 50-dən artıq yeni baza stansiyası quraşdırmağa nail olub. Hazırda «Bakcell»in sahib olduğu stansiyaların sayı aşağıdakı cədvəldə göstərilib:**

| Şəbəkə | Baza stansiyalarının sayı |
|---|---|
| 2G | 2961 |
| 3G | 2018 |
| 4G | 373 |

**Baza stansiyalarının sayındakı artım öz növbəsində şəbəkənin əhatə dairəsini, həcmini və keyfiyyətini artıraraq daha yüksək keyfiyyətli mobil rabitə və internet xidmətini təmin etməyə şərait yaradıb.**

**Bununla yanaşı, 2015-ci ildə Azərbaycan Respublikası ərazisində müstəqil şəkildə aparılan müxtəlif sınaq testlərinin nəticələrinə əsasən, «Bakcell» şirkəti bazarda şəbəkənin keyfiyyəti və yüksək texnologiyaların tətbiqi sahəsindəki üstünlüyünü qoruyub saxlayır. 2015-ci ilin ikinci rübündə aparılan mobil şəbəkələrin müstəqil keyfiyyət monitorinqlərinin nəticələrinə görə, «Bakcell» yüksək keyfiyyətli səs rabitəsi, sabit internet əlaqəsi və yüksək sürətli LTE şəbəkəsində ən yaxşı göstəricilərə sahib olmaqla rəqiblərini üstələyib. 3G şəbəkəsində 42 Mbit/s qədər sürətə nail olmaqla şirkət DC-HSPA and HSPA+ texnologiyalarında ən yüksək penetrasiya göstəriciləri nümayiş etdirir.**

**"Müstəqil sınaq testlərində yüksək nəticə göstərməyimiz və mobil rabitə istifadəçilərinin rəqiblərimizin xidmətindən imtina edərək bizim şəbəkəmizə qoşulması «Bakcell»in təklif etdiyi yüksək keyfiyyətlə sərfəli qiymət arasındakı balansın nəticəsidir. Biz yüksək qiymət müqabilində keyfiyyətsiz mobil rabitə xidməti təklif edən operatorlardan fərqli olaraq, hər zaman daha sərfəli qiymətlərlə ən üstün mobil rabitə xidməti təqdim edirik və göstərdiyimiz xidməti daha da təkmilləşdirmək üçün ən üstün şəbəkə qurmağa davam edirik",-deyə «Bakcell» şirkətinin baş icraçı direktoru Riçard Şirer bildirib.**

**«Bakcell» şirkətinin xüsusilə smartfon istifadəçiləri üçün nəzərdə tutulmuş aparıcı 4G şəbəkəsinə qoşulan abunəçilərinin, o cümlədən rouminq istifadəçilərinin sayı günbəgün artmaqdadır. «Bakcell» ölkə daxilində və ölkə xaricində 4G rouminq xidmətləri göstərən yeganə mobil operatordur.**

**Müştəri təcrübəsi «Bakcell» üçün ən önəmli meyarlardandır, buna görə də «Bakcell» şəbəkənin inkişaf etdirilməsinə və şəbəkənin məhsuldarlığının yüksəldilməsinə daim investisiyalar yatırır. Növbəti 6 ay ərzində «Bakcell» şirkəti 4G baza stansiyalarının sayını 1000-ə çatdırmağı planlaşdırır.**

# Bakıda dəhşət: qadın tanışı ilə ərini öldürüb, doğradı



**Bakının Yasamal rayonunda qətl hadisəsi baş verib. Yasamal Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, bir müddət əvvəl Kamran Mahmudov adlı şəxs itkin düşüb. Onunla bağlı araşdırma aparılan zaman K. Mahmudovun həyat yoldaşı Lalə Mahmudova və onun Sədi adlı tanışı tərəfindən öldürüldüyü məlum olub.**

Həmin şəxslər meyiti hissələrə bölərək İsmayıllı rayonunda meşədə basdırıblar.

Onlar saxlanılaraq istintaq orqanına təhvil veriliblər.

Faktla bağlı cinayət işi başlanılıb, araşdırma aparılır.

YENİ MÜSAVAT

Son səhifə

N 217 (6245) 2 oktyabr 2015

# Ən sürətli elektriklə işləyən maşın



Tesla şirkəti gözlənilən yeni elektrikli maşın modeli olan "Model X"ı Kaliforniyada ictimaiyyətə tanıdıb. Maşın 3 saniyəyə 100 kilometr-saat sürət yığa bilir. Bir dəfə elektrik enerjisi yığdıqdan sonra 400 kilometr yol gedir. Satışa çıxmadan əvvəl bu modeldən internet və mağazalardan 25 min ədəd sifariş edilib. Maşının tələbləri 8-12 ay arasında yerinə yetiriləcək. Saatda 250 kilometr surətlə hərəkət edən maşının daha əvvəl iki modeli istehsal edilib. "Model S" və "Roadster" markalı maşının sahibləri də yeni maşını görməyə gediblər. "Model X"in qiyməti 117 minlə 127 min avro arasında dəyişir.



## Eşşək əti yediyi üçün öldürüldü

Hindistanda yaşayan bir ailə başçısı soyuducuda eşşək əti saxladığı və o əti yediyi üçün ölənə qədər döyülüb. Uttaq Pradeş əyalətindəki Dadri kəndində öldürülən Məhəmməd Ahlak 50 yaşlı təsərrüfat işçisi olub. Kəndlilər onun evinə hücum edərkən 22 yaşlı oğlu da ağır yaralanaraq xəstəxanaya aparılıb. Baş verən hadisənin törədicisi kimi 6 nəfər nəzarətə götürülüb. Polis dedi-qoduları kimin yaydığını öyrənməyə çalışır. Məlumat üçün Hindistanda eşşək kəsilməsi çox həssas mövzudur. Hindular tərəfindən inək və öküz müqəddəs hesab edilir. Uttaq Pradeş əyalətində isə eşşək əti yemək qadağan edilib. Lakin hökumətin bu qadağası əhali tərəfindən narazılıqla qarşılanmışdı. Döyülən ailənin 18 yaşlı qızı Sacidə "İndian Express"ə verdiyi müsahibədə 100 nəfərlik bir qrupun evlərinə hücum etdiyini deyib.

# Dəbla bağlı önəmli məsləhətlər

Qasid.az Rusiya mətbuatına istinadən xəbər verir ki, həm karyera, həm də ailə həyatında geyimlərimiz diqqət mərkəzində olmağımıza kömək edir. Bu səbəbdən mütəxəssislər bir neçə məsləhətə əməl etməyi vacib sayırlar. İlk növbədə əsl qadın olun. Qarderobunuzu zərif və rəngarəng geyimlərlə doldurun. Ən azından 2 rəngdən istifadə etməyə çalışın. Sintetik geyim almayın. Çünki o, keyfiyyətsiz və ucuz görünür. Seçdiyiniz rənglərin sizə uyğun olmasına diqqət yetirin. Yadınızda saxlayın ki, sarışınlar zərif rənglərə, qara saçlı xanımlar tünd parlaq rənglərə, kürənlər isə qəhvəyi tonlara üstünlük verməlidirlər. Geyimin ölçülərinə mütləq diqqət yetirin. Sizi kök göstərib-göstərmədiyini, hansı çatışmazlığınızı üzə vurduğunu nəzərdən keçirin. Qarderobunuzu formalaşdırarkən orijinal və təkrarolunmaz libasların yer almasına fikir verin. Zəhlətökən qara gödəkcələri və paltoları rəngli şərflərlə fərqləndirin. Hər dəfə dəyişik rənglərdən istifadə etməklə qara geyiminizi dəbə uyğunlaşdırmış olacaqsınız. Qarderobunuzda mütləq şəkildə aksessuar olmalıdır. Maraqlı kəmərlər, dəridən hazırlanmış müxtəlif əşyalar, pul kisəsi və s. də olduqca vacibdir.






## Qaçaqmalçılıq barədə xəbər verənə 5 milyon mükafat

Amerikalı polislər ölkədə benzin və tarixi əsər qaçaqmalçılığı haqda dövlətə xəbər ötürənə 5 milyon dollar verəcəklərini açıqlayıblar. Bu sahədə ilk dəfə bu qədər böyük pul verildiyini açıqlayan ABŞ Xarici İşlər Nazirliyi tarixi dəyəri olan pulların, zinət əşyalarının, dəyərli daşların və heykəllərin itməməsi üçün bu addımı atdığını deyib. Kampaniyanın digər məqsədi isə qaçaqçılığın qarşısının alınmasıdır. Məlumatlara görə, DAEŞ adlı qruplaşma qaçaqçılıq işindən ayda 8-10 milyon dollar qazanır. Bu rəqəm isə qruplaşmanın qaçaqmalçılıq işində 3 dəfə güclü olduğunu göstərir. Qaçaqmalçılıqdan əldə edilən pulun böyük hissəsi terroristlər və qaçaqçıların ailəsi üçün xərclənir.




**QOÇ** - Özünüzü gərginliyə salmayın. Uzun-uzadı kiməsə, nəyisə izah etmək enerji itkinizdən savayı bir iş deyil. Əgər bu kimi lüzumsuz işlərlə məşğul olsanız, ixtiyarınızda olan gündən zövq almayacaqsınız.

**BUĞA** - Kifayət qədər təzadlı ərəfədir. Hər addımı ölçüb-biçməyə çalışın. Mövqeyinizə zidd hərəkətlərə yol verməyin. Qəribə də olsa, astroloji göstəricilər saat 14-dən etibarən kiməsə güzəştə getməyi məsləhət görmür.

**ƏKİZLƏR** - Bütün işlərinizin qaydasında gedəcəyini bildirən Göy qübbəsi kiməsə yalan vəd verməyinizin əleyhinədir. Odur ki, bacarmadığınız işin qulpundan yapışmamalısınız. Dostlara güvənin.

**XƏRÇƏNG** - Günün ümumi mənzərəsi ürəyinizcə olacaq. Daxili süstlüyünüz və fəaliyyətlə bağlı gərginliyiniz arxada qalacaq. Ətrafınızdakı dost-tanışlar isə qarşıya qoyduğunuz məqsədlərə yetişməkdə sizə yardımçı olacaqlar.

**ŞİR** - Əgər bu təqvimdən zövq alıb rahatlanmaq istəyirsinizsə, mütləq səfərə çıxın. Bununla siz stress və mənəvi ağrılarınızı aradan qaldıra, enerjinizi daha da saflaşdıra bilərsiniz. Ailə-sevgi məsələlərində xırdaçılığa yer verməyin.

**QIZ** - Qarşınızda kifayət qədər mistik bir gün durur. Ola bilsin ki, anlaşılmaz hadisələrlə rastlaşasınız. Əgər bunun qarşısını almaq istəyirsinizsə, dua və ibadətlərinizin, müqəddəs yerlərə ziyarətlərinizin sayını artırmalısınız.

**TƏRƏZİ** - Bürcünüzün romantikaya olan hədsiz həvəsi çox güman ki, bu gün təmin olunacaq. Çünki saat 12-dən etibarən maraqlı gəzintilər, əsrarəngiz istirahət və münasibətlərdə müsbət dönüş yolunuzu gözləyir.

**ƏQRƏB** - Bəri başdan bilməlisiniz ki, gün ərzində enerji sərf etdiyiniz istənilən sahədə uğurlar sizi tərk etməyəcək. İstər fəaliyyətdə, istərsə də qarşılıqlı münasibətlərdə hər şey ürəyinizcə olacaq. Səfərləri isə təxirə salın.

**OXATAN** - Əsas diqqətinizi maliyyə məsələlərinə yönəldin. Yaxşı bilirsiniz ki, qlobal işləriniz pulsuz keçmir. Bu səbəbdən də kiməsə borc vermək fikrinə düşməyin. Ulduzlar başqalarının şəxsi işlərinə müdaxilə etməyinizin əleyhinədir.

**OĞLAQ** - Bütün vacib işlərinizi saat 11-14 arası tamamlamağa çalışın. Əmin olun ki, həmin qısa vaxtda qarşınızda duran vəzifələrin əksəriyyətini həyata keçirə biləcəksiniz. Qalan vaxtlar riskli və yeni işlərdən imtina edin.

**SUTÖKƏN** - Ehtiyatlı olun, səhhətinizlə bağlı xoşagəlməzliklər baş verə bilər. Ələlxüsus da saat 12-16 arası özünüzü maksimum qorumalı, əsəblərinizi cilovlamalısınız. Bu gün istənilən səfəri təxirə salsanız, yaxşıdır.

**BALIQLAR** - "Nə ətdir, nə balıq" misalını indiki durumunuza aid etsək, heç də yanılmarıq. Çünki çəkdiyiniz əziyyətlər hədər gedir. Amma bu gün inanmadığınız istiqamətdən yaranmış boşluğu dolduranlar tapılacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadınlara özəl göz yaşı silmə servisi



Yaponiyada "İlkemeso Danşi" adlı bir firma çox işdən və ağır həyat tərzindən yorulan qadınların köməyinə gəlir. Belə ki, şirkət qadınların hər hansı biri istənilən səbəbdən ağlamağa başladığı zaman yaraşıqlı oğlanlardan biri göndərir və həmin qadının göz yaşlarını silir. "İkemeso Danshi" yapon dilindən tərcümədə "gözyaşı silən yaraşıqlı kişi" deməkdir. Hiroki Tekai adlı yapon biznesmen tərəfindən başladılan xidmət qadınlar romantik film izləyib ağladığı zaman da əməkdaşlarını göndərə bilir. Bu xidmətin qiyməti isə 8 min yendir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300